Şahkərəm Məmmədov

# İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ PEDAQOJİ ƏSASLARI

Dərs vəsaiti

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**ŞAHKƏRƏM MƏMMƏDOV**

# İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ PEDAQOJİ ƏSASLARI

*Dərs vəsaiti*

*Bakı Slavyan Universiteti Elmi Şurasının 31 may 2018-ci il tarixli iclasının qərarı ilə (protokol №09) çapa tövsiyə edilmişdir.*

**Bakı – Mütərcim – 2018**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**ŞAHKƏRƏM MƏMMƏDOV**

# İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ PEDAQOJİ ƏSASLARI

*Dərs vəsaiti*

*Bakı Slavyan Universiteti Elmi Şurasının 31 may 2018-ci il tarixli iclasının qərarı ilə (protokol №09) çapa tövsiyə edilmişdir.*

**Bakı – Mütərcim – 2018**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**ŞAHKƏRƏM MƏMMƏDOV**

# İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ PEDAQOJİ ƏSASLARI

*Dərs vəsaiti*

*Bakı Slavyan Universiteti Elmi Şurasının 31 may 2018-ci il tarixli iclasının qərarı ilə (protokol №09) çapa tövsiyə edilmişdir.*

**Bakı – Mütərcim – 2018**

**Elmi redaktor:** **H.A.Cəfərov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Redaktor:** **A.A.Axundova,**
*fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **K.A.Məmmədov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**A.N.Abbasov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor,*
*Azərbaycan Respublikasının  Əməkdar müəllimi*

**P.B.Əliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor,*
*Azərbaycan Respublikasının Əməkdar müəllimi*

**S.L.Axundova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Ç.M.Məmmədova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Ş.M.MƏMMƏDOV. İBTİDAİ SİNİF MÜƏLLİMİNİN PEDAQOJİ FƏALİYYƏTƏ HAZIRLANMASININ PEDAQOJİ ƏSASLARI.**
*Dərs vəsaiti.* – Bakı, "Mütərcim", 2018. – 152 s.

*Dərs vəsaiti ali pedaqoji məktəb tələbələrini ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji əsasları haqqında müəyyən biliklərlə silahlandırmaq məqsədi daşıyır. Vəsait tələbələr, magistrantlar, doktorantlar, orta, orta ixtisas və ali pedaqoji məktəb müəllimləri, həmçinin pedaqoji fəaliyyətlə məşğul olan digər işçilər üçün də faydalıdır.*

$M\ \frac{4306020000}{026}\ 83\text{-}18$

© Ş.M.Məmmədov, 2018

# MÜNDƏRİCAT

ÖN SÖZ ........................................................................................ 6

**I FƏSİL**
**İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ ELMİ-NƏZƏRİ ƏSASLARI** ..................... 10
1.1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji-psixoloji aspektləri ......................................................... 10
1.2. Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətləri.......................... 28

**II FƏSİL**
**ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ VƏ ALİ TƏHSİLDƏN SONRAKI MƏRHƏLƏDƏ İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASI PROBLEMLƏRİ**53
2.1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının təcrübəyönümlü modelin işlənilməsi ............................................... 53
2.2. Ali təhsil müəssisələrində tələbələrin tərbiyəvi fəaliyyətə hazırlanması prosesinin təşkili ....................................................... 72
2.3. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasında ixtisasartırma sisteminin imkanlarından istifadə .............................101

NƏTİCƏ.......................................................................................133
ƏDƏBİYYAT ...............................................................................135

**Müstəqil Azərbaycan Pespublikasının daha da tərəqqisi və çiçəklənməsi naminə gənc nəsillərin tərbiyəsi, təlimi və təhsili sahəsində dövlət siyasətini əzmlə həyata keçirən xalq müəllimlərinə ithaf edirəm.**

*"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".*

*HEYDƏR ƏLİYEV*

# ÖN SÖZ

Böyüyən nəsillərin təlim-tərbiyəsi sahəsində aparılan islahatlar, təhsilin Avropa standartları səviyyəsinə qaldırılması, Vətənimizi beynəlxalq miqyasda layiqincə təmsil edə biləcək, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrların hazırlanması bütövlükdə müəllimin, xüsusilə uşaqlarda elmi biliklərin bünövrəsini formalaşdıran ibtidai sinif müəlliminin şəxsi və peşə keyfiyyətlərinin zənginləşdirilməsi, dövrün tələblərinə müvafiq pedaqoji və metodiki hazırlığının təkmilləşdirilməsilə şərtlənir. "Cəmiyyətin inkişafı ilə müəllim peşəsinin statusu düz mütənasibdir. Belə ki, bütövlükdə müəllimin fəaliyyəti ölkənin həyatında baş verən siyasi, ictimai-iqtisadi və mədəni dəyişikliklərlə şərtlənir. Dövlətin maddi-texniki bazası möhkəmləndikcə, məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə, keyfiyyətcə bir mərhələdən digərinə yüksəldikcə, qanunauyğun olaraq üstqurumun başlıca komponentlərindən biri kimi təhsilin (təlimin, tərbiyənin) də məqsədi, vəzifələri və məzmu-

nu dəyişir. Tərbiyə institutları və onları təmsil edən subyektlər isə cəmiyyətin cari və perspektiv tələbatına müvafiq olaraq fəaliyyətlərinin başlıca istiqamətini yeni məqsədin, vəzifələrin dərk edilməsi və həyata keçirilməsinə yönəldirlər" (14, s.306).

Bu baxımdan ibtidai sinif müəlliminin müasir təlim-tərbiyəvi fəaliyyətə hazırlanması elmi pedaqogikanın aktual problemlərindən biridir. Belə ki, ölkəmizin dünya birliklərinə uğurla inteqrasiya etdiyi indiki dövrdə şagirdlərin tərbiyəsinə təsir göstərən amillərin artdığını nəzərə alaraq məqsədyönlü və mütəşəkkil tərbiyəvi təsirlər də gücləndirilməlidir. Böyüyən nəslin meyil, maraq və tələbatlarını peşəkarlıqla ödəyə biləcək kompetensiyalı (bilik, bacarıq və vərdişlərə malik) ibtidai sinif müəlliminin hazırlanması onun yeni şəraitə uyğunlaşmasına, vətəndaş mövqeyini müəyyənləşdirməsinə, tərbiyəvi fəaliyyətini düzgün qurmasına, öz pedaqoji-psixoloji bilik və bacarıqlarının səmərəli tətbiqinə, tərbiyənin forma və üsullarını düzgün seçə bilməsinə kömək etməlidir.

Cəmiyyətimizdə gedən müsbət ictimai-iqtisadi dəyişikliklər təhsil müəssisələrində təlim prosesinin keyfiyyətinə nəzərəçarpacaq təsir göstərmişdir. Belə ki, təhsil, təlim-tərbiyə prosesinin gedişi və nəticələrini yaxşılaşdırmaq məqsədilə yeni təlim texnologiyalarından istifadəyə üstünlük verilmiş, düşünülmüş konsepsiyalar, tədris planları tərtib olunmuş, müasir təhsil infrastrukturu yaradılmış və son nəticədə təhsilin keyfiyyətinin yüksəldilməsi sahəsində müəyyən müsbət nəticələr əldə edilmişdir. Lakin ayrı-ayrı qabaqcıl müəllimlərin təlimin təhsilləndirici (öyrədici) vəzifələrini uğurla yerinə yetirmələrilə yanaşı, bütövlükdə təlim üsullarının tərbiyəedici imkanlarından az istifadə olunmuşdur. Bu isə onların tərbiyə sahəsində müasir pedaqoji konsepsiyalar haqqında məhdud məlumata malik olmaları ilə şərtlənir. Belə ki, ibtidai sinif müəllimləri və məktəb rəhbərləri tərbiyəyə nisbətən təhsilin müasir nəzəriyyə və texnologiyalarını daha yaxşı bilirlər. Halbuki təhsil sahəsində dövlət siyasətini həyata keçirən tərbiyə institutu kimi məktəbin inkişafı onun təhsil və tərbiyə funksiyalarını paritet əsasda və kompleks şəklində yerinə yetirməsi ilə şərtlənir.

Tərbiyə işində yeni konseptual yanaşmaların həyata keçirilməsi müəllimin peşəkarlıq, pedaqoji mədəniyyət səviyyəsinin və şəxsi məsuliyyət hissinin əsaslı şəkildə yüksəldilməsi şəraitində mümkündür. Bununla əlaqədar olaraq ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması məsələsi kəskin şəkildə ortaya çıxır.

Cəmiyyətimizin müasir inkişaf mərhələsində ibtidai sinif müəlliminin qarşısında mühüm vəzifələr durur. Bu gün parta arxasında əyləşən hər bir məktəbli bir neçə ildən sonra müstəqil həyata atılacaq və cəmiyyətin ictimai həyatında fəaliyyət göstərəcəkdir. Gənc nəslin həyata düzgün hazırlanması ali təhsil aldığı müddətdə və ali təhsildən sonrakı mərhələdə gələcək müəllimin tərbiyəvi fəaliyyətə hazırlıq səviyyəsindən asılıdır. Müasir şəraitdə ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının səmərəli forma və metodlarının axtarılması, onların ali təhsil müəssisələrində və ixtisasartırma sistemində tətbiqi ilə bağlıdır.

Azərbaycanın görkəmli mütəfəkkirləri A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, M.M.Kazımbəy, S.Ə.Şirvani, M.T.Sidqi, sonrakı dövrdə C.H.Məmmədquluzadə, F.B.Köçərli, R.B.Əfəndiyev, M.Ə.Sabir, N.N.Nərimanov, Ü.Ə.Hacıbəyov, habelə ilk peşəkar pedaqoqlardan M.M.Mehdizadə, Ə.Y.Seyidov, M.Ə.Muradxanov və b. ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması, bütövlükdə, müəllim hazırlığı sahəsində əvəzsiz xidmətlər göstərmişlər.

Pedaqoji ali təhsil müəssisələrində mütəxəssis hazırlığının nəzəri əsasları, peşə fəaliyyəti prosesində tərbiyə işinə sistemli yanaşma, pedaqoji prosesin tamlığı, ümumi pedaqoji-peşə istiqamətləri problemlərini Azərbaycan alimləri Ə.Ə.Ağayev, M.Ə.Həmzəyev, M.A.İsmixanov, Ə.Ş.Həşimov, N.M.Kazımov, Y.R.Talıbov, Y.Ş.Kərimov, H.Ə.Əlizadə, Ə.X.Paşayev, F.A.Rüstəmov və b. tədqiq etmişlər.

Müəllimin peşə bacarıq və vərdişlərinin inkişafı problemlərinin tədqiqinə C.Q.Alıyev, T.D.Ələkbərov, V.H.Əliyev, Z.T.Müslimov; pedaqoji ünsiyyəti probleminin araşdırılmasına M.Ə.Həmzəyev, A.M.Həsənov, V.A.Kan-Kalik, Y.Ş.Kərimov, A.V.Mudrik və digər alimlərin əsərlərində daha çox diqqət yetirilmişdir.

Bütövlükdə müəllimin tərbiyə işinə hazırlığı problemi pedaqoji aspektdə klassik Avropa pedaqoqları Y.A.Komenski, A.V.Disterveq, İ.H.Pestalossi, rus pedaqoqları K.D.Uşinski, P.P.Blonski, S.T.Şatski, A.S.Makarenko, V.A.Suxomlinski və başqaları tərəfindən işlənilmişdir.

Cəmiyyətin müasir inkişaf dövründə pedaqoji peşə problemlərinin uğurlu həlli bu fəaliyyətə hazırlığın mükəmməlliyi və keyfiyyəti ilə şərtlənir. Belə hazırlıq müəllimə yeni iş şəraitinə tez uyğunlaşmağa, düzgün pedaqoji və vətəndaş mövqeyi tutmağa, pedaqoji fəaliyyətin başlıca istiqamətlərini müəyyənləşdirməyə, öz pedaqoji bilik və bacarıqlarından səmərəli istifadə etməyə, peşə vəzifəsini müvəffəqiyyətlə yerinə yetirməyə, tərbiyənin metod, forma və vasitələrini düzgün seçməyə və tətbiq etməyə kömək edir. Bu baxımdan mövcud dərs vəsaiti elmi-pedaqoji əhmiyyət kəsb edir.

***Heydər Cəfərov,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

*"Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanı vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də, gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyəolunsun. Ona görə də, gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".*

*HEYDƏR ƏLİYEV*

# I FƏSİL

# İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ ELMİ-NƏZƏRİ ƏSASLARI

## *1.1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji-psixoloji aspektləri*

Şagird şəxsiyyətinin formalaşdırılmasında ictimai hadisə kimi tərbiyənin və tərbiyəvi fəaliyyətin əhəmiyyətinin təhlilinə əsasən deyə bilərik ki, dövlətin iqtisadi quruluşundan, maddi-texniki bazasından asılı olmayaraq Azərbaycanda bütövlükdə insanların, xüsusilə gənc və böyüyən nəsillərin tərbiyəsi bütün tarixi dövrlərdə yüksək dəyərləndirilmiş və diqqət mərkəzində olmuşdur.

Ölkəmizdə aparılan təhsil islahatları şəraitində ümumtəhsil məktəblərində tərbiyəvi fəaliyyətin, ali təhsil müəssisələrində isə

müəllimlərin tərbiyəvi fəaliyyətə hazırlanması işinin həyata keçirilən islahatların tələblərinə tam uyğunlaşdırılmaması nəticəsində yaranan çatışmazlıqlar şagird şəxsiyyətinin formalaşdırılması prosesində tərbiyənin əhəmiyyətini bir daha təsdiq edir.

Müəllimin tərbiyə işinə hazır olmasını bir qayda olaraq alimlər müəllim şəxsiyyətinin inkişafı və fasiləsiz peşə hazırlığı çərçivəsində öyrənmişlər. Pedaqoji-psixoloji ədəbiyyatın və elmi-tədqiqat işlərinin təhlili bizə bu sahəni problem qismində araşdırmağa sövq etdi.

A.M.Babayev, V.C.Xəlilov, S.Ə.Şəfiyev, V.A.Muradzadə, M.S.Eminov, Z.Ş.Qasımova və digər Azərbaycan alimləri müəllim hazırlığının müxtəlif aspektlərini (vətəndaşlıq tərbiyəsi, estetik tərbiyə, uşaq ictimai birlikləri ilə iş, müəllim hazırlığında bölgə xüsusiyyətlərinin nəzərə alınması, yaradıcı müəllim şəxsiyyətinin formalaşdırılması, tərbiyə işinin təşkilində fərdi-yaradıcılıq) araşdırmış və onun nəticələrini elmi əsərlərində işıqlandırmışlar.

Bu sahədə rus alimlərinin apardıqları tədqiqatlar da təqdirəlayiqdir. Problem baxımından V.A.Slastenin, İ.A.Zyazyun, V.A.Kan-Kalık, İ.A.Kolesnikova və Y.P.Belozersevin elmi-pedaqoji fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, bu xüsusda alim-tədqiqatçı V.A.Slastenin tərəfindən işlənilmiş müəllim hazırlığı modeli şəxsiyyətyönümlü fikirlər əsasında qurulmuşdur ki, bu da müəllim şəxsiyyəti formalaşdırmağa imkan verir. O, belə hesab edir ki, müasir müəllim yalnız pedaqogika və psixologiya sahəsində deyil, iqtisadiyyat və hüquqa aid biliklərə, tərbiyə və təşkilatçılıq işlərinə, kompyuter təhsilinə, yüksək mədəniyyətə malik olmalı, xarici dili mükəmməl bilməli, biliklərinin fasiləsiz yeniləşməsi və zənginləşməsinə təlabat hiss etməli, innovasiyalara hazır olmalıdır. Gələcək müəllim eksperimental fəaliyyətə qabil olmalı və bununla yanaşı, təlimin təşkili prosesində tolerantlıq nümayiş etdirməlidir. Müəllimin şəxsi keyfiyyətləri onun bilik və peşə bacarıqları ilə uzlaşmalıdır. Gələcək müəllimə düşünmək mədəniyyəti və məlumatların əldə edilməsində müstəqillik kimi keyfiyyətlər də xas olmalıdır (170).

İ.A.Zyazyun tədqiqatçılar qrupu ilə birlikdə pedaqoji təhsil və pedaqoji ustalığın əsaslarının formalaşmasına şəxsiyyətyönümlü ya-

naşma konsepsiyasını işləyib hazırlamışdır. Bu konsepsiyanın əsasını gələcək müəllimin peşə hazırlığına şəxsiyyət aspektindən yanaşma ideyası təşkil edir. Bu tələbəyə özünü müəllim rolunda hiss etməyə və praktiki məsələlərin həllində şəxsi imkanlarını qiymətləndirməyə şərait yaradır (116).

V.A.Kan-Kalık müəllimin pedaqoji fəaliyyətə hazırlığının aşağı səviyyədə olmasının səbəblərini təlim prosesinə reproduktiv yanaşmada görür və bunun əksi olan fərdi-yaradıcı metodu ön plana çəkir və ona qarşı qoyur. Onun məqsədi müəllimin fərdi yaradıcılığını üzə çıxarmaq və formalaşdırımaqdan, onun peşəkar fikirlərini, əvəzsiz fəaliyyət texnologiyasını inkişaf etdirməkdən ibarətdir. V.A.Kan-Kalık müəllimin fərdi yaradıcılığının aşkarlanması və formalaşdırılmasının, ixtisasa yiyələnməkdə şəxsi səviyyəsinin müəyyənləşdirilməsinin vacibliyini əsaslandırmış, həmçinin pedaqoji ünsiyyətin müəllim şəxsiyyətinin inkişafına təsir göstərməsinə diqqət yetirmişdir. O, qeyd etmişdir ki, pedaqoji ünsiyyətdə müəllim şəxsiyyətinin subyektiv-emosional tərəfi aktuallaşır, bununla əlaqədar pedaqoji təhsilin quruluşu və məzmununda yeniliklərin edilməsinin vacibliyi ortaya çıxır (119, s.97).

İ.A.Kolesnikova pedaqoji sahədə mütəxəssis hazırlığına müəllimlik peşəsi üşün vacib əhəmiyyət kəsb edən "insan-insan" nöqteyi-nəzərindən yanaşmağı təklif edir. Bu yanaşma onların ayrı-ayrılıqda deyil, birgə fəaliyyəti prosesində inteqrativ keyfiyyətlərinin formalaşdırılmasını nəzərdə tutur. Bu keyfiyyətlərin hər iki tərəf üçün ayrılıqda konkretləşdirilməsi və mənimsənilməsi, eləcə də öz fərdi yaradıcılıqlarında təzahür etməsi lazımdır. Belə yanaşma müəllim hazırlığı üçün aşağıdakı xüsusiyyətlərin olmasını vacib hesab edir: 1) özündə yaradıcı fəallıq və müstəqillik keyfiyyətlərinin mövcudluğunu dərk etmək; 2) şagirdlərlə qarşılıqlı yaradıcı əlaqəyə tələbat hiss etmək; 3) bilik, bacarıq və vərdişlərə malik olmaq, idrak və əmək prosesini təşkil etmək, yaradıcı fəaliyyətdə ünsiyyət qabiliyyətinə yiyələnmək (125).

İ.A.Kolesnikovanın fikrincə, pedaqoji elmlərin nəzəri-metodoloji əsasını müəllim hazırlığında başlıca rol oynayan idrak fəaliy-

yəti, praktiki təcrübə və özünütəsdiq təşkil etməlidir. Müəllif öz tədqiqatlarında ictimai-tarixi şəraitin inkişafı, cəmiyyətin demokratikləşdirilməsi və məktəbin humanistləşdirilməsi ilə əlaqədar pedaqoji fənlər sistemində də dəyişikliklər etməyin tərəfdarı olduğunu vurğulamışdır. O, qeyd etmişdir ki, müasir məktəbə yeni konseptual düşüncəli, baş verən ictimai-pedaqoji pro-seslərin mahiyyətini dərk etməyə qabil müəllimlər lazımdır. Məhz buna görə müəllim hazırlığının əsas istiqamətlərindən biri də onların peşəkarcasına inkişaf etməsi üçün özünüdərkin və özünüidarənin rolunu gücləndirmək, müəllimləri müstəqil işə daha çox cəlb etmək hesab edilir (126).

Bakı Slavyan Universitetinin müəlliflər qrupu tərəfindən hazırlanmış əsərdə ibtidai sinif müəlliminin peşə fəaliyyətinə hazırlanmasının fasiləsiz bir proses olduğu qeyd edilmişdir. Müəlliflərin fikrincə, ali təhsil müəssisələri gələcək müəllimin qarşısına qoyduğu peşə məqsədinə çatmağa cəhd göstərməsi, mütəxəssis kimi inkişaf etməsi üçün yaxşı şərait yaratmalı, ona əsaslı biliklər verməli, pedaqoji fəaliyyətin metodologiyasını öyrətməli və onun demokratikləşdirilməsinə səy göstərməlidir (153, s.16).

Y.P.Belozersev öz əsərlərində müəllim hazırlığı üçün pedaqoji ali təhsil müəssisələrinin vəzifələrini müəyyənləşdirmişdir. Onun fikrincə, pedaqoji peşəyönümü pedaqoji ali təhsil müəssisələrinin, müəllimləri təkmilləşdirmə institutlarının və təhsili idarəetmə orqanlarının birgə işidir. Bu zaman ümumtəhsil məktəblərinin yeniləşməsinə nisbətən pedaqoji təhsilin inkişafının daha sürətli olması və onu qabaqlaması nəzərə alınmalıdır. Müəllif belə hesab edir ki, pedaqoji ali təhsil müəssisələrinin səmərəli işinin əsas göstəricisi tələbə və gənc müəllimi bir şəxsiyyət kimi yetişdirə bilməsidir (83, s.5) Kollektivdə davranış, həyat mövqeyi, dəyərlərə münasibət, təhsil və tərbiyəlilik səviyyəsi, özünütəsdiq üsullarına malik olma və s. keyfiyyətlər müəllim şəxsiyyətinə xas olan vacib xüsusiyyətlərdir. Y.P.Belozersevin rəyinə görə, müəllimin pedaqoji fəaliyyətdə müvəffəqiyyət qazanması üçün onun özündə təhsilini daim artırmaq tələbatını formalaşdırması xüsusilə böyük əhəmiyyət kəsb edir (84, s.206).

Tədqiqatçı pedaqoqların fikrincə, müəllim hazırlığında fasiləsizlik və varislik təhsil sisteminin hər bir sonrakı pilləsinə məqsəd, məzmun və təşkilat formalarının varisliyi vasitəsi ilə ötürülür (124; 152).

Beləliklə, ibtidai sinif müəlliminin peşə hazırlığı ilə bağlı olan bu konsepsiyalardan bizim tədqiqatımız üçün aşağıdakı müəddəaları vacib hesab etmək olar:

1) ibtidai sinif müəlliminin peşə fəaliyyətində şəxsiyyət mövqeyinin əsas yer tutması;

2) ibtidai sinif müəlliminin peşə fəaliyyətində nəzəriyyə və təcrübənin vəhdətinin reallaşdırılması;

3) tərbiyə işinin təşkilində ibtidai sinif müəlliminin peşəkarlığına istinad edilməsi;

4) ibtidai sinif müəlliminin şəxsiyyət kimi özünüinkişafı və özünütəkmilləşdirməsi, fərdi yaradıcılığını reallaşdırması üçün hərtərəfli şərait yaradılması;

5) fasiləsiz pedaqoji təhsil ideyasının həyata keçirilməsi.

Bu müddəaların hər birini qanunauyğun hesab etmək olar. Lakin bu gün Azərbaycanın Arvopa təhsil sisteminə inteqrasiyası, yeni ictimai-iqtisadi şərait universitet tələbələri və gələcək müəllimlərin təhsil müəssisələrində tərbiyə işinin aparılmasına hazırlığı probleminə və ibtidai sinif müəlliminin şəxsiyyətinə yeni, daha mütərəqqi mövqedən yanaşmağı tələb edir.

“Tərbiyə”, “tərbiyəvi fəaliyyət”, “tərbiyəvi fəaliyyətə hazırlanmanın təşkili” kimi anlayışların təhlili onlar arasında mövcud olan dialektik əlaqəni üzə çıxarmağa və onların mahiyyətini müəyyənləşdirməyə imkan verir ki, bu da bizim tədqiqatımız üçün çox vacibdir. Bəzi tədqiqat işlərində (B.A.Əhmədov, Y.Ş.Kərimov, V.H.Əliyev, S.S.Tağıyeva, Y.P.Belozersev, Ş.V.Bobrısev, V.M.Danilçenko və b.) tədqiqat baxımından bizi maraqlandıran “hazırlıq prosesi”, “keyfiyyətlərin formalaşdırılması”, “hazır olma” anlayışları işlədilir. Problemə aid elmi-nəzəri ədəbiyyatın təhlili göstərir ki, bu anlayışların mahiyyətinə münasibət fərqlidir. Bəzi alimlərin (Ş.V.Bobrısev, V.M.Danilçenko və b.) əsərlərində bu anlayışların interpretasiyası verilir, bəzi alimlər (Y.Ş.Kərimov, E.P.Belozersev

və b.) isə anlayışlarının izahı ilə kifayətlənirlər. Biz, bir tərəfdən, tədqiqatımıza bilavasitə aidiyyatı olduğunu nəzərə alaraq "hazırlanma" anlayışını, onun pedaqoji-psixoloji əsaslarını aydınlaşdırmağı məqsədəuyğun hesab edirik. Digər tərəfdən, bu ondan irəli gəlir ki, tərbiyəvi fəaliyyətə hazırlanma prosesində ibtidai sinif müəlliminin pedaqoji qabiliyyətləri, şəxsi keyfiyyətləri formalaşdırılır, onun bu peşəyə hazır olma səviyyəsi yüksəldilir və hazırlıq dərəcəsi müəyyənləşdirilir.

Beləliklə, "hazırlanma" daha geniş mənada işlədilir və araşdırılan ədəbiyyatda:

– pedaqoji-psixoloji proses kimi;

– pedaqoji qabiliyyətlərin, şəxsi keyfiyyətlərin formalaşdırılması kimi;

– hazırlıq səviyyəsinin yüksəldılməsi kimi;

– insanın məqsədi müəyyənləşdirməsi, onu həyata keçirmə metodlarını seçməsi, özünənəzarətin təşkili, fəaliyyəti üçün plan və proqramın hazırlanması kimi;

– geniş dünyagörüşə, dərin, hərtərəfli, kamil və sistemli peşə səriştəsinə yiyələnməyə hazırlanması və s. kimi izah edilir.

Müəllimin tərbiyəvi fəaliyyətə hazırlanmasının qiymətləndirilməsində fərqli münasibətin olduğunu nəzərə alaraq bu fikrə iki əsas yanaşmanı qeyd etmək olar: 1) tərbiyəvi fəaliyyətə hazırlanma; 2) şəxsiyyət kimi formalaşdırma. Tərbiyəvi fəaliyyətə hazırlanma dedikdə, müəllimin bu fəaliyyətə başlamağa hazır olması və psixi proseslərin baş verdiyi şərait nəzərdə tutulur. Bu yanaşmada hazırlanmanın müəllimin daxilən bu prosesə hazır olma hissi ilə şərtləndiyi nəzərə çarpır. Hazır olma hissi isə tələbatlar və motivlərin əsasında tərbiyəvi fəaliyyətdə məqsədin müəyyənləşdirilməsindən başlayır.

D.N.Uznadze hazır olmanı fəaliyyətə ruhlandırılma kimi izah etmişdir. O, bu anlayışı kiçik psixoloji fenomen kimi deyil, subyektin bütövlükdə vəziyyəti kimi başa düşüldüyünü qeyd edirdi. Bu, o deməkdir ki, fəaliyyətə ruhlandırılma obyektiv şəraitin təsirindən əmələ gələn psixoloji fəallıq yaradır və onu yaradan obyektiv şəraitin əks olunduğu vəziyyəti təqdim edir. Burdan belə nəticəyə gəl-

mək olar ki, fəaliyyətə ruhlandırılma sırf subyektiv hal olmayıb, obyektiv hadisələrin subyektə təsiri nəticəsində yaranır (179, s.66).

V.N.Myasişevin fikrincə, insanın fəaliyyətə hazır olması, onun bu işə müsbət münasibətindən başlayır. Fəaliyyət zamanı münasibət, eləcə də fəaliyyətə ruhlandırılma üçün şəxsiyyətə daxili qüvvələrini səfərbər etməsi xarakterikdir (145).

Fəaliyyətə hazır olma hissi tələbatlar və motivlərin əsasında məqsədin müəyyənləşdirilməsindən, yaxud insanın qarşısında duran vəzifələri dərk etməsindən başlayır. Bundan sonra insan qarşıdakı fəaliyyət üçün plan, sxem və s. hazırlayır, ayrı-ayrı hissələrin hazırlığı ilə məşğul olur. Ümumiyyətlə, fəaliyyətə hazır olmada, onun təşkili və qorunub saxlanılmasında şəxsiyyətin keyfiyyətləri həlledici rol oynayır.

Beləliklə, fəaliyyətə hazır olmanın funksional istiqamətini öyrənən alimlər belə hesab edirlər ki, şəxsiyyətin bu və ya digər fəaliyyətə hazırlanması onun bu fəaliyyətə hərtərəfli hazır olması ilə şərtlənir.

İkinci istiqamətin nümayəndələri, yəni müəllimin şəxsiyyət kimi hazırlanmasına üstünlük verən alimlər (Z.İ.Kalmıkova, R.A.Nizamov, V.A.Slastenin və b.) onun fəaliyyətinin səmərəli olmasını təmin edən şəxsi təhsilin vacibliyini ön plana çəkirlər (118; 148; 171).

Tədqiqatçı-pedaqoqların fikrincə, şəxsiyyət kimi hazırlanma müəllimin inteqrativ keyfiyyətlərinin – bilik, bacarıq, vərdişlər, konkret hərəkətlərə maraq və həvəsin göstərilməsi və bu kimi keyfiyyətlərin məcmusu kimi başa düşülür. Hazır olma öz əməyini təşkil edə bilmək, inkişaf perspektivlərini görmək və müstəqil işləmək bacarıqlarını özündə birləşdirir.

Hazır olmanı təhsilli olmaq, təlim görmək, başqa sözlə, şəxsiyyətin vacib bilikləri fəal surətdə, uğurla mənimsəməsi, bacarıq və vərdəşlərə yiyələnməsi kimi izah edirlər.

Şəxsiyyət qarşısında qoyduğu məqsədə çatmaq üçün bütün vacib olan məlumatları toplayır, fəaliyyət planı hazırlayır və mövcud real şəraiti təhlil edir.

Bir çox müəlliflər qeyd edirlər ki, insanın hər hansı bir işə hazırlanmasının səmərəliliyi onun bu işə hazır olma səviyyəsindən, bir şəxsiyyət kimi möhkəm xarakterli olmasından çox asılıdır. Əgər möhkəm xarakter və fəaliyyətə hazır olma motivləri varsa, hazırlanma prosesini təşkil etmək asanlaşır. Bu halda hazırlanma uğurlu fəaliyyətin ilkin şərti kimi uzunmüddətli və müəyyən struktura: peşə fəaliyyətinə, eyni zamanda tərbiyəvi fəaliyyətə müsbət münasibətə, peşə fəaliyyətinin tələblərinə uyğun şəxsi keyfiyyətlərə, pedaqoji qabiliyyətlərə, fəaliyyətə hazır olma motivlərinə, eləcə də, vacib bilik, bacarıq və vərdişlərə malik olur.

T.V.Nester "hazır olma" anlayışının xüsusiyyətinə müxtəlif yanaşmaları ümumiləşdirərək üç əsas istiqaməti ayırmışdır:

– şəxsiyyətin funksional səviyyədə özünü biruzə verən xüsusi vəziyyəti kimi;

– şəxsiyyətin inteqrativ təzahürü, başqa sözlə, şəxsi səviyyədə özünü biruzə vermə vəziyyəti kimi;

– şəxsiyyətin həm funksional, həm də şəxsi səviyyədə özünü biruzə verə bilən xüsusi psixi vəziyyəti kimi (147, s.35).

"Hazırlanma" və "hazır olma" anlayışlarını pedaqoji fəaliyyətə aid edən müəlliflərin tədqiqatlarına müraciət etdikdə, yenə də "hazırlanma"nın tam pedaqoji proses, "hazır olma"nın isə onun tərkib hissəsi kimi izah olunduğunu görürük.

Belə ki, S.V.Bobrişev "hazırlanma" və "pedaqoji fəaliyyətə hazır olma" məfhumlarını bir-birindən fərqləndirir. O, "hazırlanma" anlayışını nəzəri və praktiki işləri, şəxsi motivləri, təşkilatı və məzmun komponentlərini özündə birləşdirən bütöv bir proses kimi izah edir. "Hazır olma" anlayışına isə "şəxsiyyətin keyfiyyətlərinin göstəricisi" kimi baxır, "hazır olma" anlayışının ümumi "hazırlanma"nın tərkib hissəsi olduğunu göstərir (88, s.6-7).

V.M.Danilçenko bu anlayışlara gələcək müəllimin fərdi yaradıcılıq konsepsiyası çərçivəsində yanaşmağı təklif etmişdir. O, fəaliyyətə hazırlığı "ümumi və pedaqoji mədəniyyətin formalaşdırılmasının şərti" kimi izah edərək, humanist vəzifələri yerinə yetirən müəllimi həm mədəniyyət daşıyıcısı, həm də mədəniyyət yaradıcısı

olduğunu qeyd etmişdir. Tədqiqat işində müəllif fərdi yaradıcılığa müəllimin pedaqoji fəaliyyətə hazırlanmasının nəticəsi kimi, "hazır olma" anlayışına isə müəllimin fərdi yaradıcılığa hazırlığının nəticəsi və eyni zamanda, "gələcək müəllimin yaradıcı fəaliyyətinin nailiyyətlərinin, ümumi və pedaqoji mədəniyyətinin ifadəsi" kimi baxır (108, s.8).

Y.P.Belozersev də öz tədqiqatlarında bu anlayışların izahına xüsusi diqqət yetirmişdir. "Hazırlıq" anlayışı, onun fikrincə, nəzəri və praktik hazırlığı özündə birləşdirən "müəllimin peşə tərbiyəsinin" tərkib hissəsi kimi başa düşülür. Bununla bağlı "hazır olma" anlayışı alim tərəfindən "inteqral təhsil" kimi izah olunur. "İnteqral təhsil – kollektivin həyat və fəaliyyətinin təşkilində, idarə olunmasında, həmçinin, kollektivin hər bir üzvünün tərbiyəsində müsbət nəticələrin əldə edilməsinə kömək göstərən xüsusiyyətləri özündə birləşdirir. Müəllif "tərbiyə işinin təşkili və aparılmasına hazırlığın ümumi və bu peşəyə aid xüsusi bilik və bacarıqların əsasında mümkün olduğunu" vurğulamışdır (83; 84).

Beləliklə, müəllim hazırlığına aid bu anlayışları şərh edən müəlliflərin fikirlərinin təhlili bizə ibtidai sinif müəlliminin peşə fəaliyyətinə hazırlığının bu sahədə müəyyən biliklərin əldə edilməsi, bacarıq və vərdişlərin formalaşdırılması, müəllim şəxsiyyətinin təkmilləşdirilməsi və özünütəsdiqi üçün vacib olan xüsusiyyətlərin, eləcə də şəxsi keyfiyyətlərinin inkişafının nəticəsi olduğunu deməyə əsas verir.

Pedaqoji fəaliyyətə hazırlığın səciyyəvi xüsusiyyətləri ilə bağlı bir çox əsərlər mövcuddur. (Y.Ş.Kərimov, M.A.İsmixanov, V.H.Əliyev, T.M.Muradova, V.C.Xəlilov, K.M.Duray-Novakova, N.V.Kuzmina, J.N.Kulyutkin, P.A.Nizamov, A.A.Rean, V.A.Slastenin və b.)

A.A.Reanın tədqiqatlarında müəllimin peşə fəaliyyətinə sosial-psixoloji hazırlığı əməkdaşlığın müxtəlif formalarına müsbət münasibət kimi, birgə işə maraq, onun nəticələrindən məmnunluq, bu işin vacibliyinin dərk edilməsi və düzgün təşkili kimi müəyyənləşdirilmişdir. Sosial-psixoloji hazırlıq özündə praktik bacarıqları və ünsiyyət xarakterli müəyyən vərdişləri cəmləşdirir (160, s.223-265).

V.A.Slastenin müəllimin peşə fəaliyyətinə hazır olmasını onun peşəkarlığa aid tələblərə cavab verə bilmə qabiliyyəti kimi müəyyənləşdirir və bunun üçün səciyyəvi olan keyfiyyətləri üç qrupa bölür: 1) vətəndaşlıq keyfiyyətləri; 2) müəllim peşəsinə aid səciyyəvi keyfiyyətlər; 3) müəllimin ümumi mədəniyyəti, peşə və şəxsi keyfiyyətləri inkişaf etdirən xüsusi biliklərə tələbat (171).

Müəllimin pedaqoji fəaliyyətinin onun özünün bu fəaliyyətə necə hazırlanmasından asılı olması ilə bağlı V.A.Karakovskinin fikirlərinə biz də tərəfdarıq. O, belə hesab edir ki, müəllimin tərbiyəvi fəaliyyəti onun aşağıda qeyd olunan işlərə hazırlığını tələb edir:

– uşaqlarla hümanist prinisplər əsasında ünsiyyət qurmaq; onlara empatik münasibət bəsləmək; uşağın imkan və qabiliyyətlərinə inanmaq; uşağa müstəqil şəxsiyyət kimi münasibət bəsləmək;

– uşaqlarla birlikdə əməkdaşlıq, yaradıcılıq fəaliyyətini təşkil etmək;

– tərbiyəedici situasiyalar yaratmaq;

– təlim prosesinin tərbiyəedici vəzifəsini həyata keçirmək;

– vacib fərdi və qrup halında işləri təşkil etməklə uşağın özünüdərk, özünüinkişaf, özünəbəraət proseslərini dəstəkləmək (120, s.104-105).

N.Y.Şurkova ali məktəbdə tələbələrin tərbiyə işinə hazırlığına münasibət bildirərkən qeyd etmişdir ki, müasir ictimai-mədəni şəraitdə tərbiyə işinə hazırlığın yeni yollarının axtarışı tərbiyənin humanistləşdirməsi ilə bağlı olub, müəllimin həyat fəaliyyətinə çevrilməlidir (185, s.78).

A.İ.Piskunovun fikrincə, gələcək müəllim hələ ali təhsil aldığı dövrdə başa düşməlidir ki, tərbiyə cəmiyyətin və cəmiyyətdə hər bir təşkilatın başlıca vəzifələrindən biridir (156, s.43)

Beləliklə, "müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması" anlayışı tərbiyəçi və tərbiyə olunanların qarşılıqlı fəaliyyətində peşə bilikləri, bacarıqları, vərdişləri və şəxsi keyfiyyətlərini həyata keçirməyə yönəldilmiş pedaqoji prosesdir. Bu prosesdə həmçinin iştirak edənlərin özünü reallaşdırması, özünə bəraət qazandırması və özünü təkmilləşdirməsi üçün şərait yaradılır.

İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlığını onun bütün peşə fəaliyyəti dövründə formalaşdırmaq mümkündür. Belə ki, bu proses bir çox amillərdən (sosial mədəniyyət, cəmiyyətin mənəvi həyatı, insanın özü, onun əhatəsindən) asılıdır. Şəxsiyyətin formalaşmasının əsasında cəmiyyətin mənəvi, əxlaqi, sosial mühitinin təkmilləşməsi durur.

Beləliklə, tələbələrin və ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlığı uzunmüddətli proses kimi müasir şəraitdə müəllimin tərbiyə işinə düşünülmüş və müsbət münasibətlərində əks olunur, peşə və şəxsi keyfiyyətlərin inkişafının nəticəsi kimi başa düşülür.

Təhsil aldıqları müddətdə gələcək ibtidai sinif müəllimləri müəyyən həcmdə biliklərə yiyələnirlər. Müəllimin pedaqoji biliklər sistemi pedaqogika elminin vəzifələrinə yiyələnməsi və peşə fəaliyyətinin əsaslarını öyrənməsi kimi başa düşülür. Bu sahənin tədqiqatçıları pedaqoji biliklərin metodoloji, elmi-nəzəri və praktik biliklərin qarşılıqlı məcmusu olduğunu göstərmişlər.

N.Y.Şurkova və İ.D.Demakovanın fikrincə, tərbiyəçi-müəllim hər bir uşağın şəxsiyyət kimi inkişafı və formalaşdırılmasına təkan verən fərdi xüsusiyyətlərini bilməli, tərbiyə işinin təşkili sahəsində elmi biliklərə malik olmalıdır (186; 112).

Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, ibtidai sinif müəllimi öz tərbiyəvi fəaliyyətini düzgün qurmaq üçün tərbiyə nəzəriyyəsini, tərbiyə işinin metodikasını, təlim-tərbiyə prosesinin təşkilinə dair hüquqi-normativ sənədləri, müxtəlif təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə müasir baxışları, şəxsiyyətin inkişafının pedaqoji-psixoloji əsaslarını, uşaq fiziologiyası və psixologiyasını bilməlidir. Müəllimin təcrübədə istifadə etdiyi biliklər onun bacarıq və vərdişləri ilə sıx bağlıdır.

İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlığından danışarkən, onun hansı başlıca pedaqoji bacarıqlara malik olmasını qeyd etmək lazımdır. Pedaqogikada hələ ötən əsrin 20-ci illərində müəllimin bacarıqlarının növləri müəyyənləşdirilmişdir:

1) təşkilatçılıq – uşaqları maraqlandırmaq, onların işini təşkil etmək bacarığı.

2) əmək–əmək elementlərinə və əməyə cəlb etmək üsullarının tətbiqi bacarığı;

3) bədii – öz fikrini canlı, ədəbi dildə ifadə etmək qabiliyyəti;

4) metodiki – uşaqların əqli fəaliyyətini təşkil etmək bacarığı;

5) ictimai – ictimai iş bacarığı;

6) mədəni – sağlamlıq, yaradıcılığa meyl, gözəllik, maraq və zövqün olması.

Düzdür, bacarıqların təsnifatına müasir yanaşmalar dəyişmişdir, lakin onlar müəllim fəaliyyətinin tərkib hissəsi kimi qalmaqdadır.

N.V.Kuzmina tədqiqatlarında pedaqoji bacarıqların 5 növünü müəyyənləşdirmişlər: konstruktiv, kommunikativ, gnostik, təşkilatçılıq və tətbiqi bacarıq (131).

N.Y.Şurkova isə müəllimin bacarıqlarının üç qrupunu ayırd etmişdir. Birinci qrupa aid olan bacarıqlar müəllimin özünü idarə etmək bacarığı ilə əlaqədardır. Bunlara: a) sosial-perseptiv bacarıqlar (diqqət, müşahidə və təsəvvür); b) öz hissləri və əhval-ruhiyyəsini idarə etmək bacarığı; c) hərəkətlərinə hakimlik (mimika və jestlərin məqsədəmüvafiqliyi və ifadəliliyi); ç) nitq mədəniyyəti və texnikası (tənəffüs, bəlağət, məntiqlilik, düzgün tələffüz və ifadəli nitq) aiddir.

İkinci qrup şəxsiyyətə və eləcə də kollektivə təsir etmək bacarıqlarıdır. Bunlara: didaktik, təşkilatçılıq, kommunikativ bacarıqlar, vaxtdan düzgün istifadə və qərar qəbul etmək bacarığı aiddir.

Üçüncü qrup əməkdaşlıq bacarıqlarıdır. Bu qrupa şəxsiyyəti duymaq, anlamaq; ona məlumat ötürmək; şagirdi şəxsiyyət kimi qəbul etmək, uşağı düzgün başa düşmək; uşağa təsir etmək; uşağın təşəbbüsünü idarə etmək; uşağı qorumaq; qarşılıqlı təsir bacarıqları aiddir (186, s.33).

M.A.İsmixanov pedaqoji prosesdə əsas sima kimi çıxış edən müəllimin peşə bacarıqları sırasında akademik, didaktik, konstruktiv, təşkilatçılıq, kommunikativ və iradi-emosional bacarıqların mühüm yer tutduğunu qeyd etmişdir (34, s.26).

Ə.X.Paşayev və F.A.Rustəmovun fikrincə, pedaqoji bacarıqlar müəllimin həm də şəxsi keyfiyyətləridir və onları yeddi qrupa ayırmaq olar: 1) təşkilatçılıq, 2) təlim (öyrətmə), 3) perseptiv (şa-

girdlərin daxili aləmini görmək), 4) kommunikativ (ünsiyyət), 5) suqqestiv (təlqinedici), 6) tədqiqatçılıq, 7) elmi-idraki (62, s.42).

Göstərilən bu bacarıqlar müəllimin ixtisas fəaliyyətini səciyyələndirməklə yanaşı, onun təlim-tərbiyə prosesinin təşkilatçısı və rəhbəri kimi hansı pedaqoji texnikaya yiyələnməli olmasını göstərir.

Təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması ilə əlaqədar biz belə düşünürük ki, müasir müəllim uşağı və əməkdaşlarını başa düşmək, onlara kömək göstərmək və dəsdəkləmək, ümumi razılığa gəlmək, şəxsiyyətə hörmət etmək, səmimi olmaq, fəaliyyətin fərdi üslubuna nail olmaq kimi keyfiyyətlərə malik olmalıdır.

Bildiyimiz kimi, peşə təcrübəsi artdıqca müəllimdə peşə vərdişləri yaranır. Müəllimi auditoriya qarşısındakı çaşqınlıqdan və hər bir addımını götür-qoy etmək məcburiyyətindən xilas edən peşə vərdişləri sayəsində müəllim pedaqoji fəaliyyətin bir çox tərzlərini avtomatik olaraq icra edir. Bilik, bacarıq və vərdişlərə sistematik yiyələnmə nəticəsində təcrübə yaranır, vərdişlər şəxsiyyətin xasiyyətinə, keyfiyyətinə çevrilir ki, bu da müəllimə təbiyə işinin təşkilində kömək edir.

Öyrənilən pedaqoji-psixoloji ədəbiyyatın əsasında tələbə və ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının komponentləri, ümumi və xüsusi meyarlar (nəyinsə müəyyənləşdirilməsi, qiymətləndirilməsi və təsnifatını bildirən əlamətlər), göstəricilər (nəyinsə inkişafı haqqında mühakimənin yürüdülməsi) müəyyənləşdirildi. Bu meyarlar və göstəricilər tələbə və ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji-psixoloji əsaslarını müəyyənləşdirmək üçün eksperimentdə istifadə olunmuşdur.

Problemlə bağlı ədəbiyyatın təhlilinə, apardığımız tədqiqata, mövcud təcrübəyə əsaslanaraq belə hesab edirik ki, tələbə və ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının üç əsas, eyni adlı (sosial, peşəkarlıq və şəxsiyyət) komponentləri və meyarları mövcuddur. Tərbiyəvi fəaliyyətə hazırlanma meyarlarının özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq onların izahını aşağıdakı kimi veririk:

– sosial (müəllimin mədəni səviyyəsi) meyarlar – müəllimin təhsilli, dünyagörüşlü, erudisiyalı olması və bütün bunları digərləri-

nə ötürə bilmə qabiliyyəti onun sosial-mədəni, ictimai münasibətlərə cəlb olunması səviyyəsini bildirir;

– peşəkarlıq meyarları – tərbiyə işi sahəsində nəzəri biliklərin, pedaqoji bacarıqların (qnostik, layihələşdirmə, konstruktiv, təşkilatçılıq, kommunikativ), vacib peşə keyfiyyətlərinin mövcudluğunu səciyyələndirir;

– şəxsiyyət meyarlarına müəllim şəxsiyyətinin istiqamətlənməsi, onun xasiyyəti, qabiliyyətləri və s. aiddir. Bütün bu meyarlar isə göstəricilər vasitəsilə ifadə olunur.

**Tələbə və müəllimlərin tərbiyəvi fəaliyyətə hazırlanmasının komponentləri, meyarları və göstəriciləri:**

*Şək. 1.1*

| № | Komponentlər | Meyarlar | Göstəricilər |
|---|---|---|---|
| 1 | Sosial | Sosial: müəllimin mədəni səviyyəsi | Təhsil.<br>Dünyagörüşü.<br>Erudisiya.<br>Hüquq mədəniyyəti (təlim-tərbiyənin təşkilində hüquqi-normativ sənədlərdən istifadə).<br>Psixoloji mədəniyyət.<br>Nitq və tələffüz mədəniyyəti, ümumi nitq savadı, nitqin emosional ifadəsi. |
| 2 | Peşəkarlıq | Peşəkarlıq: tərbiyə işinin nəzəri əsaslarını bilmək | Tərbiyə nəzəriyyəsini, tərbiyə işinin metodikasını, müxtəlif tipli təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə müasir yanaşmaları, şəxsiyyətin inkişafının pedaqoji və psixoloji əsaslarını, uşaq fiziologiya və psixologiyasını bilmək. |

| | | | |
|---|---|---|---|
| | | Pedaqoji bacarıqlar: qnostik | Peşəkarlıq mədəniyyətini yüksəltməyi bacarmaq, peşə yüksəlişi üçün perspektiv planlar qurmaq.<br>Öz əməyinin nəticələrini təhlil etməyi bacarmaq.<br>Həmkarlarının təcrübəsini öyrənməyi bacarmaq.<br>Yeniliyə cəhd etmək, yaradıcılıq üsullarına malik olmaq. |
| | | layihələşdirmə | Tərbiyənin məqsədini və vəzifələrini müəyyənləşdirməyi bacarmaq.<br>Tərbiyə işinin planlaşdırmağı və reallaşdırmağı bacarmaq.<br>Sinifdənxaric tədbirləri proqramlaşdırmağı və keçirməyi bacarmaq. |
| | | konstruktiv | Tərbiyə işinin forma və üsullarını seçmək bacarığı.<br>Tərbiyə işini uşağın mövqeyini yüksəltməyə yönəltmə bacarığı.<br>Qrupun mehribançılığına çalışmaq (lazımi tərbiyə üsul və formalarını seçmək). |
| | | təşkilatçılıq | Qarşıya qoyulmuş məqsədə çatmaq üçün uşaqların və özünün fəaliyyətini təşkil etmək bacarığı. |

| | | | |
|---|---|---|---|
| | | | Keçirilmiş tərbiyəvi tədbiri təhlil etmək bacarığı.<br>Məktəblinin tərbiyəlilik səviyyəsini öyrənmək bacarığı.<br>Şagirdin, qrupun pedaqoji-psixoloji xasiyyətnaməsini hazırlamaq və zəmanət vermək bacarığı. |
| | | kommunikativ | Özünə və ünsiyyətdə olduğu şəxsə müsbət münasibət bəsləmək.<br>Empatik münasibət bəsləmək (ünsiyyətdə olduğu şəxsin hisslərini, mövqeyini, vəziyyətini duymaq).<br>Müəllim-şagird, müəllim-sinif kollektivi əlaqələrini yaratmaq.<br>Ünsiyyətin nəticələrini əvvəlcədən duymaq və bunları təhlil etməyi bacarmaq. |
| 3 | Şəxsiyyət | Şəxsiyyət: müəllim şəxsiyyətinin vacib peşə keyfiyyətləri | Pedaqoji məqsədi müəyyənləşdirmə.<br>Pedaqoji intuisiya.<br>Pedaqoji nikbinlik.<br>Pedaqoji çeviklik.<br>Pedaqoji impovizasiya.<br>Pedaqoji refleksiya.<br>Pedaqoji uzaqgörənlik. |

| | | | |
|---|---|---|---|
| | | istiqamətlənmə | Öz peşəsinə məhəbbət. Məsuliyyət, xeyirxahlıq. Tərbiyəvi işdə yaradıcılıq. |
| | | xarakter | Pedaqoji takta, ünsiyyət qabiliyyətinə və yumor hissinə malik olmaq. Təmkinli, tələbkar, ədalətli, dözümlü, səmimi, həyatsevər olmaq. |
| | | qabiliyyətlər | İnkişaf etmiş təxəyyülə və məqsədyönlü yaddaşa malik olmaq. Emosional-iradi keyfiyyətlərin olması. Nitqin inamlı və ifadəli olması. |

Cədvəldən göründüyü kimi, sosial komponentin sosial meyarları – müəllimin mədəni səviyyəsi bu əlamətlərdə ifadə olunur: təhsil, dünyagörüşü, erudisiya, hüquq mədəniyyəti (təlim-tərbiyə prosesinin təşkili ilə bağlı hüquqi-normativ sənədləri bilməsi), psixoloji mədəniyyəti, nitq texnikası və mədəniyyəti, ümumi nitq savadı, nitqin ifadəli olması.

Peşəkarlıq komponentinin peşəkarlıq meyarları: tərbiyə işinin nəzəri əsaslarını, tərbiyə işinin metodikasını, müxtəlif növ təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə müasir yanaşmaları, şəxsiyyətin inkişafının psixoloji və pedaqoji əsaslarını, uşaq fiziologiya və psixologiyasını bilmək.

Peşəkarlıq meyarlarına qnostik, layihələşdirici, konstruktiv, təşkilatçılıq, kommunikativ bacarıqları özündə birləşdirən peaqoji bacarıqlar da aiddir.

Qnostik bacarıqlara – peşə mədəniyyətini yüksəltmək; peşəkarlıq qabiliyyətinin artırılması üçün planlar hazırlamaq; şəxsi əməyinin

nəticələrini təhlil etmək; həmkarlarının təcrübəsini öyrənmək; yenilik axtarmaq; yaradıcılıq üsullarına yiyələnmək kimi əlamətlər aiddir.

Layihələşdirici bacarıqlara – tərbiyə işinin məqsəd və vəzifələrini müəyyənləşdirmək; sinfin tərbiyə sistemini modelləşdirmək, tərbiyə işinin planınını hazırlamaq və həyata keçirmək; sinifdənxaric tədbirlərin proqramını tərtib etmək və həyata keçirmək kimi göstəricilər aiddir.

Konstruktiv bacarıqlara – tərbiyə işinin forma və üsullarını seçmək; hər bir kollektivin möhkəmliyi üçün uşağın mövqeyini yüksəltmək, tərbiyə işi aparmaq və bu kimi digər göstəricilər aiddir.

Təşkilatçılıq bacarıqlarına – qarşıya qoyulmuş məqsədə nail olmaq üçün şagirdlərin və özünün fəaliyyətini təşkil etmək, keçirilmiş tərbiyəvi tədbiri təhlil etmək, məktəblinin tərbiyəlilik səviyyəsini öyrənmək, hər bir şagirdin, qrupun pedaqoji-psixoloji xasiyyətnaməsini hazırlamaq, zəmanət vermək kimi bacarıqlar aiddir.

Kommunikativ bacarıqlara – özünə və ünsiyyətdə olduğu həmkarına müsbət münasibət, empatik anlaşma (ünsiyyət zamanı həmkarının hisslərini, vəziyyətini, baxışlarını başa düşmək), müəllim-şagird, müəllim-sinif kollektivi əlaqələrini yaratmaq, ünsiyyətin nəticələrini təhlil etmək, ünsiyyət nəticəsində gözlənilənlər haqqında məlumat verə bilmək və s. aiddir.

Şəxsiyyət komponentinin şəxsiyyət meyarları bu göstəricilərlə ifadə olunur: müəllim şəxsiyyətinin vacib peşə keyfiyyətləri (pedaqoji məqsəd, intuisiya, nikbinlik, improvizasiya, refleksiya, uzaqgörənlik və s. əlamətlərlə ifadə olunur); müəllim şəxsiyyətinin istiqamətlənməsi (müəllimlik peşəsinə məhəbbət, işə vicdanlı münasibət, məsuliyyət, tərbiyəvi fəaliyyətdə yaradıcılıq və s. əlamətlər); müəllim şəxsiyyətinin xarakteri (pedaqoji takt, ünsiyyət qabiliyyəti, təmkinlik, tələbkarlıq, ədalətlilik, dözümlülük, səmimilik, həyatsevərlik, yumor hissi və s. göstəricilər), müəllimin peşə qabiliyyətləri (inkişaf etmiş təxəyyül, emosional-iradi keyfiyyətlər, məqsədyönlü yaddaş, inamlı, ifadəli nitq və digər bu kimi göstəricilərdə özünü göstərir).

İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması mürəkkəb və çoxcəhətli bir prosesidir. Bu prosesin vacib şərtlərinə bunları da aid etmək olar:

– peşə idealının formalaşdırılması və bunun əsasında fərdi yaradıcılıq üslubunun təşkili;

– iştirakçıların birgə yaradıcı fəaliyyəti və əməkdaşlığı əsasında təlim-tərbiyə prosesini layihələşdirmək;

– müəllim və şagirdlərin reflektiv fəaliyyət texnologiyasını hazırlamaq və istifadə etmək;

– müəlimin fərdi xüsusiyyətlərini obyektiv şərtlərlə uzlaşdırmaq.

Tələbə və ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması prosesi fasiləsiz pedaqoji təhsil sistemində – ali təhsil müəssisələrində və ali təhsildən sonrakı mərhələlərdə həyata keçirilməsi nəzərdə tutulur.

## *1.2. Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətləri*

Tədqiqat işində qarşıya qoyulmuş məsələlərin həlli üçün biz ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının fasiləsiz təhsil dövründə – ali təhsil və ali təhsildən sonrakı dövrlərdə həyata keçirilməsinin səciyyəvi xüsusiyyətlərini üzə çıxardıq. Pedaqoji-psixoloji ədəbiyyatda fasiləsiz təhsil prosesinin mahiyyəti anlayışı haqqında bizim mövqeyimizə yaxın olan fikir belədir: fasiləsiz təhsil dövlət və qeyri-dövlət təhsil müəssisələrində şəxsiyyətin cəmiyyət və şəxsi tələblərinə uyğun olaraq öz təhsil səviyyəsini (ümumi və peşə) artırması prosesidir.

A.A.Verbitski, N.E.Kasatkina, B.P.Nevzorov, L.P.Xalyapina və digər tədqiqatçıların fikrincə, fasiləsiz pedaqoji təhsil sisteminin xüsusiyyətləri hər kəsin hüquqlarında öz əksini tapır:

– şəxsiyyətin intellektual, mənəvi, emosional, fiziki keyfiyyətlərinin inkişafında;

– şəxsiyyətin inkişafının bütün mərhələlərində pedaqoji təhsilin yollarını müstəqil seçmək imkanında;

– şəxsiyyətin təhsildə məzmununa, istiqamətinə görə fərqli tələbatlarının təmin edilməsində;

– təhsil almanın xüsusi sistemlə reallaşdırılması imkanlarında (93; 124).

Bizi fasiləsiz təhsil sistemində ibtidai sinif müəlliminin ali təhsil müəssisəsində və təhsildən sonrakı mərhələdə təhsili və təhsil müəssisələrində tərbiyə işinin təşkilinə hazırlanması və təkmilləşdirilməsi daha çox maraqlandırdığından tədqiqatımızda təlim-tərbiyə prosesinin subyektlərinə qarşıya qoyulmuş mövzu aspektində daha çox diqqət etməyi vacib hesab etmişik. Buna görə də dissertasiya işində "tələbə" anlayışına gələcək ibtidai sinif müəllimi, sinif rəhbəri, təhsil müəssisəsində tərbiyə işinin təşkilatçısı, "müəllim" anlayışına isə – təcrübəyə malik ibtidai sinif müəllimi, təhsil müəssisəsində tərbiyə işinin təşkilatçısı, müxtəlif iş təcrübəsinə, təhsil səviyyəsinə yiyələnmiş, pedaqoji orta ixtisas təhsili müəssisəsini və universiteti bitirmiş insan kimi yanaşmalı olduq.

Bu gün ibtidai sinif müəlliminə verilən ictimai sifariş dəyişmişdir. İxtisaslı ibtidai sinif müəllimi peşə çevikliyinə, şəxsi yaradıcılıq qabiliyyətlərinə malik olmalıdır. Müəllimdən yüksək mədəni səviyyə, şagirdlərin inkişafına təkan verən peşə və şəxsi refleksiya, zamanın tələbinə uyğun fəaliyyət tələb olunur. Müasir şəraitdə ibtidai sinif müəllimi humanist pedaqogikanı dəstəkləməli, hər bir işində şəxsiyyətyönümlü mövqe tutmalıdır.

Nəzəri və sınaq tədqiqatı prosesində biz müəllimin tərbiyə işinə hazırlanmasının xüsusiyyətlərini fasiləsiz təhsil sistemində müəyyənləşdirməyə çalışmışıq. İbtidai sinif müəlliminin məktəbdə tərbiyə işinə hazırlanması prosesini iki mərhələdə – ali təhsil müəssisələrində təhsil aldığı dövrdə və təhsildən sonrakı dövrlərdə araşdırdıq. Apardığımız tədqiqatların əsasında biz həm ali təhsil, həm də ali təhsildən sonrakı mərhələyə xas olan ümumi xüsusiyyətləri müəyyənləşdirdik. Bunlar aşağıdakılardır:

– ictimai həyatın mənəvi, siyasi, sosial-iqtisadi təsirinin nəzərə alınması;

– elmi biliklər və təcrübənin qarşılıqlı əlaqəsinin vacibliyi;

– təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tərbiyə prosesinin təşkilinə verilən tələblərə uyğunlaşdırılması;

– tərbiyə işində müvafiq nailiyyətlərə zəmin yaradan şəxsi keyfiyyətlərin mövcudluğu və s.

Görkəmli rus pedaqoqu K.D.Uşinski yazırdı ki, əgər tərbiyəçi zamanın qanuni tələblərinə qarşı “kar və lal”dırsa, demək, o, öz məktəbini həyati qüvvədən məhrum edir, könüllü olaraq həyata təsir etməkdən imtina edir və öz borcunu yerinə yetirmir, yəni, yeni nəsli həyat üçün hazırlamağa səy göstərmir, həyatın çətinliklərlə, eybəcərliklərlə dolu olmasına baxmayaraq, uşaqların tərbiyəsini onun öhdəsinə buraxır (181, s.291).

Müasir şəraitdə ibtidai sinif müəlliminin fəaliyyətinin aktuallığı xeyli dərəcədə cəmiyyətin həyat tərzi, üslubu məktəb tərbiyəsinin səviyyəsindən, ibtidai sinif şagirdlərinin ümumbəşəri dəyərlərə yiyələnməsi ilə şərtlənir.

Son dövrlərə qədər cəmiyyətimizdə böyüyən nəslin tərbiyəsi prosesinə yanaşma birmənalı deyildi. Bu da gənclərin dünyagörüşünün arzuolunmayan istiqamətdə formalaşmasına müəyyən qədər mənfi təsir göstərmişdir: gənclərin mədəni səviyyəsinin aşağı düşdüyü, cəmiyyətə zidd hadisələrin artması nəzərə çarpır, bir tərəfdən cəmiyyətdə təsbit olunmuş bəzi əxlaq normaları müasir gənclər tərəfindən inkar edilir, digər tərəfdən onların sosial infantilliyi artir. Məlum olur ki, müasir dövrdə ibtidai sinif müəllimi əxlaqi dəyərlərin daşıyıcısı və təlim-tərbiyə sahəsində dövlət siyasətini ardıcıl həyata keçirən mütəxəssis kimi cəmiyyətdəki bu ictimai hadisələrə qarşı mübarizə aparmağa hazır deyildir. Bununla əlaqədar təhsil sistemində müəllimlərin, o cümlədən, ibtidai sinif müəllimlərinin hazırlanmasında və təkmilləşdirilməsində tətbiq olunan ənənəvi üsulların dəyişdirilməsinə ehtiyac yaranır.

Alınmış nəticələrə əsasən biz müəllimin tərbiyə işinə hazırlanmasının meyarlarını müəyyənləşdirməyə cəhd etdik. Növbəti məq-

sədimiz ibtidai sinif müəlliminin şəxsi keyfiyyətlərini təhlil etməkdən ibarət olmuşdur.

İşin təhlili bizə ibtidai sinif müəllimlərini üç qrupa bölməyə imkan verdi.

Birinci qrupa öz peşəsinin və pedaqoji fəaliyyətinin ictimai məqsədini yaxşı başa düşən ibtidai sinif müəllimləri aid edilmişdir. Bu müəllimlər cəmiyyətdə və öz pedaqoji fəaliyyətlərində fəallıq göstərir, ictimai əhəmiyyətli əmək, ünsiyyət və idrak sahələrinə yaradıcı yanaşırlar. Bütün bunlar son nəticədə müəllimə yeri gəldikcə davranışında düzgün mövqe seçməyə, şəxsi pedaqoji fəaliyyətinin sistemini qurmağa imkan verir. Belə müəllimlər tərbiyənin vacib olduğunu dərk edir, lakin təlim prosesinin tərbiyəvi əhəmiyyətini mübaliğə etdiklərinə, xüsusi tərbiyə prosesinin və tərbiyəvi tədbirlərin rolunu qədərincə qiymətləndirmədiklərinə görə, təlim prosesini elə tərbiyənin bilavasitə mənbəyi hesab edirlər.

Təbii ki, bu fikirlə razılaşmaq olmaz. Belə ki, təlimin tərbiyəedici əhəmiyyətini qətiyyən kiçiltmədən onu da xüsusi qeyd etmək lazımdır ki, təlim prosesi tərbiyənin bütün vəzifələrini yerinə yetirə bilməz. Ona görə də bir çox hallarda təlim prosesi tərbiyə məsələlərinin müəyyən bir hissəsini əhatə edə bilər. Təlim prosesində onun təhsilləndirici, öyrədici funksiyası ön plana çəkildiyindən şagirdlər müxtəlif elmlərin əsaslarına yiyələnirlər. Tərbiyə isə bütövlükdə insanın cəmiyyətdəki əxlaq normalarını, milli-mənəvi və ümumbəşəri dəyərləri mənimsəməsi ilə bağlıdır. Bəzən biz cəmiyyətdə xüsusi bilik və bacarığa malik, lakin adi tərbiyəsi olmayan insanlara rast gəlir, onlarda insanlarla mədəni münasibətin olmadığını, xudpəsənd meyllərin hər addımda biruzə verildiyini aydın görürük. Bunu nəzərə alan ulularımız çox haqlı olaraq "Alim olmaq asandır, insan olmaq çətin" aforizmini işlətmişlər.

İkinci qrupa aid etdiyimiz ibtidai sinif müəllimləri öz pedaqoji peşə məqsədini nisbətən dar çərçivədə başa düşənlərdir. Onların fikrincə, pedaqoji fəaliyyətin əsas məqsədi kiçik yaşlı məktəblilərə müvafiq fənlər üzrə elementar biliklər verməkdən və yaxşı vərdişlər aşılamaqdan ibarətdir. Belə yanaşmada ibtidai sinif müəllimi nə qə-

dər müxtəlif peşə bacarıqlarına malik olsa da belə, onun yaradıcı fəallığı və pedaqoji axtarışlar dairəsinin məhdud olduğu üzə çıxır.

Üçüncü qrup müəllimlər – pedaqoji fəaliyyəti gündəlik, müntəzəm gördükləri işə bağlılıqla əlaqələndirəndirir və pedaqoji fəaliyyətin mənasını da məhz bunda görürlər. Biz müəllim peşəsinə belə münasibəti də yanlış hesab edirik.

Tərbiyəçi şəxsi keyfiyyətləri tərbiyəvi təsirlərdə başlıca amil kimi çıxış edən insan olmalıdır. İbtidai sinif müəlliminin və onun fəal mövqeyinin formalaşdırılması, ilk növbədə, onun vacib şəxsi keyfiyyətlərə malik bir insan, yalnız bundan sonra bacarıqlı, pedaqoji fəaliyyət sahəsində xüsusi vərdişlərə malik müəllim olması kimi başa düşülməlidir.

Apardığımız tədqiqat müəllimlərin əksəriyyətinin tərbiyə işlərinə lazımınca hazır olmadıqlarını göstərdi. Halbuki, yuxarıda qruplaşdırdığımız ibtidai sinif müəllimləri müasir təhsil müəssisələrində təhsil almışlar. Bu qrupların səciyyələndirilməsi bizə müasir şəraitdə müəllim şəxsiyyətinin tərbiyə işinə münasibətini öyrənməyə imkan verir.

Müəllimin tərbiyə işinə istiqamətlənməsini müəyyəın etmək məqsədilə Bakı səhərinin məktəblərində fəaliyyət göstərən 125 ibtidai sinif müəllimi arasında (bunlardan 30 nəfəri tədqiqat işimizin eksperimental qrupuna daxil idi) sorğu aparılmışdır. Sorğunun nəticələri aşağıdakı cədvəldə əks olunmuşdur.

**Müəllimin tərbiyə işinə istiqamətlənməsi.**

***Cədvəl 1.1***

| № | İstiqamətlənmə | Sayı | % |
|---|---|---|---|
| 1 | Tədrisçi müəllim | 45 | 36 |
| 2 | Ziyalı müəllim | 35 | 28 |
| 3 | Təşkilatçı müəllim | 25 | 20 |
| 4 | Vasitəçi müəllim | 15 | 12 |
| 5 | Tərbiyəçi müəllim (sinif rəhbəri) | 5 | 4 |

Alınan nəticələrin təhlili göstərdi ki, ibtidai sinif müəllimlərinin 36%-də tədrisçi müəllim (müşahidəçi, peşəkar, yaradıcılığa cəhd göstərir); 28%-də ziyalı müəllim (intellektual, mədəni, əxlaqlı); 20%-də təşkilatçı müəllim (tələbkar, iradəli, enerjili); 12% müəllimlərdə vasitəçilik (ünsiyyətcil, inamlı, xarici cazibədarlıq, yüksək mənəviyyat, emosional, uşaqları sevən, empatiyaya malik); 4%-də isə tərbiyəçi müəllim (tədris və tərbiyə fəaliyyətini uzlaşdırmaq və sinifdənxaric tədbirləri təşkil etmək bacarığı) istiqamətliliyi üstünlük təşkil edir.

Alınmış nəticələrin təhlili və təhsil müəssisələrindəki təcrübə işi göstərir ki, müəllimlər ilk növbədə təlim prosesinə daha çox diqqət göstərirlər. Təlim və tərbiyənin bir-birilə sıx dialektik əlaqəli, bir-birini tamamlayan pedaqoji proses olduğundan, belə hesab edirik ki, bu qruplardakı müəllimlər təlim prosesində səciyyəvi üsullardan istifadə edərək öz tərbiyəvi təsirlərini göstərə bilərlər:

– tədrisçi müəllim şagirdi ibtidai məktəbdə tədris olunan hər hansı bir fənn üzrə təşkil olunmuş dərnəklərə cəlb etməklə daha yaxşı tərbiyə edə bilər;

– ziyalı müəllim öz tərbiyəetmə imkanlarını maarifləndirmə fəaliyyəti ilə həyata keçirə bilər;

– təşkilatçı müəllim düzgün təşkil olunmuş təlim-tərbiyə prosesi zamanı öz şəxsi keyfiyyətləri vasitəsilə tərbiyəvi təsir edər;

– vasitəçi müəllim şagirdlərə uyğunlaşma mexanizmi aramaqla, həyata ümumi baxış nöqtələrini tapmaqla tərbiyəvi təsirlərini göstərər və bununla şagirdlərin davranışında dəyişikliklər olmasına təsir edə bilər;

Beləliklə, hər bir müəllim şagirdlərin şəxsi keyfiyyətlər haqqında bilikləri, davranış vərdişləri və bacarıqları mənimsəmələrinə, onlarda müsbət keyfiyyətlərin yaranmasına olan tələbatların formalaşmasını həyata keçirə bilər. Ona görə tərbiyə prosesində müəllimin şəxsi meylliyinin imkanlarından istifadə etmək əsas rol oynayır.

Biz təlim-tərbiyə prosesində müəllim şəxsiyyətinin əhəmiyyətini nəzərə alaraq ibtidai sinif müəlliminin ali təhsil müəssisəsində və təhsildən sonrakı mərhələdə səciyyəvi xüsusiyyətlərini də öyrəndik.

Bu məqsədlə 120 nəfər III-IV sinif şagirdləri və universitetin filologiya və pedaqoji fakültələrində təhsil alan 120 nəfər II kurs tələbələri arasında tədqiqat apardıq. Tədqiqat prosesində belə bir sual qoyuldu: "Uşaqlar məktəbə və yaxud ali təhsil müəssisələrinə hansı əhval-ruhiyyə ilə gedirlər?" Nəticələr aşağıdakı cədvəldə verilmişdir.

**Şagirdlər və tələbələr təhsil müəssisələrinə hansı hisslərlə gedirlər:**

***Cədvəl 1.2***

| № | Təhsil müəssisələrinə hansı hisslərlə gedirlər | Şagirdlər | | Tələbələr | |
|---|---|---|---|---|---|
| | | Sayı | % | Sayı | % |
| 1 | Sevinclə | 62 | 52 | 72 | 60 |
| 2 | Etinasızlıqla | 37 | 31 | 32 | 27 |
| 3 | Xoşagəlməz hisslərlə | 11 | 9 | 10 | 8 |
| 4 | Tezliklə evə qayıtmaq hissi ilə | 10 | 8 | 6 | 5 |

Sorğunun nəticələrindən göründüyü kimi, şagirdlərin 52%-i məktəbə sevinclə getdiyi halda, 31%-i etinasızlıqla gedir. Tələbələrin də təhsil ocaqlarına etinasızlıqla getmələrinə baxmayaraq, bu rəqəm nisbətən az – 27%-dir. Xoşagəlməz hisslər və tezliklə evə qayıtmaq hissi məktəblilərdə tələbələrə nisbətən çox təsadüf olunur. Məktəblilərdə bu hisslərin yaranması əsasən sinif müəllimlərindən, tələbələrdə isə ali məktəb müəllimlərindən asılıdır. Tələbələr bu işdə özlərinin də günahkar olduqlarını etiraf edir və bunun səbəbini tədris məşğələlərinə hazırlıqsız olmaları ilə əlaqələndirirlər.

"Sizin fikrinizcə, sinif rəhbərinin və ya kuratorun rolu nədən ibarətdir?" sualına cavab verərkən məktəblilər və tələbələr onların əsas işinin müvəffəqiyyətə nəzarət etmək olduğunu bildirmişlər. Eyni zamanda, kiçik yaşlı məktəblilərin 31%-i sinif rəhbərini, tələbələrin 20%-i kuratoru "ikinci valideyn" kimi qəbul etdiyini bildirmişdir. Kiçik yaşlı məktəblilərin 9%-i sinif rəhbərini asudə vaxtın təşkilatçısı, 19%-i isə – çətin işlərdə köməkçi adlandırmışdır. Tələ-

bələr asudə vaxtın təşkilində kuratora o qədər də ehtiyac olmadığını, lakin kuratorun onlara çətin işlərdəköməkçi kimi lazım olduğunu söyləmişlər.

**Sinif rəhbərinin (kuratorun) roluna münasibət:**

*Cədlvəl 1.3*

| № | Sinif rəhbərinə (kuratora) münasibət | Məktəblilər | | Tələbələr | |
|---|---|---|---|---|---|
| | | Sayı | % | Sayı | % |
| 1 | Müvəffəqiyyətə nəzarət edən | 49 | 41 | 44 | 37 |
| 2 | "İkinci valideyn" | 37 | 31 | 24 | 20 |
| 3 | Asudə vaxtın təşkilatçısı | 11 | 9 | 3 | 2 |
| 4 | Çətin işlərdə köməkçi (yaxın yoldaş) | 23 | 19 | 37 | 31 |
| 5 | Cavab vermədilər | - | - | 12 | 10 |

Tərbiyəvi işlərin düzgün seçilməsi, təşkili və keçirilməsi məktəb həyatını daha maraqlı edir. Belə işlərə bayramlar, gəzintilər, sinif saatları, ekskursiyalar, açıq dərslər və s. aid edilə bilər. Tələbələr isə belə tərbiyəvi işlər sırasında gəzintiyə getmək, müxtəlif müsabiqələrin, festivalların keçirilməsi, diskotekaların və axşamların təşkili kimi tədbirləri qeyd edirlər. Müəllimin tərbiyə işinə hazırlanmasında asudə vaxtın təşkilini əhəmiyyətli hesab edirik. Belə ki, şagirdlərə yaxın olmaq, onları arxasınca apara bilmək üçün o özü bu işləri təşkil etməli və özü də bilavasitə iştirakçısı olmalıdır.

**Sinif müəlliminin (kuratorun) konkret şagirdə (tələbəyə) münasibəti.**

*Cədvəl 1.4*

| № | Müəllimin şagirdə (tələbəyə) münasibəti | Məktəblilər | | Tələbələr | |
|---|---|---|---|---|---|
| | | Sayı | % | Sayı | % |
| 1 | Tərifləyir | 19 | 16 | 17 | 14 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | Həvəsləndirir | 22 | 18 | 20 | 17 |
| 3 | İrad tutur | 19 | 17 | 11 | 9 |
| 4 | Danlayır | 4 | 3 | - | - |
| 5 | Valideynlərə şikayət edir | 4 | 3 | - | - |
| 6 | Qayğı göstərir | 28 | 23 | 22 | 18 |
| 7 | Xeyirxah məsləhətlər verir | 24 | 20 | 42 | 35 |
| 8 | Neytral mövqe tutur | - | - | 8 | 7 |

Bizi məktəblilərin öz sinif müəllimlərinə, tələbələrin isə öz kuratorlarına, başqa sözlə, təlim-tərbiyə müəssisələrində əsas etibarilə tərbiyə vəzifələri həvalə olunan müəllimlərə münasibəti maraqlandırır.

Kiçik yaşlı məktəblilərin 23%-i sinif müəllimini, tələbələrin 18%-i kuratoru qayğıkeş insan qismində görür. İbtidai sinif müəllimlərinə nisbətən (20%) kuratorlar tələbələrinə (35%) daha çox xeyirxah məsləhətlər verirlər. Məktəblilərin və tələbələrin fikrincə, müəllimlər onları həvəsləndirə bilir (18% və 17%), amma tələbələrə nisbətən (9%), şagirdlərə (17%) daha çox irad tutulurlar. Sorğuda iştirak edən şagirdlərdən heç biri sinif rəhbərinin neytral mövqedə olduğunu göstərməmiş, lakin tələbələrin 7%-i bunu qeyd etmişdir. Kuratorların valideynlərə şikayəti tələbələr tərəfindən qeyd olunmamış, amma şagirdlərin 3%-i sinif rəhbərlərində bu münasbətin olduğunu göstərmişdir.

Tədqiqat problemi baxımından bizi maraqlandıran məsələlərdən biri də şagirdlərin (tələbələrin) öz müəllimlərindən (kuratorlarından) hansı keyfiyyətləri əxz eməleri olmuşdur. Sorğuda iştirak edən məktəblilər və tələbələr öz müəllimlərindən müxtəlif sahələr üzrə bilikləri mənimsəmək niyyətində olduqlarını bildirmişlər (müvafiq olaraq 26% və 37%). Məktəblilərin 29%-i sinif rəhbərlərinə, tələbələrin isə 22%-i kuratorlara alicənablıq keyfiyyətinin xas olduğunu göstərmişdir. Məktəblilərin 8%-də, tələbələrin isə 9%-də müəllimlərin davranış tərzi müsbət reaksiya oyadır. Həmişə yaxşı

görünmək bacarığı sinif müəllimlərindən (10%) daha çox kuratorlara lazımdır (15%). Bununla yanaşı, rəyi soruşulan tələbələrin 13%-i, məktəblilərin 15%-i öz sinif müəllimlərindən (kuratorlarından) heç nə əxz etmək istəmədiklərini bildirmişlər (bax: cədvəl 1.5).

Sinif müəllimindən (kuratordan) hansı keyfiyyəti əxs etmək olar?

***Cədvəl 1.5***

| № | Əxz olunası keyfiyyətlər | Məktəblilər | | Tələbələr | |
|---|---|---|---|---|---|
| | | Sayı | % | Sayı | % |
| 1 | Alicənablıq | 35 | 29 | 26 | 22 |
| 2 | Davranış tərzi | 10 | 8 | 11 | 9 |
| 3 | Həmişə yaxşı görünmək | 12 | 10 | 18 | 15 |
| 4 | Müxtəlif sahələr üzrə biliyə malik olmaq | 31 | 26 | 24 | 20 |
| 5 | Çətin vəziyyətdən çıxış yolu tapmaq | 14 | 12 | 25 | 21 |
| 6 | Heç bir şey | 18 | 15 | 16 | 13 |

Sorğu nəticəsində məlum oldu ki, məktəblilər öz sinif rəhbərləri, onların əyləncələri, hobbiləri, arzuları haqqında çox şey bilirlər – 41%, maraq dairəsini müəyyənləşdirirlər (tar çalır; yaxşı yemək hazırlayır; xarici dillərlə maraqlanır; məktəbi, kitabları, gülləri sevir; internetlə məşğul olur; maşın sürür və s.). Tələbələr isə öz kuratorlarının maraqları haqqında az məlumata malikdirlər: şeir yazır, ailəsini sevir, kitab oxumaqla, maşın sürməklə məşğuldur. Tələbələrin 38%-i kurator haqqında heç nə bilmədiyini, 52%-i isə cavab verməк istəmədiyini bildirmişdir. Alınmış cavabları cədvəl 1.6-da görmək olar.

**Məktəblilərin (tələbələrin) öz sinif müəllimlərinin (kuratorlarının) həyatı haqqında bildikləri.**

*Cədvəl 1.6*

| № | Sinif rəhbərinin həyatı haqqında məktəblilərin bildikləri | Məktəblilər | | Kuratorun həyatı haqqında tələbələrin bildikləri | Tələbələr | |
|---|---|---|---|---|---|---|
| | | Sayı | % | | Sayı | % |
| 1 | Tar çalır | 2 | 2 | Şeir yazır | 1 | 1 |
| 2 | Yaxşı yemək hazırlayır | 8 | 7 | Maşın sürür | 2 | 2 |
| 3 | Xarici dillərlə maraqlanır | 10 | 8 | Mütaliə edir | 4 | 3 |
| 4 | Mütaliə edir | 30 | 25 | Ailəcanlıdır | 5 | 4 |
| 5 | Ailəcanlıdır | 5 | 4 | Bilmirəm | 46 | 38 |
| 6 | Maşın sürür | 4 | 3 | Cavab vermədi | 62 | 52 |
| 7 | Gülləri sevir | 23 | 19 | - | - | - |
| 8 | İnternetlə məşğul olur | 5 | 4 | - | - | - |
| 10 | Ev heyvanlarını sevir | 2 | 2 | - | - | - |
| 11 | Heç bir şeyi sevmir | 13 | 11 | - | - | - |
| 12 | Bilmirəm | 18 | 15 | - | - | - |

Sinif rəhbəri (kurator) barəsində tərəfimizdən aparılmış tədqiqatlar təlim-tərbiyə prosesinin təşkilində müəllimin peşə keyfiyyətlərinin vacibliyini, onun fəal, müstəqil və yaradıcı düşünən şagird şəxsiyyətinin təhsili və tərbiyəsində, bütövlükdə müasir cəmiyyətin inkişafında rolunu təsdiqləyir.

Yuxarıda qeyd etdiyimiz kimi, tərbiyədə müəllimin rolu, onun peşə və şəxsi keyfiyyətləri müstəsna əhəmiyyət kəsb edir. Şəxsi keyfiyyətlərin peşəkarlıq baxımından əhəmiyyətini Y.Ş.Kərimov,

Ə.Ə.Ağayev, Ə.X.Paşayev, F.A.Rüstəmov, H.Ə.Əlizadə, Y.K.Babanski, N.V.Kuzmina, İ.D.Demakova, N.E.Şurkova və başqaları da öz əsərlərində göstərmişlər. Onlar müəllimin peşə keyfiyyətlərinin içərisində təlim fəaliyyəti və tərbiyə işi ilə bağlı olan şəxsi keyfiyyətləri xüsusi qeyd etmişlər.

Peşəkarlıq baxımından pedaqoji fəaliyyətdə müvəffəqiyyətin təmin edilməsi və təkmilləşdirilməsində vacib şəxsi keyfiyyətlərin əhəmiyyətini vurğulayan K.M.Levitan onların aşağıdakı xüsusiyyətlərini ayırd edir: tədris etdiyi fənni yüksək səviyyədə bilmək, biliklər qazanmaq bacarığı, tələbkarlıq, öz fənnini öyrətməklə şagirdləri maraqlandırmaq qabiliyyətinə, pedaqoji takta, ümumi dünyagörüşünə və dərsi maraqlı təşkil etmək bacarığına malik olmaq, mərhəmətli, ədalətli olmaq, peşəyə məhəbbət, dözüm və inadkarlıq, uşaqları başa düşmək, uşaqlara məhəbbət, fərdi yanaşma, özünütəkmilləşdirməyə cəhd, yumor hissi, təlimin texniki vasitələrindən istifadə bacarığı, prinsipiallıq, artistlik, musiqi qabiliyyətləri, sinifdənxaric işləri təşkil etmək bacarığı, emossionallıq, vicdanlı olmaq (135, s.25).

Bu keyfiyyətləri göstərməklə yanaşı, müəllif onların yalnız "ideal müəllimlərə" məxsus ola biləcəyini də qeyd etmişdir. Tədqiqatçı-alim hər bir müəllimə öz şəxsiyyətinin ən güclü və başlıca keyfyyətlərindən istifadə etməyi məsləhət görür. Bu baxımdan biz onunla həmrəyliyimizi bildirir və belə hesab edirik ki, hər bir müəllim üçün öz güclü cəhətlərini müəyyənləşdirmək onun şəxsi pedaqoji fəaliyyətinin keyfiyyətinin yüksəltməsi istiqamətində atılmış məntiqli bir addımdır.

Digər tədqiqatçılar da müəllimə xas olan keyfiyyətlərin müəyyənləşdirməsinə cəhd etmişlər. İ.D.Demakova müəllimin şəxsi keyfiyyətlərinə: uşağın şəxsiyyətinə hörmət, uşağın yaş xüsusiyyətləri haqqında biliklər, uşağın həyat fəaliyyətində sosial və mədəni mühitin nəzərə alınması; uşaqların həyatının yaradıcı təşkili; uşaqları müşahidə etmək bacarığı; tədqiqatçılıq fəaliyyəti ilə məşğul olmaq; uşağa özünü göstərə bilməsi üçün şərait yaratmaq; müəllim şəxsiyyətinin humanist istiqamətli olması; ünsiyyətin humanist üslublu olması; tərbiyədə daha çox inandırma və rəğbətləndirmə metodların-

dan istifadə etmək bacarığı; empatiya; uşağı olduğu kimi qəbul etmək; təlqinçilik və s. aid etmişdir (111, s.146).

F.N.Qonobolinin tədqiqatlarında müəllimin peşə keyfiyyətləri belə müəyyənləşdirilmişdir: şagirdi başa düşmək qabiliyyəti, pedaqoji takt, insanları inandırmaq qabiliyyəti, pedaqoji situasiyaları tez müəyyən etmək və bu situasiyalarda çeviklik nümayiş etdirmək qabiliyyəti və s. (101, s.176).

L.İ.Umanskinin fikrincə, tərbiyə işinin təşkilatçısını fərqləndirən keyfiyyətlər bunlardır: öz enerjisi ilə digərlərinə təsir etmək qabiliyyəti; hər bir insana uyğunlaşmaq qabiliyyəti, psixoloji seçim; başqalarının psixologiyasını duymaq və onlara düzgün təsir göstərə bilmək qabiliyyəti; tənqidi yanaşma; psixoloji takt; təşəbbüskarlıq; ünsiyyət yaratmaq baracağı və s. (180, s.78).

V.A.Slastenin gələcək müəllim üçün peşəkarlıq baxımından əhəmiyyətli hesab etdiyi xüsusiyyətlərə bunları aid etmişdir: uşaqlara maraq göstərmək, sevgi bəsləmək, pedaqoji-psixoloji gözüitiliyə və müşahidəçiliyə qabil olmaq, pedaqoji cəhətdən mərifətli, ədalətli, ünsiyyətcil, təmkinli, dözümlü olmaq, özünüqiymətləndirməyə, yeniliyi hiss etməyə, pedaqoji özünütəhsilə hazır olmaq (187, s.16).

L.İ.Malenkovanın fikrincə, müəllimin şəxsi keyfiyyətləri onun pedaqoji ustalığının elementlərindən biridir: şəxsi və pedaqoji mövqeyə malik olması, həyata, insanlara, uşaqlara, həmkarlarına, mədəni dəyərlərə düzgün münasibət bəsləməsi, prinsipial və təsirli mövqeyə, estetik təsirə malik olması və s., o cümlədən, müəllimin sağlam həyat tərzi, daim şəxsi keyfiyyətlərini inkişaf etdirməsi, fəal surətdə özünütəkmilləşdirməsi; nitq mədəniyyətinə, qamətli yerimək, çətin şəraitlərə öz münasibətini bildirmək bacarığına, başqa sözlə, pedaqoji səriştəyə və estetik davranış mədəniyyətinə malik olmaq, ədalı (yəni uşaqların xoşuna gələn və özünə maraq oyadan), təsirli, alicənab olmaq və s. müəllimin şəxsi keyfiyyətlərinə aid etmək olar (139, s.87).

Müəllimin yuxarıda göstərilən şəxsi keyfiyyətlərinin təhlili əsasında biz daha əhəmiyyətli olanları anketə daxil etdik və pedaqoji fakültənin 120 nəfər I kurs və 120 nəfər IV kurs tələbəsini, eləcə

də əlavə təhsil fakültəsinin dinləyicilərini sorğuya cəlb etdik. Aldığımız cavabların nəticəsi cədvəl 1.7-də verilmişdir.

**Tələbə və müəllimlərin ibtidai sinif müəllimində dəyərləndirdikləri vacib şəxsi keyfiyyətlərin müqayisəli təhlili.**

*Cədvəl 1.7*

| № | Dəyərləndirilən keyfiyyətlər | İbtidai sinif müəllimi fənləri tədris edən müəllim kimi | | | İbtidai sinif müəllimi sinif rəhbəri kimi | | |
|---|---|---|---|---|---|---|---|
| | | Müəllimlər % | I kurs tələbələri % | IV kurs tələbələri % | Müəllimlər % | I kurs tələbələri % | IV kurs tələbələri % |
| 1 | Tədris etdiyi fənləri yüksək səviyyədə bilir | 73 | 51 | 52 | 4 | 11 | 36 |
| 2 | Maraqlı dərs təşkil etməyi bacarır | 42 | 20 | 35 | 4 | 11 | 5 |
| 3 | Bilikləri ötürməyi və qiymətləndirməyi bacarır | 70 | 65 | 63 | 20 | 8 | 8 |
| 4 | Özünə və başqalarına qarşı tələbkardır | 50 | 6 | 2 | 16 | 12 | 13 |
| 5 | Hərtərəfli dərin biliyə və mədəniyyətə malikdir | 37 | 8 | 4 | 30 | 40 | 46 |
| 6 | Xeyirxah və təmkinlidir | 45 | 10 | 46 | 40 | 36 | 40 |
| 7 | Şagirdlərin yaş və fərdi xüsusiyyətlərini bilir | 82 | 40 | 59 | 40 | 64 | 47 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8 | Pedaqoji mərifətə və nitq mədəniyyətinə malikdir | 42 | 6 | 14 | 30 | 44 | 50 |
| 9 | Peşəsini və uşaqları sevir | 40 | 26 | 52 | 40 | 27 | 52 |
| 10 | İntizamlı və əməksevərdir | 13 | 2 | 3 | 3 | 6 | 8 |
| 11 | Ciddiliklə ədalətliliyi uzlaşdıra bilir | 27 | 10 | 51 | 38 | 20 | 15 |
| 12 | Şagirdin özünü reallaşdırması üçün şərait yaradır | 7 | 8 | 3 | 30 | 23 | 44 |

Alınmış nəticələrin müqayisəli təhlili göstərdi ki, ibtidai sinif müəlliminin tədris etdiyi fənləri yaxşı bilməsi və sinifdənxaric tədbirləri təşkil etmək bacarığının qiymətləndirilməsində həm tələbələrin, həm də müəllimlərin fikirləri üst-üstə düşmüşdür.

Əlavə təhsil fakültəsinin dinləyiciləri isə ibtidai sinif müəllimi üçün tədris etdiyi fənləri yüksək səviyyədə bilməsi, bilikləri mənimsədə bilməsi, peşəsini və uşaqları sevməsi, özünə və başqalarına qarşı tələbkar olması, ciddilik və ədalətliliyi uzlaşdıra bilməsi kimi keyfiyyətlərin vacib olduğunu qeyd etmişlər.

I kurs tələbələri sinif müəlliminin tədris etdiyi fənləri yüksək səviyyədə bilməsi, şagirdlərin biliklərini qiymətləndirməyi, onlara fərdi yanaşmağı bacarması, uşaqları başa düşməsi, intizamlılıq və əməksevərlik kimi keyfiyyətlərini dəyərli hesab etmişlər.

IV kurs tələbələri sinif müəllimlərinin tədris etdiyi fənləri yüksək səviyyədə bilməsi, şagirdlərin biliklərini düzgun qiymətləndirməyi, onlara fərdi yanaşmağı bacarması, uşaqları başa düşməsi, peşəsini və uşaqları sevməsi, ciddilik və ədalətliliyi uzlaşdıra bilməsi, xeyirxahlıq və təmkinlilik kimi keyfiyyətləri müəllim üçün vacib hesab etmişlər.

İbtidai sinif müəlliminin qiymətləndirilməsində hər üç qrupun üzvləri, yəni müəllimlər, I və IV kurs tələbələri ibtidai sinif müəlli-

minin bilikli olması, bilikləri ötürməyi və qiymətləndirməyi bacarması keyfiyyətlərinə üstünlük vermişlər.

İbtidai sinif müəlliminin sinif rəhbəri kimi şəxsi keyfiyyətlərinə münasibətdə isə müəllimlərin, I və IV kurs tələbələrinin fikirləri fərqli olmuşdur. Belə ki, müəllimlər sinif müəllimi üçün dəyərli şəxsi keyfiyyətlər qismində xeyirxah və təmkinli olmağı, şagirdləri dinləmək bacarığı, onlara fərdi yanaşmağı və duya bilməyi, peşəsinə və sagirdlərə məhəbbəti göstərmişlər. I və IV kurs tələbələri isə vicdanlı, insaflı, mədəni, dözümlü, xeyirxah, təmkinli, ədalətli, humanist, tələbkar, əməksevər olmağı, kiçik yaşlı məktəblilərin yaş xüsusiyyətlərini bilməyi və onlara fərdi yanaşma bacarığını sinif müəllimi üçün dəyərli şəxsi keyfiyyətlər hesab etmişlər.

Aparılan təhlillərin nəticəsi göstərdi ki, ibtidai sinif müəlliminin fənləri tədris edən müəllim kimi daha əhəmiyyətli şəxsi keyfiyyətlərini seçərkən onun peşəkar bilik və bacarığına, sinif rəhbəri kimi vacib keyfiyyətlərini müəyyənləşdirdikdə isə onun şəxsi keyfiyyətlərinə daha çox üstünlük verilmişdir.

Beləliklə, tədqiqat göstərdi ki, tərbiyə prosesini yüksək peşəkarlıq səviyyəsində həyata keçirmək üçün ibtidai sinif müəllimində şagird şəxsiyyətinin formalaşması və inkişafına bilavasitə təsir göstərən müəyyən peşə və şəxsi keyfiyyətlər inkişaf etdirilməsi vacibdir. Belə ki, bir tərəfdən Respublikamızda humanistlik təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biridir: "humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması"dır (8, s.13). Digər tərəfdən, tərbiyə-təhsil prosesinin humanist yönümlü olmasını nəzərə alaraq gələcək ibtidai sinif müəlliminin peşə hazırlığı səviyyəsinə tələbatlar da artır.

Biz belə hesab edirik ki, fasiləsiz pedaqoji təhsilin hər bir mərhələsində oxuduğu dövrdə gələcək ibtidai sinif müəllimi üçün sonralar öz peşə fəaliyyətini həyata keçirməkdə kömək edə biləcək şəxsi keyfiyyətlərin inkişaf etdirilməsinə və formalaşdırılmasına şə-

rait yaratmaq vacibdir. Bu, fasiləsiz pedaqoji təhsilin hər bir mərhələsində həyata keçirilir.

Fasiləsiz təhsilin ali təhsil müəssisələrində və təhsildən sonrakı dövrün hər bir mərhələsində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazır olmasının təşkili nəzəri ümumpedaqoji hazırlıq çərçivəsində həyata keçirilir. Bu, müəllimin peşəkarlıq və praktiki hazırlığını özündə birləşdirir. Peşə hazırlığı dedikdə, müəllimin elmi, pedaqoji, psixoloji və metodiki hazırlığı nəzərdə tutulur. Müəllimin praktiki hazırlığı isə təlim və istehsalat təcrübələri, tələbə və müəllimlərin tədqiqat işləri vasitəsi ilə həyata keçirilir. Apardığımız tədqiqat işi bizə tələbənin – gələcək müəllimin ali təhsil aldığı dövrdə təhsil müəssisələrində tərbiyə işinə hazırlanmasının səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa imkan verdi:

– tərbiyə işinin həyata keçirilməsi üçün gələcək müəllimin fərdi-yaradıcılıq üslubunun inkişafı, pedaqoji-psixoloji fənlərin öyrənilməsi və əhəmiyyətinə xüsusi diqqət verilməsi;

– pedaqoji peşə təfəkkürün formalaşdırılması;

– peşə ünsiyyətinə meyllərin yaradılması (uşaqlarla ünsiyyət tələbatı; empatiya hissi; ətrafdakıları cəlb etmə bacarığı; digər ünsiyyət iştirakçılarının mövqeyinin nəzərə alınması; uşaq şəxsiyyətinə hörmətlə yanaşma və s.)

– tərbiyə işinin təşkilinə yaradıcı münasibətin formalaşdırılması.

Gələcək müəllimin inkişafında ictimai şərait ilk növbədə ali təhsil müəssisəsində mütəxəssislərin rəhbərliyi ilə peşə hazırlığına yiyələnən gəncləri birləşdirən tələbəçiliyə xas olan xüsusiyyətlərlə müəyyənləşdirilir. Ali təhsil müəssisəsində təhsil almaq hər bir gəncin öz qabiliyyətinə inamını gücləndirir, peşəkar yaradıcılıq baxımından maraqlı, dolğun həyat və fəaliyyətinə inam yaradır.

Bu yaş dövründə bir çox biliklərin, həyat təcrübəsinin, müstəqil düşüncə və hərəkətlərin sintezi əsasında dünyagörüşü, etik və estetik baxışlar formalaşır. Bəzi məfhumlar, məsələn, məhəbbət, nikah, ailə və s. nəzəri təsəvvürlərdən praktik anlayışlara çevrilir.

Tələbə üçün müstəqilliyinin artdığı bu dövrdə əsas fəaliyyət növü elmi-tədqiqat və peşə-təlim fəaliyyəti hesab edilir (təlim, təsərrüfat və s.).

Qazanılmış biliklər, bacarıq və vərdişlər, bir qayda olaraq, tələbə üçün gələcək peşə fəaliyyətində əsas vəsaitdir.

Tələbə yaş dövrünün əsas xüsusiyyətlərindən biri də nailiyyətlərə tələbatdır. İnsan özünü təsdiq edə biləcək, daxili aləmini aça biləcək, öz fərdiliyini dərk edə biləcək, "Mən obrazı" nın təşəkkülünə kömək edə biləcək bir sahə tapmalıdır.

Tələbəlik dövrü – insanın gələcək peşəkar, yaradıcı işçi kimi fəal sosiallaşması və mürəkkəb quruluşa malik intellekt səviyyəsinin formalaşması dövrüdür .

A.A.Bodalev və İ.P.Volkovun tədqiqatlarında qeyd olunur ki, tərbiyə şəxsiyyətin inkişafında əsas amil kimi, intellektual və müsbət ruhlu kollektivdə, şəxsiyyətin özünü ifadə və özünütəsdiqi üçün əlverişli bir şəraitdə həyata keçirilməlidir (89; 94). Bundan başqa, tanınmış pedaqoqların A.S.Makarenko və V.A.Suxomlinskinin təcrübəsi göstərir ki, hər bir fərdin peşəkarlıqda özünü təyin etməsinə kollektiv müəyyən təsir göstərir. Tələbələrə fərdi və diferensial münasibət onların yaxşı mütəxəssis kimi yetişməsinin şərtlərindən biridir (138; 175).

Beləliklə, tələbələrin yaş, fərdi, psixi, sosial xüsusiyyətlərini bilmək bizə onların məktəbdə tərbiyə işini təşkil etməyə hazır olmasından danışmağa imkan verir. Bu isə ali təhsil çərçivəsində mümkündür. Belə ki, ali təhsilin məqsədi pedaqoji fəaliyyətə maraq yaratmaqla onun əsaslarını öyrətmək, pedaqoji fəaliyyətlə məşğul olmağa istək və cəhdləri formalaşdırmaq, bu fəaliyyətə aid elmi bilikləri öyrətmək, bu bilikləri peşə təfəkkürü və peşə vəzifələrinin həllində istifadə bacarığını aşılamaqdır (95).

Təhsildən sonrakı mərhələnin – sinif müəllimlərinin ixtisasını artırması və təkmilləşdirməsi dövrünün xüsusiyyətləri bunlardır:

– fasiləsiz pedaqoji təhsil sistemində təhsil prosesinin varisliyi;

– pedaqoji staj və peşə təcrübəsinin nəzərə alınması;

– sinif müəllimlərinin yaş xüsusiyyətlərinin nəzərə alınması;

– təhsil prosesinin tədqiqatçılıq istiqaməti;
– təhsil prosesinin təşkilində şəxsi yanaşma;
– fəal təlim metodlarını tətbiq etmə və s.

İbtidai sinif müəlliminin təhsildən sonrakı təhsil sistemində tərbiyə işinə hazırlanmasının xüsusiyyətlərindən biri də onun fəaliyyətində fərdi yaradıcılıq üslubunun inkişaf etdirilməsidir.

İbtidai sinif müəllimlərinin sosial-demoqrafik xüsusiyyətlərinin müəyyənləşdirilməsinə həsr olunmuş tədqiqat işlərinin təhlili bu sahədə daha çox qadınların fəaliyyət göstərməsini, onların dominantlığını aşkar etmişdir. Döğrudan da, bu gün Azərbaycan ümumtəhsil məktəblərinə nəzər saldıqda ibtidai siniflərdə əsasən qadın müəllimlərin çalışdığının şahidi oluruq. (Ümumiyyətlə, ölkəmızın ümumtəhsil məktəblərində 73% qadın, 27% isə kişi müəllim çalışır).

Belə vəziyyət digər ölkələrdə də müşahidə olunur. Amma orta təhsilin pillələri üzrə bu göstəricilər başqa ölkələrdə fərqlidir. Məsələn, Rusiyada ibtidai siniflərdə qadın müəllimlərinin sayı 100%-ə yaxındırsa, yuxarı siniflərdə bu rəqəm 80-90% arasında dəyişir. Fransada qadın müəllimlər 57%, İngiltərədə – 53%, Almaniyada isə 46% təşkil edir (151, s.62).

Əksər ölkələrdə pedaqoji kadrların cinsi tərkibi tərbiyə prosesinin inkişafına təsir göstərir. Belə ki, bu, hər şeydən əvvəl, müəllim şəxsiyyətinin şagirdlərdə həyatın mənasına və şagird idealına düzgün münasibətin formalaşdırılmasında özünü biruzə verir. Digər cəhət isə gənc nəslin sosiallaşması ilə bağlıdır. Belə ki, hər hansı bir üşaq xüsusi ictimai-dövlət tərbiyə institutu hesab edilən məktəbə gələrkən qadın nəzarəti altına düşür və məktəb divarları arasında da qadının bu dominant rolunu mənimsəyir. Beləliklə, məktəbdə müəllim heyətinin cinsi tərkibi məsələsi həm də dominant sosial nəzarətin və davranışın feminizasiya modelinin mənimsənilməsi baxımından vacibdir (144).

Pedaqoji kadrların feminizasiyası (latınca “femina” - qadın deməkdir) təlim-tərbiyə prosesinin üsulları və təşkili formalarının seçilməsinə də təsir göstərir. Verbal üsullar yalnız təlim prosesində deyil, tərbiyə prosesində də üstünlük təşkil edir. Bir çox ibtidai sinif

şagirdləri sıxıntı, yorğunluq, əsəbilik hissi keçirir və ona görə də onlarla fəal ünsiyyət quran, onları əlavə təhsilə cəlb edən, asudə vaxtlarını düzgün təşkil edən müəllimləri daha çox qiymətləndirirlər.

Bəzi alimlərin fikrincə, feminizasiya qadın kollektivində münaqişələrə səbəb olan sosial-psixoloji xüsusiyyətləri üzə çıxarır və bu, onlara rəhbərliyi çətinləşdirir (185). Bəzən müəllim kollektivinin feminizasiyası pedaqoji fəaliyyət zamanı innovasiyaların tətbiqində çətinlik yaradan sosial-psixoloji maneə də ola bilər. Lakin bu fikirləri birmənalı qəbul etmək olmaz. Axı, Tanrı qadını ana olmaq üçün yaratmışdır. Deməli, yaranışdan qadının xislətində tərbiyə etmək, bəsləmək bacarıqları mövcuddur. Hələ dünyaya gəlişindən qabaq insan ana bətnində müəyyən tərbiyə alır, formalaşır. Bu baxımdan, qadın kişilərə nisbətən daha yaxşı tərbiyəçi ola bilər. Şagirdlərdə bəzi şəxsi keyfiyyətlərin formalaşdırılmasına gəldikdə isə, həm kişi, həm də qadın müəllim bunu məqsədyönlü şəkildə etməlidir. Müəllim gələcəyin həm kişisini, həm də qadınını tərbiyə etmək problemini öz pedaqoji fəaliyyətində insani keyfiyyətlərdən istifadə etməklə, yəni qadına xas zəriflik, gözəllik (empatiya, mərhəmət), kişiyə aid ciddilik, zəhm, güc nümayiş etdirməklə (inadkarlıq, sərt, birmənalı qərar vermək bacarığı və s.) həll edə bilər. "Aslanın erkəyi, dişisi olmaz", - demişlər məcazi mənada ulularımız. Onların dediklərinin həyati əhəmiyyətini kiçiltmədən israr etmək olar ki, gənc nəsillərin tərbiyəsində aslanın erkək və yaxyd dişi olmasının fərqi var və bu, qızlara və oğlanlara xas olan səciyyəvi xüsusiyyətlərin formalaşdırılmasında böyük əhəmiyyət kəsb edir.

İkinci xüsusiyyət – ibtidai sinif müəllimlərinin yaşının nəzərə alınmasıdır. Müəllimlərin yaş həddinin nəzərə alınması böyüyən nəslin tərbiyə prosesinin səmərəli olmasına təsir edir. Müəllimin yaşı, hər şeydən əvvəl, onun peşəsinə təsir edir və təhsilin keyfiyyətində öz əksini tapır.

Üçüncü xüsusiyyət – müəllimin peşə fəaliyyəti təcrübəsinin nəzərə alınmasıdır. Təhsil müəssisələrində işləyən müəllimlərin, pedaqoji-psixoloji, metodiki biliklərinin köhnəlməsi ilə bağlı onların peşə fəaliyyətində problemlər yaranır. Belə ki, bir neçə il əvvəl təh-

sil aldıqları üçün bəzi müəllimlər müasir dövr təhsil-tərbiyə prosesindəki yenilikləri qəbul etməkdə çətinlik çəkirlər. Bu isə ixtisasartırma və təkmilləşdirmə sisteminin müəllimlərini ölkə və xarici humanist xarakterli pedaqoji-psixoloji nəzəriyyə və konsepsiyalarla tanış etməyə səbəb yaradır və bu da şagirdlərin özünüdərk və öz taleyinə məsuliyyət hissi əsasında peşə və vətəndaş vəzifələrinin yerinə yetirməsinə imkan verir.

Dördüncü xüsusiyyət – müəllim peşəsinin ümidsiz peşə sayılmasıdır. Əmək haqqı səviyyəsinin maddi və mənəvi məsrəflərə uyğun gəlməməsidir. Təhsil müəssisələrindən məzun olan gənc müəllimlərin sayı azalmasa da, yaşlı nəsil müəllimlər öz fəaliyyətlərini davam edirirlər. Bu ona görə baş verir ki, pedaqoji iş gənc nəsil üçün ümidverici və cəlbedici sayılmır. Əgər 90-cı illərin əvvəllərindən məzunların hamısı təhsil sistemində işləmək istəyirdilərsə, müasir dövrdə müəllimlərin maddi-rifah halının, yaşayış səviyyəsinin aşağı olması gənc və xüsusilə kişi müəllimlərin pedaqoji fəaliyyətdən uzaqlaşmasına səbəb olur. Əsasən buna görə Respublikamızda pedaqoji sahəni seçən oğlanların sayi ildən-ilə azalır.

Beləliklə, pedaqoji fəaliyyətin səmərəli olmasına, təkmilləşməsinə müəllimin maddi təminatının yaxşılaşması da bilavasitə təsir edir. Maddi təminatın olmaması və zəif mənəvi stimul müəllimin peşə ustalığının formalaşmasına mənfi təsir göstərir.

Əvvəlki paraqrafda müəllimlərin tərbiyə işinə hazır olması meyarlarını müəyyənləşdirərkən onların pedaqoji təhsil və təkmilləşdirmə sistemində nə qədər vacib olduğunu gördük. Beləliklə, məktəb təcrübəsi və tədqiqatın nəticələrinin təhlili göstərir ki, müəllimlərin bir çoxunun pedaqoji-psixoloji biliklərə, psixoloji ünsiyyətə, şəxsiyyətlərarası münasibətlərə, pedaqoji və psixoloji diaqnostikaya, yeni pedaqoji texnologiyalara, müasir məktəblilərin yaş xüsusiyyətlərini nəzərə almağa və s. böyük ehtiyacı var.

İbtidai sinif müəllimi, hər şeydən əvvəl, mədəniyyəti tərənnüm və təbliğ edən mütəxəssis, şəxsi hərəkətlərində davranış mədəniyyətinin əyani nümunəsi olan insandır. Onların mədəni səviyyəsi-

nin daha da yüksəldilməsi üçün ali pedaqoji təhsil standartlarına kulturologiya fənlərinin əlavə edilməsi vacib şərtlərdəndir.

Müəllimlərin təhsil keyfiyyətinin daha da yaxşılaşdırılması ilə bağlı problemlərin əksəriyyətini təkmilləşdirmə sistemində həll etmək mümkündür. Bununla əlaqədar təhsildən sonrakı mərhələyə aid edilən təkmilləşdirmə və ixtisasartırma sistemi ali təhsil müəssisələrində alınmış əsaslı bilikləri pedaqoji vəzifələrin kompleks həllində istifadə etmək bacarıqlarının formalaşdırılmasına istiqamətləndirir. Belə ki, tələbələr ali təhsil aldıqları dövrdə bu pedaqoji vəzifələri qismən yerinə yetirə bilirlər.

Beləliklə, müasir sosial-mədəni şəraitdə tələbə və müəllimlərin ali təhsil müəssisələrində təhsil aldıqları və təhsildən sonrakı mərhələlərdə tərbiyə işinə hazırlanmasının xüsusiyyətlərinin öyrənilməsi bizə mühüm əhəmiyyət kəsb edən pedaqoji amilləri – müəllimlərin tərbiyə işinə hazırlanmasının məzmununu, forma, metod və vasitələrini müəyyənləşdirməyə imkan verdi. Müəyyən etdiyimiz xüsusiyyətlər müasir dövrdə tələbə və müəllimlərin ümümi təhsilin bünövrəsi qoyulan ibtidai siniflərdə tərbiyə işinə hazır olması modelinin işlənilib hazırlanması və həyata keçirilməsinin əsasını təşkil etdi.

Müəllimlərin fasiləsiz təhsil prosesində tərbiyə işinin təşkilinə hazırlanması probleminin öyrənilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verdi:

1. Cəmiyyətdəki obyektiv dəyişikliklərlə əlaqədar tərbiyə sistemindəki islahatlar təhsil müəssisələrində müəllimlərin tərbiyə işinin təşkilinə hazırlanması probleminə xüsusi əhəmiyyət verir. Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının təşkilinə aid nəzəri təhlili, tələbələrin həm gələcək müəllim-tərbiyəçi (tərbiyəedici funksiyalarını, vəzifələrini həyata keçirməyə), həm də fənn müəllimi kimi (öyrədici, təhsilləndirici vəzifələrinin reallaşdırılmasına) hazırlanmasında təhsil prosesinin daha da mükəmməlləşdirilməsi və təkmilləşdirilməsinin vacib olduğunu təsdiq etdi.

2. Azərbaycanın Avropa və dünya ali təhsil məkanına inteqrasiyası ilə əlaqədar ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlığında

əvvəlki nəsillərdən, sələflərdən toplanan tarixi təcrübə və tərbiyə prosesinin humanist yönümlü müasir ənənələrini nəzərə almaq vacib hesab edilir. Biz tərbiyə prosesinə tərbiyə edənlərin və tərbiyə olunanların birgə yaradıcılıq fəaliyyəti kimi baxırıq. Bu fəaliyyət təlim və tərbiyənin bütün iştirakçılarının, subyektlərinin özünü inkişaf etdirməsi, özünü təkmilləşdirməsi və özünü reallaşdırması üçün şərait yaratmağa istiqamətlənmişdir.

3. Bəzi anlayışlar dəqiqləşdirildi və bu anlayışların xüsusiyyətləri də müəyyənləşdirildi:

- "tərbiyə işi" – yaşlıların və uşaqların özünüinkişafı və özünü reallaşdırması məqsədi ilə təşkil edilmiş birgə fəaliyyəti üçün şərait yaradılmasında müəllimin məqsədyönlü fəaliyyətidir;

- "tərbiyə işinə hazır olma" – bu, müəllimin bir tərbiyəçi kimi təlim-tərbiyə prosesində öz bilik, bacarıq, vərdişləri və şəxsi keyfiyyətlərilə tərbiyə olunanlara təsir göstərmə vasitəsidir. Bu zaman hər iki tərəfin özünüreallaşdırması, özünütəkmilləşdirməsi və özünübərpasına şərait yaradılır;

- "müəllimin tərbiyə işinə hazırlanmasının təşkili" – müasir şəraitdə müəllimin tərbiyə işinə müsbət münasibətində təzahür edilən peşə və şəxsi keyfiyyətlərinin inkişafı üçün uzun müddətli proses və onun nəticəsidir.

4. Müasir tərbiyə prosesinin ziddiyyətləri müəyyənləşdirildi:

Sosial ziddiyyətlər:

– şəxsiyyətin müasir ictimai həyat mövqeyi ilə keçmiş köhnə təcrübə arasındakı ziddiyyətlər;

– cəmiyyətin güclü, fəal, yaradıcı, müstəqil, tez uyğunlaşan insanlara tələbatı ilə bu keyfiyyətləri tərbiyə edə bilən peşəkar kadrların mövcud olmaması arasında olan ziddiyyətlər;

– ali təhsilli mütəxəssisin peşə fəaliyyəti ilə onun əməyinin qiymətləndirilməsi arasındakı ziddiyyətlər.

Texnoloji ziddiyyətlər:

– ictimai həyatda sürətlə baş verən dəyişikliklərlə bu dəyişikliklərin şəxsiyyət tərəfindən zəif dərk edilməsi arasında;

– şəxsiyyətin tələbatları ilə onları ödəmək imkanları arasında;

– şəxsiyyətin öz fərdiliyini ifadə etmək cəhdilə onun qrup tərəfindən qəbul edilməsi arasında və s.

Pedaqoji ziddiyyətlər:

– avtoritar pedaqogika ənənələrilə humanist yönümlü tərbiyə prosesinə keçmək cəhdi arasında;

– tərbiyə sisteminin potensial imkanları ilə real təlim-tərbiyə fəaliyyəti arasında;

– müəllim şəxsiyyətinə verilən tələblərlə əmək şəraitinin uyğunsuzluğu arasında;

5. Tələbə və müəllimlərin tərbiyə işinə hazırlanmasının komponentləri (sosial, peşə, şəxsi), meyarları (sosial, peşə, şəxsi) və əlamətləri müəyyənləşdirildi. Sosial meyarlara – müəllimin mədəniyyəti; peşə meyarlarına – müəllim və tələbəyə tərbiyə işinin təşkili üçün vacib olan biliklər, həmçinin qnostik, kommunikativ, layihələşdirici, konstruktiv və təşkilatçılıq qabiliyyətlərini birləşdirən pedaqoji bacarıqlar aiddir; şəxsi meyarlara isə müəllimin tərbiyə fəaliyyətində nailiyyətlərinə səbəb olan peşə keyfiyyətləri, şəxsiyyətin istiqaməti, xarakter və qabiliyyətləri aiddir.

6. İbtidai sinif müəlliminə pedaqoji fəaliyyəti həyata keçirmək üçün müəyyən peşə və şəxsi əhəmiyyətli, fəaliyyətinin səmərəliliyinə bilavasitə təsir göstərə bilən keyfiyyətlər inkişaf etdirilməlidir. Yeni sosial-iqtisadi şəraitdə humanist keyfiyyətlərə malik sinif müəlliminin rolu gündən-günə artır; fasiləsiz təhsil sistemində onun hazırlıq səviyyəsinə verilən tələblər artır.

7. Ali təhsil müəssisəsində və ali təhsildən sonrakı mərhələdə tələbə və müəllimlərin tərbiyə işinin təşkilinə hazırlanmasının xüsusiyyətləri araşdırıldı. Bu ümumi və spesifik xüsusiyyətlərdir.

Ümumi xüsusiyyətlərə ictimai həyatın sosial-iqtisadi, siyasi, mənəvi təsiri; regionun milli və mədəni imkanlarının nəzərə alınması; elmi, bilik və praktik təcrübənin qarşılıqlı əlaqəsi; təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tərbiyə prosesinin təşkilinə verilən tələblərlə uyğunluğu aiddir.

Spesifik xüsusiyyətlərə aşağıdakılar aiddir:

a) ali təhsil müəssisəsində təhsil zamanı gələcək ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin həyata keçirilməsində vacib olan fərdi-yaradıcılıq üslubunun inkişafı; pedaqoji-peşə təfəkkürünün formalaşdırılması; peşə ünsiyyətinə yiyələnmə; tərbiyə işinin təşkilinə yaradıcı yanaşma;

b) ali təhsildən sonrakı mərhələdə: fasiləsiz pedaqoji təhsil sistemində varislik; pedaqoji staj və peşə təcrübəsi; ibtidai sinif müəllimlərinin yaş xüsusiyyətlərinin nəzərə alınması; təhsil prosesində tədqiqatçılığa meyl; tərbiyə prosesinin təşkilində şəxsiyyətə yanaşma üsulundan istifadə; fəal təlim metodlarına yiyələnmə.

*"Əgər müəllimin peşə yaradıcılığı axtarışı pedaqoji kollektiv tərəfindən dəstəklənirsə, dəyərləndirilirsə, əgər praktik fərdi təcrübə sosial və peşətəcrübəsi ilə birləşirsə, əgər müəllim şəxsiyyəti pedaqoji prosesin fəal subyektikimi çıxış edirsə, onda müəllimin pedaqoji mədəniyyəti və peşə ustalığının inkişafı daha intensiv olar".*

*HEYDƏR ƏLİYEV*

# II FƏSİL

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ VƏ ALİ TƏHSİLDƏN SONRAKI MƏRHƏLƏDƏ İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASI PROBLEMLƏRİ

## *2.1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının təcrübəyönümlü modelin işlənilməsi*

Müəllimin tərbiyə işinə hazır olması, onun fasiləsiz təhsil sistemində hazırlığı və təkmilləşdirilməsinin ardıcıl surətdə həyata keçirilməsi ilə şərtləınir. Bu isə ibtidai sinif müəlliminin peşə və şəxsi keyfiyyətlərinin formalaşdırılmasına imkan verir, onun özünüinkişafı və özünü reallaşdırmasına zəmin yaradır. Biz fasiləsiz təhsil sistemində müəllimin tərbiyə işinə hazırlanmasına imkan yaradan pedaqoji şərtləri müəyyənləşdirdik. Müəllimin tərbiyə işinə hazırlanmasının şərtləri dedikdə, bu prosesin məqsədini və səmərəsini şərtləndirən şərait (qayda və tələblər) başa düşülür.

Elmdə model dedikdə, sxem, çertyoj, məntiqi-riyazi formula, süni yaradılmış obyekt başa düşülür. Bu daha sadə, tədqiqat obyek-

tinin kiçildilmiş formada quruluşu, xüsusiyyətləri və ayrı-ayrı hissələri arasında qarşılıqlı əlaqəni əks etdirir və təsəvvür yaradır.

Pedaqoji modellərin quruluşu səciyyəvi xüsusiyyətlərə malikdir. Pedaqoji modellərdə modelləşdirilən hadisələrin əsas tərkibinə ayrı-ayrı qruplar, müxtəlif əlaqə və qarşılıqlı münasibətlərlə bağlı, səciyyəvi ictimai xüsusiyyətlərə malik olan ictimai birliklər aid ola bilər. Model qurarkən nəzərə almaq lazımdır ki, pedaqoji hadisələrin məzmunu bu və ya digər səviyyədə fərdlərin və qrupların fəaliyyətindən asılıdır.

Təhsilin müxtəlif mərhələlərində ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması problemi ilə bağlı pedaqoji-psixoloji ədəbiyyatın təhlili bizə məqsəd, məzmun, üsullar, təşkilat formalarının ardıcıllğı əsasında onların hazırlanmasını mərhələlərlə həyata keçirmək üçün model qurmağa əsas verdi.

Modelin qurulmasında məqsədyönlülük, elmlik, mərhələlik, sistematiklik və tamlıq, fasiləsizlik və varislik prinsiplərini əldə rəhbər tutmaq lazımdır. Bütün bunların tətbiqi onu deməyə imkan verir ki, müəllimin hazırlanmasının hər bir növbəti mərhələsi əvvəlki mərhələlərdə qazanılmış xüsusi bilik və bacarıqları ehtiva edir, hər növbəti mərhələ əvvəlki mərhələnin daha yeni keyfiyyətli biliklərlə inkişafının nəticəsidir.

Bu model fasiləsiz pedaqoji təhsil konsepsiyası əsasında hazırlanmışdır. Fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyə işinə hazırlanması modelinin qurulmasına müəllimin peşəkarcasına formalaşdırılmasının bir mərhələsi; ali təhsil müəssisəsində və təhsildən sonrakı dövrdə təhsilin elm və təcrübə ilə inteqrasiyası; ibtidai sinif müəlliminin şəxsi keyfiyyətlərinin formalaşdırılması və möhkəmləndirilməsi; özünüinkişaf və özünütəkmilləşdirməyə meyl kimi baxırıq.

İbtidai sinif müəlliminin fasiləsiz təhsil sistemində tərbiyə işinə hazırlanmasının modeli təhsilin hər bir mərhələsində onun məzmunu və son nəticəsinə uyğun qurulmuşdur.

İbtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması prosesi daim inkişaf edir və təkmilləşir. Belə ki, ali təhsil müəssisələrindəki

mərhələdə gələcək ibtidai sinif müəlliminin fəaliyyətinin əsasını idrak fəaliyyəti təşkil edir. Bu, təhsil müəssisələrində tərbiyəvi işin təşkilində peşə əhəmiyyətli bilik, bacarıq və vərdişlərin formalaşdırılmasına əsas verir.

İbtidai sinif müəlliminin ixtisasartırma sistemində tərbiyə işinə hazırlanmasında əsas məqsəd müasir şəraitdə tərbiyə işinin forma və metodlarının yaxşılaşdırılmasına zəmin yaradan peşəkar bilik, bacarıq və vərdişlərin qazanılmasından ibarətdir.

Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin hazırlanmasının təşkili özündə aşağıdakı komponentləri birləşdirir:

**Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin hazırlanmasının təşkili.**

***Sxem 2.1***



Biz belə hesab edirik ki, ali təhsil müəssisələrində ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasında pedaqogika və psixologiya kafedraları, fakültə dekanatlığı və ixtisaslaşdırılmış kafedralar aparıcı rol oynayır. Gələcək ibtidai sinif müəllimi yiyələndiyi bilik, bacarıq və vərdişləri sonralar təlim-tərbiyə müəssisələrindəki fəaliyyətində həyata keçirir. Təhsildən sonrakı mərhələdə isə əsas vəzifə təhsil işçilərinin təkmilləşdirmə və ixtisasartırma fakültələrinin üzərinə düşür.

Tərbiyə işinə hazırlığa istiqamətlənmiş təlim-tərbiyə prosesinin subyektləri (tələbələr) gələcəyin müəllimləri, tərbiyəçiləri və sinif rəhbərləridirlər.

Biz müəllimlərin bilavasitə təhsil müəssisələrində tərbiyə işinin təşkilinə hazırlığını, eləcə də uşaqların və yaşlıların sosial-psixoloji cəhətdən kollektivindəki həyat və fəaliyyətə hazırlanmasını fasiləsiz pedaqoji təhsil sistemində tərbiyə işinə hazırlıq prosesinin metodiki-təşkilatı təminatına daxil etmək istərdik.

Fasiləsiz təhsil sistemində Gələcək ali və orta məktəblərin tərbiyə işinə hazırlanması probleminin nəzəri və praktik təhlili təlim prosesində nəzərə alınması vacib olan elmi-metodiki, təşkilati, didaktik şərtləri müəyyənləşdirməyə imkan verdi.

Elmi-metodiki şərtlərə biz aşağıdakıları aid etdik:

- fasiləsiz təhsil sistemində gələcək müəllimin tərbiyə işinə hazırlanması proqramını onun bir şəxsiyyət kimi psixo-fiziki keyfiyyət və xüsusiyyətlərini nəzərə almaqla hazırlamaq;

- fasiləsiz təhsil sistemində gələcək ali və orta təhsil sistemində işləyəcək müəllimlərin tərbiyə işinə hazırlanması məqsədi ilə təlim prosesinin təşkili formaları, üsulları və məzmununu işləyib hazırlamaq;

- tərbiyəçi müəllimin vacib peşə keyfiyyətlərini formalaşdırmaq, inkişaf etdirmək və sınaqdan çıxarmaq üçün şəraiti və müəyyən situasiyaları planlaşdırmaq və s.

Təşkilati şərtlərə isə aşağıdakıları aid etmək olar:

- fasiləsiz təhsil sistemində gələcək müəllimlərin tərbiyə işinə hazırlanması prosesinin humanizm, demokratikləşdirmə, fərdiləşdirmə və diferensiallaşdırma, yaradıcı yanaşma prinsiplərinə əsasən qurulması;

- pedaqogika kafedrası, fakültə dekanlıqları, aidiyyatı kafedralar, təhsil müəssisələri və digər təlim-tərbiyə ocaqları işçilərinin ixtisasartırma və təkmilləşdirmə fakültələrinin metodiki, tərbiyəvi və didaktik fəaliyyətinin əlaqələndirilməsi.

Didaktik şərtlərə isə aiddir:

- fasiləsiz pedaqoji təhsil sisteminin ixtisasartırma və təkmilləşdirmə mərhələsində müəllimin tərbiyə işinə hazırlanmasının həyata keçirilməsi üçün proqramın hazırlanması;

- təlim məşğələləri və müstəqil işlərin yerinə yetirilməsi üçün maddi-texniki və elmi-metodiki bazanın yaradılması və daimi inkişaf etdirilməsi;

- fasiləsiz pedaqoji təhsil sistemində müəllimlərin tərbiyə işinə hazırlanmasını təmin edə biləcək tədris planları və proqramlarının tətbiq olunması.

Gələcək müəllim və tərbiyəçinin tərbiyə işinə hazırlanması prosesində biz bir sıra başlıca ideyalara istinad etdik:

- tərbiyəçi-müəllimin seçdiyi fənn üzrə və eləcə də pedaqoji-psixoloji hazırlığının əsaslı və hərtərəfli olmasına nail olmaq;

- təhsilin variativliyi;

- təlim-tərbiyə proqramlarında varisliyin, pedaqoji təhsilin müddəti və forma müxtəlifliyinin gözlənilməsi;

- müəllimlərdə elmi axtarışlara tələbat və marağın inkişaf etdirilməsi məqsədi ilə müəllim hazırlığı prosesinin elmi-tədqiqat istiqamətli olmasına nail olmaq; öz xüsusi sistemlərini yaradan və təcrübədə sınaqdan keçirə bilən, öz tərbiyə işinin nəticələrini proqnozlaşdırmağı bacaran müəllimlərin şəxsi keyfiyyətlərinin formalaşdırılması;

- müəllim hazırlanması prosesinin sadələşdirilməsi;

- əmək bazarından asılı olaraq müəllimlərin məşğulluq imkanlarının maksimum təmin edilməsi;

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının eksperimental yoxlanılması üçün peşə hazırlığının həyata keçirildiyi iki mərhələni - fasiləsiz təhsil sisteminin ali təhsil müəssisələrində və ixtisasartırma (təlim-tərbiyə müəssisələri səviyyəsində) mərhələlərini müəyyənləşdirdik. Ali təhsil müəssisəsində və ya təhsildən sonrakı mərhələdəki əlaqəli fəaliyyət müəllimin tərbiyə işinə hazırlanmasının metodiki cəhətdən təşkilinə əsaslanması bizə müəllimin tərbiyə işinə hazırlanması prosesinin dinamikasını izləməyə imkan verir. Peşə hazırlığı məsələlərində müəllim bu prosesin iştirakçısı, ixtisasartırma mərhələsində isə proqramı hazırlayan və həyata keçirən şəxs kimi çıxış edir.

Tərəfimizdən işlənilmiş müəllimin hazırlanması modeli cədvəldə öz əksini tapmışdır (bax: şəkil 2.2.). Şaquli xətt üzrə biz müəllimin tərbiyə işinə hazırlanmasının məqsədi, vəzifələri, istiqamətləri, təşkili formaları, üsulları, metodiki vasitələri, meyarları; üfüqi xətt üzrə isə müəllimin mərhələlər üzrə ali təhsil müəssisəsində və ixtisasartırma mərhələsində hazırlığı öz əksini tapmışdır.

Müəllimin tərbiyə işinə hazırlanması modelinin qurulmasında biz aşağıdakı məqsədləri müəyyənləşdirdik:

- sosial məqsədlər;

- təhsil müəssisələrində tələbələrin tərbiyə işinə hazırlanmasını təşkil etmək, ixtisasartırma mərhələsində isə onların yeni şəraitə uyğunlaşması üçün imkan yaratmaq, müəllimlərə tərbiyə işinin ictimai və şəxsi əhəmiyyətini dərk edərək münasibətini formalaşdırmaq;

- didaktik məqsədlər: nəzəri biliklər, bacarıq və vərdişlərin varisliyini təmin etmək; təlim-tərbiyə prosesini dövlət təhsil standartlarına uyğun təşkil etmək; ixtisasartırma mərhələsində isə nəzəri biliklər və praktik bacarıqlara əsaslanmaqla peşə təlabatları və ehtiyaclarının yüksək təminatına nail olmaq; müəllimin tərbiyə işinə hazırlanmasının vacibliyi və real səviyyəsi arasındakı ziddiyətləri həll etmək:

- psixoloji məqsədlər: tələbələrin özünü dərk etməsinə və özünü təkmilləşdirməsinə kömək edən "Mən obrazı"nı öyrənmək, gələcək ibtidai sinif müəlliminin peşə əhəmiyyətli keyfiyyətlərini formalaşdırmaq, ixtisasartırma mərhələsində isə - müəllimin özünütəhsilinə şərait yaratmaq;

- tərbiyəvi məqsədlər: müəllimdə gələcək peşə fəaliyyətinə məsuliyyətli münasibət formalaşdırmaq, ixtisasartırma mərhələsində isə müəllim peşəsinə müsbət emosional münasibət yaratmaq, ibtidai sinif müəllimini öz müsbət təcrübəsini təcrübədə həyata keçirməyə hazırlamaq.

Nəzərdə tutulan məqsədlərə nail olmaq üçün biz bütün mərhələlərdə yerinə yetiriləcək vəzifələri də müəyyənləşdirdik.

Ali təhsil müəssisəsində müəllimin tərbiyə işinə hazırlanmasının vəzifələri:

- öyrədici (təhsilləndirici) vəzifələr: pedaqoji-psixoloji, metodiki və xüsusi bilik, bacarıq və vərdişlərin öyrədilməsi;

- inkişafetdirici vəzifələr: tərbiyəçi-müəllimə vacib olan peşə və şəxsi keyfiyyətlərin formalaşdırılması, peşə təcrübəsinin sınaqdan keçirilməsinə kömək etmək;

- tərbiyəedici vəzifələr: ali təhsil müəssisəsinin təhsil-tərbiyə işlərinə qoşulmaq, şəxsiyyətin humanist istiqamətlərini formalaşdırmaq və müsbət peşə keyfiyyətlərini stimullaşdırmaq.

İxtisasartırma mərhələsində müəllimin hazırlanmasının vəzifələri;

- öyrədici vəzifələr: peşə fəaliyyəti sistemində özünütəhsillə məşğul olmaq, metodiki və texnoloji xüsusiyyətlərinin formalaşmasına kömək etmək.

- inkkişafetdirici vəzifələr: yeni tərbiyə texnologiyalarının müdafiə və inkişaf etdirilməsi;

Eksperimentin gedişində fəaliyyətin məzmunu mərhələlər üzrə müəyyənləşdirildi:

Ali təhsil müəssisələrində:

- gələcək ibtidai sinif müəlliminin peşə fəaliyyətinə hazırlanması işinin təhsil müəssisələrində koordinasiyası (əlaqələndirilməsi);

- gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanması prosesindəki inkişafının öyrənilməsi və təhlili;

- ibtidai sinif müəlliminin ustalığa hazırlanmasının təşkili üçün pedaqogika fənni üzrə xüsusi kursların, təcrübənin, müəllimlər və məktəb direktoru ilə görüşlərinin təşkili proqramlarının hazırlanması və s. ;

İxtisasartırma mərhələsində müəllimin tərbiyə işinə hazırlanmasının məzmununa aiddir:

- peşəyə dərindən yiyələnmə: təcrübəli ibtidai sinif müəllimlərinin fəaliyyətini izləmək, nəzəri biliklərin təcrübədə tətbiqini həyata keçirmək;

- ibtidai sinif müəllimlərinin fəaliyyətinə münasibətlərin dəyişilməsini öyrənmək: peşə üzrə elmi-tədqiqat üsullarını bilmək, özünün və həmkarlarının təcrübəsinin ümumiləşdirmək, təkmilləşdirmək, istifadə və tətbiq etmək;

- ibtidai sinif müəlliminin özünütəhsili və özünütəkmilləşdirməsi işini təşkil etmək: seminarlar, məsləhət, işgüzar oyunlar, pedaqoji-psixoloji təmrinlər, dəyirmi masa və s.

Fəaliyyətin məqsədi, vəzifələri və məzmununa müvafiq olaraq biz təlim-tərbiyə prosesinin təşkili formalarını da müəyyənləşdirdik.

Ali pedaqoji təhsil müəssisələrindəki təhsil mərhələsində:

- təlim-tərbiyə prosesinin təşkili: mühazirə, seminar, metodiki, fərdi və qrup üzrə məsləhət saatları, pedaqoji situasiyaların modellərinin qurulması, pedaqoji təcrübələr və s.

- elmi-tədqiqat prosesinin təşkili: elmi-praktik konfranslar, kurs işləri və diplom layihələrinin, TETİ-nin (tələbə elmi-tədqiqat işlərinin) tapşırıqlarının yerinə yetirilməsi və müdafiəsi, yaradıcı hesabatlar və fərdi tapşırıqlar;

- təlimdənkənar fəaliyyətin təşkili: peşə özünütəyini ilə bağlı təlim-tərbiyə müəssisələrində iş, maraqlar üzrə klublarda, yaradıcılıq təşkilatlarında iş və s.

İxtisasartırma mərhələsində:

- təlim-tərbiyə prosesinin təşkili: işgüzar, təşkilati-fəaliyyət oyunları, elmi-praktiki konfranslar, sosial-pedaqoji treninqlər, məsləhət saatları, müxtəlif təhsil müəssisələrində təcrübənin təşkili və s.;

- elmi-tədqiqat prosesinin təşkili: ibtidai sinif müəllimlərinin iş təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, məktəbin tələbatlarına uyğun problemlər üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi, pedaqoji qiraət saatının keçirilməsi, problem-seminarların təşkili və s.;

- təlimdənkənar fəaliyyətin təşkili: fakültativ kurslar, peşə maraqları üzrə klublar, qeyri-formal ünsiyyət və s.;

Belə bir modelin reallaşdırılması gedişində müxtəlif tədqiqat metodlarından istifadə etdik.

Ali təhsil müəssisəsindəki mərhələdə:

- diaqnostika üsulları: ibtidai sinif müəlliminin peşə keyfiyyətlərinin öyrənilməsi, gələcək müəllimin təhsil müəssisələrində tərbiyə işinin təşkilinə hazırlanmasının öyrənilməsi üsulları;

- fəaliyyətin təşkili, keyfiyyətlərin formalaşdırılması üsulları: gələcək müəllimlərin tərbiyə işinə hazırlanmasının təşkili üzrə əlaqəli proqramların hazırlanması, ibtidai sinif müəlliminin fəaliyyət xüsusiyyətləri, onların peşə əhəmiyyətli keyfiyyətləri haqqındda söhbətlər, gələcək müəllimlərin tərbiyə işinə hazırlanması üzrə proqram tədbirlərinin həyata keçirilməsi, qarşılıqlı dərs dinləmələri, təcrübə zamanı təşkil edilən sinifdənxaric tədbirlərin fərdi və qarşılıqlı təhlili və s.;

- nəzarət üsulları: testləşdirmə, anketləşdirmə, sosial tədqiqatlar, gələcək müəllimlərin tərbiyə işinə hazırlanması səviyyəsinin təhlili.

İxtisasartırma mərhələsində:

- diaqnostika üsulları: peşəyə yiyələnmənin öyrənilməsi, ibtidai sinif müəlliminin peşə adaptasiyası; anketlər, testlər, praktik fəaliyyətin nəticələrinin təhlili və s.

- şəxsi keyfiyyətlərin formalaşdırılması üsulları: ibtidai sinif müəlliminin fəaliyyət xüsusiyyətləri, onun peşə keyfiyyətləri haqqında söbətlər;

- fəaliyyətin təşkili üsulları: müxtəlif formada tədris məşğələlərinin keçirilməsi, ixtisasartırma üzrə giriş, dövrü, və yekun tədbirlərinin təşkili, attestasiya keçirilməsi və s.;

- nəzarət üsulları: pedaqoji ustalığın formalaşdırılması üzrə yaradıcı proqramın hazırlanması;

Öyrənilən hər bir mərhələdə qarşıya qoyulmuş məqsədə çatmaq üçün müxtəlif vasitələrdən istifadə edilmişdir.

Ali təhsil müəssisəsindəki mərhələdə:

- gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının təşkili üzrə əlaqəli proqramlar, ən qabaqcıl müəllimlər haqqında videofilmlərin göstərilməsi, dərslərin, sinifdənxaric tədbirlərin dinlənilməsi və müzakirəsi;

İxtisasartırma mərhələsində:

- videomaterialların nümayişi, qabaqcıl təcrübənin öyrənilməsi, tərbiyə problemləri ilə bağlı monoqrafiyaların və müasir tərbiyə texnologiyalarının öyrənilməsi.

Müəllimlərin tərbiyə işinə hazılanması səviyyəsinin iki mərhələdə müəyyənləşdirilməsi üçün biz sosial, peşə və şəxsi meyarları da üzə çıxardıq və onlar aşağıdakı xüsusiyyətlərlə səciyyələnirlər:

Ali təhsil müəssisəsindəki mərhələdə:

- yüksək mədəni tədris səviyyəsi;

- öyrənilən biliklərin gələcək peşə fəaliyyəti ilə əlaqəsi, sinif rəhbəri fəaliyyətinin xüsusiyyətlərinə aid biliklərə yiyələnməsi;

- şəxsiyyətin humanist yönümlü, pedaqoji peşəyə müsbət münasibəti.

İxtisasartırma mərhələsində:

- özünüinkişaf və özünütəkmilləşdirmə qabiliyyəti;

- innovasiya texnologiyaları əsasında ibtidai sinif müəlliminin işindəki peşəkarlığı;

- özünüdərkə səy göstərməsi.

Eksperimentə Bakı Slavyan Universitetinin pedaqoji fakültəsinin müxtəlif kurslarında oxuyan 170 nəfər tələbə cəlb edilmişdi.

Təhsildən sonrakı mərhələdə aparılan eksperimentə ümumtəhsil məktəblərinin 50 nəfər müəllimi cəlb edildi. Tədqiqatın eksperimental hissəsində biz gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının səmərəsinin yoxlanılması meyarlarını və gələcək müəllimlərin tərbiyə işinə hazırlanmasının göstəricilərini müəyyənləşdirdik.

Meyarın qiymətləndirilməsi və gələcək müəllimlərin hazırlanmasının göstəriciləri 5 ballıq sistem əsasında aparıldı və onun səviyyə və dərəcəsini əks etdirdi: 1-dən 2-yə qədər – aşağı göstərici, 3 – orta göstərici, 4 – ortadan yuxarı, 5 – yüksək göstərici. Hazırlıq dərəcəsinə isə səviyyə göstəricisi çərçivəsində baxıldı.

Gələcək müəllimlərin tərbiyə işinə hazırlaşması meyarlarının səviyyə göstəricilərinin dəyişməsini təhlil edərək, 3 səviyyə fərqləndirdik: yüksək, orta və aşağı.

Hazırlanmanın yüksək səviyyəsi gələcək tərbiyəçi və müəllimlərdə ümumi humanitar və sosial-iqtisadi istiqamətlərdə dərin nəzəri biliklər, tərbiyə nəzəriyyəsi və metodikasını bilməsi, müəllimin fəaliyyətini tam yerinə yetirməsi ilə bağlı bacarıq və vərdişlərinin olması, tərbiyə işinin təşkili ilə bağlı tələbatının mövcudluğu və müəllimin bir tərbiyəçi kimi parlaq şəxsiyyət göstəricilərinə malik olması ilə səciyyələnir.

Hazırlanmanın orta səviyyəsi gələcək ibtidai sinif müəllimlərində ümumi humanitar və sosial-iqtisadi istiqamətli dərin və xüsusi nəzəri biliklərin, tərbiyə nəzəriyyəsi və metodikasını bilməsi, sinif müəlliminin fəaliyyəti ilə bağlı vəzifələrin qismən yerinə yetirilməsi üçün bacarıq və vərdişləri, tərbiyə işinin müəyyən növlərinə marağın olması və müəllimin bir tərbiyəçi kimi şəxsi göstəricilərinin lazımi qədər olmaması ilə səciyyələnir.

Hazırlanmanın aşağı səviyyəsi gələcək ibtidai sinif müəllimlərində ümumi humanitar və sosial-iqtisadi istiqamətli nəzəri biliklərin ümumi əsaslarını, tərbiyə metodikası və nəzəriyyəsini bilməsi,

tərbiyə vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar bir neçə xüsusi praktik bacarıqların olması ilə, tərbiyə işinə laqeyd münasibət və müəllimin bir tərbiyəçi kimi şəxsiyyət göstəricilərinə malik olmaması ilə səciyyələnir.

Eksperimentlərin müəyyən mərhələsində biz aşağıda göstərilənləri də öyrənməyə müvəffəq olduq:

- müəllimin mədəniyyəti (savadlı olması, dünyagörüşü, erudisiyası), hüquq mədəniyyəti (təlim-tərbiyə prosesinin təşkilinə dair hüquqi-normativ sənədləri bilmək), psixoloji bilikləri, nitq texnikası və mədəniyyəti (ümumi nitq savadı, nitqin emosional ifadəsi);

- tələbə və müəllimə tərbiyə işinin təşkili üçün vacib bilikləri (tərbiyə işinin nəzəriyyə və metodikasını, müxtəlif növ təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə müasir baxışları), şəxsiyyətin inkişafının pedaqoji və psixoloji əsaslarını (uşaq fiziologiyası və psixologiyasını) bilmək vacibdir.

- pedaqoji bacarıqlar:

- a) qnostik bacarıqlar – öz peşə səlahiyyətlərini yüksəltmək, peşə yüksəlişinin perspektivlərini müəyyənləşdirmək, həmkarlarının təcrübəsini öyrənmək və yenilikləri əldə etməyə səy göstərmək, yaradıcılıq vasitələrinə yiyələnmək;

- b) layihələşdirmə bacarıqları – sinfin tərbiyəedici sistemini modelləşdirmək, tərbiyəvi təsirlərdə daha səmərəli üsul, forma və vasitələr tapmaq, tərbiyə işini təlimin məqsəd və vəzifələrinə uyğun qurmaq;

- c) kostruktiv bacarıqlar – tərbiyənin daha səmərəli üsul və formasının seçilməsi, şagirdlərin hazırlıq səviyyəsi və xüsusiyyətlərini nəzərə almaqla lazımi materialların seçilməsi, qarşıya çıxa biləcək çətinlikləri əvvəlcədən görmək, ümumi, qrupla və fərdi iş formalarından uyğun olanını seçə bilmək;

ç) təşkilatçılıq bacarıqları – sinif kollektivinin təşkili və bu kollektivin işkişaf dinamikasını nəzərə almaqla fəaliyyətin məqsədyönlü surətdə idarə edilməsi, qarşıya qoyulmuş məqsədə çatmaq üçün özünün və şagirdlərin fəaliyyətinin təşkili; şagirdlərin qrup,

fərdi və kollektiv fəaliyyətini səmərəli şəkildə əlaqələndirilməsi, sinifdənxaric iş üzrə nəzərdə tutulmuş planların koordinasiyası, qiymətləndirilməsi və həyata keçirilməsi;

d) kommunikativ bacarıqlar – ünsiyyət zamanı özünə və ünsiyyətdə olduğu insana müsbət münasibət, empatik anlaşma (ünsiyyət yaradılan insanın mövqeyi, vəziyyəti və hislərini başa düşmək), səbr nümayiş etdirmək və ünsiyyətin yekununu təhlil etmək, ünsiyyətin nəticələrini əvvəlcədən başa düşmək.

- müəllimin əsas peşə keyfiyyətləri: pedaqoji məqsədyönlülük, intuisiya, nikbinlik, şərh vermək, refleksiya;
- müəllimin şəxsiyyətinə aid keyfiyyətlər: öz peşəsinə məhəbbət, məsuliyyət, vicdanlı olmaq, tərbiyə işinə yaradıcı yanaşma;
- müəllimin xarakterinə aid keyfiyyətlər: təmkinlilik, tələbkarlıq, ədalət, mərifət, yumor hissi, unsiyyətcillik, həyatsevərlik, nikbinlik, xeyirxahlıq, səmimiyyət;
- müəllimin pedaqji qabiliyyətləri: məqsədyönlü hafizə, nitqin ifadəli və inandırıcı olması, təxəyyülün inkişafı və s.

Eksperimentin ilk mərhələsinin vəzifəsi gələcək məllimlərin təhsil müəssisələrində tərbiyə işinin təşkilinə hazırlanmalarının ilkin səviyyəsini öyrənmək idi. Bunları nəzərə alaraq biz diaqnostik tədqiqat üsullarından istifadə etdik; müşahidə, anketləşdirmə, intervü, test, fərdi və qrup halında söhbət, məsləhətlər, praktik fəaliyyətin nəticələrinin təhlili və s.

Eksperimentin həyata keçirilmə mərhələsində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması proqramı tərtib edildi və təcrübədə yoxlanıldı. Bu proqramı həyata keçirərkən müxtəlif iş formaları və üsullarından istifadə edildi. Seminar məşğələlərinin təşkilində müxtəlif səviyyəli tapşırıqlar, buraxılış işlərinin yazılması, işgüzar oyunlar, pedaqoji-psixoloji təlim-məşq, müxtəlif növ təlim-tərbiyə müəssisələrində praktik məşğələlərin keçilməsi və s.

Beləliklə, yuxarıda deyilənlərin təhlili bizə onu deməyə əsas verir ki, ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması təhsilin hər bir mərhələsində məqsədyönlü surətdə həyata keçirilə bilər.

**Fasiləsiz pedaqoji təhsil sistemində tələbə və müəllimlərin tərbiyəvi fəaliyyətə hazırlanmasının təcrübəyönümlü modeli.**

***Şək. 2.1***

| **Modelin komponent-ləri** | **Tələbələr** | **Müəllimlər** |
|---|---|---|
| **Məqsədlər:** | | |
| sosial | Gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının təşkili. | Yeni şəraitə adaptasiya, müəllimlərin tərbiyə işini, onun sosial və şəxsi əhəmiyyətini dərk etməklə, motivlərin və dəyərləndirici münasibətlərin əsaslandırılması. |
| didaktik | Dövlət təhsil standartlarına uyğun nəzəri-praktik biliklərin verilməsi, bacarıq və vərdişlərin aşılanması, təlim-tərbiyə müəssisələrinin təşkili. | Nəzəri biliklərə və praktik bacarıqlara əsaslanaraq peşə təlabatları və ehtiyaclarının yüksək təminatına nail olunması, ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının vacibliyi və onun real səviyyəsi arasındakı ziddiyyətlərin aradan qaldırılması. |
| psixoloji | Tələbələrin özünü dərk etməsinə və özünü təkmilləşdirməsinə kömək edən “Mən obrazı”nın öyrənilməsi, gələcək ibtidai sinif müəlliminin peşə əhəmiyyətli keyfiyyətlərinin formalaşdırılması. | İbtidai sinif müəllimi üçün özünütəhsilə və ixtisasartırmaya şəraitin yaradılması. |

| | | |
|---|---|---|
| tərbiyəedici | Gələcək peşə fəaliyyətinə məsuliyyətli münasibətin formalaşdırılması. | Müəllimin peşəsinə müsbət emosional münasibətin tərbiyə edilməsi, ibtidai sinif müəlliminin əldə etdiyi bilik və bacarıqlarını təcrübədə həyata keçirməyə hazırlanması. |
| **Vəzifələr:** | | |
| Öyrədici | Pedaqoji-psixoloji, metodoloji, xüsusi bilik, bacarıq və vərdişlərin öyrədilməsi. | İbtidai sinif müəlliminin peşə fəaliyyəti sistemində özünütəhsillə məşğul olmasına, metodiki və texnoloji keyfiyyətlərinin formalaşdırılmasına kömək edilməsi. |
| inkişafetdirici | İbtidai sinif müəlliminin vacib şəxsi və peşə keyfiyyətlərinin formalaşdırılmasına, peşə təcrübəsinin sınaqdan keçirilməsinə şərait yaradılması. | Pedaqoji ustalığın təkmilləşdirilməsi, təhsil müəssisələrində tərbiyə sistemlərinin yaradılması və inkişafı təcrübəsinin öyrənilməsi. |
| tərbiyəedici | Ali təhsil müəssisələrinin təlim-tərbiyə işlərinə qoşulması, şəxsiyyətin humanist istiqamətlərinin formalaşdırılması və müsbət peşə keyfiyyətlərini stimullaşdırılması. | Yeni tərbiyə texnologiyalarının müdafiə və inkişaf etdirilməsi: dəyər oriyentasiyasında düzəlişlərin aparılması. |

| Mərhələlər üzrə fəaliyyətin məzmunu: | | |
|---|---|---|
| I mərhələ-eksperimental axtarış mərhələsi | Təhsil müəssisələrində gələcək ibtidai sinif müəlliminin peşə fəaliyyətinə hazırlanması işinin əlaqələndirilməsi. | Peşəyə dərindən yiyələnmə, təcrübəli ibtidai sinif müəllimlərinin fəaliyyətini müşahidə etmə, nəzəri biliklərin təcrübədə tətbiqi. |
| II mərhələ-müəyyənedici eksperiment | Gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması prosesində dinamik dəyişikliklərin öyrənilməsi və təhlili. | İbtidai sinif müəlliminin öz fəaliyyətinə münasibətindəki dəyişiklikləri öyrənməsi, peşəyə dair elmi-tədqiqat üsullarını bilməsi, özünün və həmkarlarının təcrübəsinin ümumiləşdirilməsi, təkmilləşdirilməsi, istifadə və tətbiq edilməsi. |
| III mərhələ-formalaşdırıcı eksperiment | İbtidai sinif müəlliminin ustalığa nail olmasının təşkili üçün pedaqogika fənni üzrə xüsusi kursların, təcrübəli müəllimlərlə, məktəb direktoru ilə görüşlərin təşkili proqramlarının hazırlanması. | İbtidai sinif müəlliminin özünütəhsili və özünütəkmilləşdirmə işinin təşkili üzrə seminarlar, məsləhət, işgüzar oyun, pedaqoji-psixoloji təlim-məşq, dəyirmi masa və s. keçirilməsi. |

| Formaları: | | |
|---|---|---|
| təlim-tərbiyə prosesinin təşkili | Mühazirə, seminar, metodiki praktikumlar, fərdi və qrup iş üzrə məsləhət saatı, pedaqoji situasiyaların modellərinin tətbiqi, pedaqoji təcrübə. | İşgüzar, təşkilati-fəaliyyət oyunları, elmi-praktik konfranslar, sosial-pedaqoji təlim-məşq, məsləhət saatı, müxtəlif təhsil müəssisələrində təcrübənin təşkili və s. |
| elmi-tədqiqat prosesinin təşkili | Elmi-praktik konfranslar, kurs işləri və diplom layihələrinin TETİ-nin tapşırıqlarının yerinə yetirilməsi və müdafiəsi, hesabat və fərdi tapşırıqlar. | Təcrübəli müəllimlərin iş təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, məktəbin tələbatlarına uyğun elmi-tədqiqat işlərinin yerinə yetirilməsi, pedaqoji qiraət saatının keçirilməsi, problem-seminarların təşkili və s. |
| təlimdənkənar fəaliyyətin təşkili | Peşə özünütəyini ilə bağlı təlim-tərbiyə müəssisələri ilə birlikdə işin təşkili, maraqlar üzrə klubların, yaradıcılıq təşkilatlarının inkişaf etdirilməsi. | "Təhsil və mədəniyyət" adlı fakultativ kurs, peşə maraqları üzrə klublar, qeyri-formal ünsiyyətin təşkili və s. |

| Üsullar: | | |
|---|---|---|
| diaqnostika | İbtidai sinif müəlliminin peşə keyfiyyətlərinin öyrənilməsi, gələcək müəllimin tərbiyə işinə hazırlanması üsulları. | Peşəyə yiyələnməyin üsulları, ibtidai sinif müəlliminin adaptasiyası, anket, test, praktik fəaliyyətin nəticəsinin təhlili. |
| şəxsi keyfiyyətlərin formalaşdırıl ması | Gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması üzrə proqramların hazırlanması. | İbtidai sinif müəlliminin fəaliyyət xüsusiyyətləri, onun peşə keyfiyətləri haqqında söhbətlərin təşkili. |
| fəaliyyətin təşkili | Gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması üzrə proqramların həyata keçirilməsi, qarşılıqlı dərs dinləmələri, pedaqoji təcrübə zamanı sinifdənxaric tədbirlərin təhlili. | Müxtəlif formada tədris məşğələlərinin keçirilməsi, ixtisasartırma üzrə giriş, dövrü, yekun tədbirlərin təşkili, attestasiyanın keçirilməsi. |
| nəzarət üsulu | Testləşdirmə, anketləşdirmə, sosioloji tədqiqatlar, gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması səviyyəsinin təhlili. | Pedaqoji ustalığın formalaşdırılması üzrə proqramın hazırlanması. |

| | | |
|---|---|---|
| | Gələcək ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının təşkili üzrə əlaqəli proqramların hazırlanması, qabaqcıl müəllimlər haqqında videofilmlərin göstərilməsi, dərs və sinifdənxaric tədbirlərin dinlənilməsi və müzakirəsi. | Videomaterialların nümayişi, qabaqcıl müəllimlərin pedaqoji təcrübəsinin, tərbiyə problemləri üzrə monoqrafiyaların, müasir tərbiyə texnologiyalarının öyrənilməsi. |
| **Meyarlar:** | | |
| sosial meyarlar | Yüksək mədəni-tədris səviyyəsi. | Özünüinkişaf və özünütəkmilləşdirmə qabiliyyətlərinin inkişaf etdirilməsi. |
| peşə meyarları | Öyrənilən biliklərin gələcək peşə fəaliyyəti ilə əlaqəsi, ibtidai sinif müəlliminin fəaliyyətinin xüsusiyyətlərinə aid biliklərə yiyələnmə. | İnnovasiya texnologiyaları əsasında ibtidai sinif müəlliminin işindəki peşəkarlığın artırılması. |
| şəxsi meyarlar | Şəxsiyyətin humanist yönümlü, pedaqoji peşəyə müsbət münasibəti. | İbtidai sinif müəlliminin özünüdərkə səy göstərməsi. |

## 2.2. Ali təhsil müəssisələrində tələbələrin tərbiyəvi fəaliyyətə hazırlanması prosesinin təşkili

Bizim işləyib hazırladığımız model əsasında gələcək müəllimin tərbiyə işinə hazırlanması fasiləsiz pedaqoji təhsil sistemində 3 istiqamətdə həyata keçirilir:

- təlim-tərbiyə prosesinin təşkili (nəzəri və praktik hazırlıq);
- gələcək müəllimlərin elmi-tədqiqat işi, təlim və istehsalat təcrübəsi;
- təlimdənkənar vaxtlarda fəaliyyətin təşkili.

Gələcək ibtidai sinif müəlliminin universitetdə hazırlanması üçün tərbiyə işinə marağı müəyyənləşdirən şəxsiyyətyönümlü yanaşmanın əsas mahiyyətini əks etdirən təlim-tərbiyə prosesinin subyektləri arasında qarşılıqlı münasibətlərin yeni xarakterini də nəzərə almaq vacibdir.

Şəxsiyyətyönümlü yanaşma problemi pedaqoji-psixoloji ədəbiyyatda geniş, tam və dolğun şəkildə öz əksini tapmışdır (75; 104).

Təlimdə şəxsiyyətyönümlü yanaşma dedikdə, biz müəllim və tələbənin inkişaf və şəxsi potensialının üzə çıxarılmasına kömək edən münasib şəraitin yaranmasına istiqamətlənmiş qarşılıqlı münasibətləri başa düşürük. Bu yanaşma təlim-tərbiyə prosesində müəllimin rolunu müəyyənləşdirir, onun fəaliyyətin fəal subyekti olduğunu bildirir, nəticədə isə subyekt-subyekt münasibətlərinin yara-nmasını əks etdirir. Belə yanaşmanı fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanması prosesində vacib hesab edirik. Bu yanaşma həmçinin gələcək ibtidai sinif müəlliminin hazırlıq səviyyəsinin göstəriciləri və meyarlarının 3 səviyyədə (sosial, peşəkarlıq və şəxsiyyət) müəyyənləşdirilməsinə imkan verir.

Müasir dövrdə Respublikamızda ibtidai sinif müəlliminin hazırlanması müxtəlif təhsil müəssisələri tərəfindən həyata keçirilir: pedaqoji universitetlər, müəllimlər institututları, pedaqoji kolleclər bə pedaqoji məktəblər. Tədqiqat nöqteyi-nəzərindən ali və orta ixtisas təhsili üzrə Dövlət təhsil standartlarını təhlil etməyi vacib hesab etdik. Dövlət təhsil standartları müxtəlif təhsil müəssisələrində hə-

yata keçirilir və peşə hazırlığının bütün istiqamətlərini əks etdirir, lakin saatların miqdarı və məzmunu fərqli olur.

İbtidai sinif müəlliminin keyfiyyətli hazırlığının metodoloji əsasını təlimin hamı üçün eyni olan baza və variativ məzmunu təşkil edir. Təhsilin baza məzmunu ixtisasından asılı olmayaraq bütün gələcək müəllimlərin fundamental bilikləri mənimsəməsini təmin edir, onlarda pedaqoji təfəkkürü inkişaf etdirir və daha fəal peşə fəaliyyətinə ruhlandırır. Təhsilin variativ məzmunu isə gələcək müəllimin peşəkar və eyni zamanda şəxsiyyət kimi formalaşması imkanlarının genişlənməsinə xidmət edir.

Tədqiqatın gedişində ali təhsil müəssisələrində gələcək müəllimlərin tərbiyə işinə hazırlanması zamanı xüsusi və əlavə fənlərin tədrisi imkanlarını müəyyənləşdirmək üçün Dövlət təhsil standartlarını və tədris planlarını təhlil etdik. Normativ sənədlərin təhlili göstərdi ki, ali təhsil mərhələsinə xüsusi kursların əlavə edilməsi yalnız standartların variativ məzmunu çərçivəsində mümkündür.

Ali peşə təhsili üzrə Dövlət standartlarının təhlili göstərdi ki, müəllimlərin təkmilləşdirilməsi proqramı (2000-ci il) təhsil proqramı kimi özündə ümumi fənləri, ixtisasa aid fənləri (ali təhsil müəssisəsinə uyğun), seçmə fənləri, eləcə də fakültativ fənləri özündə birləşdirir.

Pedaqoji ixtisaslar üzrə əsas təhsil proqramı – ümumi, humanitar və sosial-iqtisadi fənlərin öyrənilməsini nəzərdə tutur.

Hazırlıq prosesində humanitar, ümumi ixtisas və pedaqoji-psixoloji fənlərin tədrisinə daha çox yer ayırılır.

Pedaqoqika fənni "Ümumi, humanitar və sosial-iqtisadi" fənn blokuna aid olub müəyyən mövzuların öyrənilməsini nəzərdə tutur.

Məsələn: Pedaqoqikanın predmeti, məqsədi, vəzifələri, üsulları.

Pedaqoqikanın əsas anlayışları: təhsil, tərbiyə, təlim, pedaqoji fəaliyyət, pedaqoji qarşılıqlı təsir, pedaqoji texnologiya, pedaqoji vəzifə.

Təhsil – ümumbəşəri dəyər kimi.

Təhsil – sosiomədəni hadisə və pedaqoji proses kimi.

Azərbaycan təhsil sistemi.

Fasiləsiz təhsilin məqsədi, məzmunu, strukturu, təhsil və özünü təhsilin vəhdəti.

Pedaqoji proses.

Təhsilin öyrədicisi, tərbiyəedici və inkişafetdirici vəzifələri

Pedaqoji prosesdə tərbiyə

Təlim fəaliyyətinin təşkilinin ümumi formaları: dərs, mühazirə, seminar, praktik və laboratoriya məşğələləri, disput, konfrans, imtahan, fakultativ məşğələ və məsləhət.

Pedaqoji prosesin təşkili, idarə olunma üsulları, tərz və vasitələri

Ailə pedaqoji münasibətlərin subyekti və şəxsiyyətin tərbiyəsi, eləcə də inkişafı üçün sosiomədəni mühit kimi

Təhsil sisteminin idarə olunması.

Ali peşə təhsili üzrə Dövlət təhsil standartı gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının nəzəri və praktik cəhətdən daha da dərinləşdirilməsinin vaciblliyini göstərir. Fikrimizcə, gələcək müəllimə tərbiyə işini öyrənməsinə yalnız yuxarıda qeyd olunmuş mövzular kömək göstərə bilməz, o, ixtisası üzrə bilik və bacarıqları daha çox xüsusi kurslarda əldə edə bilər.

İbtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə Dövlət təhsil standartını təhlil edərkən biz gələcək müəllimlərin praktik fəaliyyətləri üçün nəzəri cəhətdən hazırlığında məhz "Pedaqoqika" fənninin böyük imkanlara malik olduğunu qeyd etdik. Pedaqoqika kursu özündə müxtəlif sahələri birləşdirir: pedaqoji fəaliyyətə giriş, pedaqoqikanın ümumi əsasları, tərbiyə nəzəriyyəsi, təlim nəzəriyyəsi (didaktika) və metodikası, müqayisəli pedaqogika, təhsil və pedaqoji fikir tarixi, sosial pedaqogika, məktəbşünaslıq (təhsil sisteminin idarə olunması).

Pedaqoji təcrübənin təşkilinə verilən tələblərə sinif rəhbəri vəzifəsinin yerinə yetirilməsi, məktəb şagird təşkilatının orqanları ilə işin aparılması, şagirdlərlə tədris işinin frontal və fərdi formalarda təşkilinin öyrənilməsi də daxildir. Pedaqoji təcrübə prosesində pedaqoji bacarıqların mənimsənilməsi, sinif kollektivinin və ayrı-ayrı şagirdlərin öyrənilməsi üzrə işin aparılması, şagirdlərin yaş və fərdi

xüsusiyyətlərini nəzərə almaqla təlim-tərbiyə işinin planlaşdırılması onların tərbiyə, özünütərbiyə prosesinə rəhbərliyin həyata keçirilməsi (tərbiyə işinə kompleks yanaşma prinsipinə əsaslanaraq şagird - uşaq kollektivi münasibətlərində tərbiyəvi məsələlərin aşkarlanması və həll edilməsi, tərbiyə metodları və pedaqoji təsir üsullarının, tərbiyəvi işin müxtəlif forma və növlərinin həyata keçirilmə metodikasına yiyələnmə ilə birgə tətbiq edilməsi), valideynlərlə işin aparılması, qabaqcıl pedaqoji və şəxsi iş təcrübəsinin ümumiləşdirilməsi və təhlil edilməsi vacib hesab edilir.

Bu standartlarda gələcək ibtidai sinif müəllimi üçün vacib sayılan praktik bacarıqlara olan tələblər də aydın ifadə olunur, onların reallaşdırılması prosesində tərbiyə problemləri ilə bağlı nəzəri mövzular daha dərindən öyrənilir.

Gələcək ibtidai sinif müəlliminin tərbiyəçi müəllim kimi pedaqoji-psixoloji biliklərə, bacarıqlara yiyələnməsi üçün pedaqoji təhsil müəssisələrində "tərbiyəçi" ixtisası üzrə fənlərin: tərbiyənin əsasları, nəzəriyyəsi, tərbiyə işinin metodikası və texnologiyasının tədrisi vacib hesab edilir.

Beləliklə, nəticə kimi demək olar ki, ali peşə təhsili üzrə Dövlət təhsil standartları gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının nəzəri və praktik hazırlığını təkmilləşdirməyə istiqamətlənmişdir. Tələbənin ali təhsil müəssisələrində təhsili eyni zamanda elmi-tədqiqat yönümlüdür. Bu zaman nəzərə almalıyıq ki, ali təhsil müəssisəsi məzunu möhkəm nəzəri əsaslara malik biliklərə yiyələnir. Lakin gələcək müəllim pedaqoji peşə fəaliyyətinin yeni-yeni tələblərinə uyğunlaşmaq üçün üçün təhsil dövründə qazandıqları ilə kifayətlənməməli, bütün həyatı boyu müstəqil surətdə elmi-təcrübi xarakterli məlumatlar əldə etməlidir.

Biz Bakı Slavyan Universitetinin pedaqoji fakültəsinin nümunəsində tərbiyə işinin təşkilinə hazırlıq üzrə onun tərbiyə-təhsil prosesinin imkanlarını göstərməyə cəhd etdik. 4 illik təhsil müddətində bütün tələbələr məcburi fənləri, xüsusi kursları və seçmə fənləri öyrənirlər. Bu tədris fənlərinin siyahısı bilik, bacarıq və vərdişlərə verilən tələblərə və müasir ibtidai sinif müəlliminin təfəkkürünə uy-

ğun tərtib edilir. Bu tədris fənləri sırasında – humanitar fənlər (fəlsəfə, politologiya, ümumi tarix, Azərbaycan tarixi), pedaqoji-psixoloji fənlər (ümumi və yaş psixologiyası, ümumi pedaqogika, ibtidai təhsilin pedaqogikası, müqayisəli pedaqogika, pedaqoqikanın tarixi, etika, pedaqoji təcrübə və s.) xüsusi fənlər (iqtisadiyyat, coğrafiya) daxildir.

Fənlərin tədrisi prosesində tələbələrdə pedaqoji fəaliyyətə sonsuz maraq, alınmış bilikləri şagirdlərlə əlaqə zamanı pedaqoji təfəkkürün inkişafında istifadə etmək bacarığı formalaşdırılır. Təcrübədə isə bu nəzəri biliklər praktik məsələlərin həllində onlara kömək edir. Gələcək ibtidai sinif müəlliminin hazırlığı prosesində müəyyən prinsipə – pedaqoji nəzəriyyə və təcrübə arasında qarşılıqlı əlaqə, pedaqoji-psixoloji fənlərin digər fənlərin tədrisi metodikaları ilə əlaqəsi prinsipinə əməl etmək vacibdir.

Eksperimentdən əvvəl ali təhsil müəssisələrində müəllimlərin tərbiyə işinə hazırlanmasına mane olan bir sıra amilləri üzə çıxardıq:

– bir çox kafedraların fəaliyyətində tərbiyəçi hazırlığı sistemi yox idi, belə ki, hər bir fənn müəllimi gələcək ixtisasın inkişafı üçün öz tədris etdiyi fənn çərçivəsində şərait yaradırdı;

– kafedraların iclaslarında fənlərin tərbiyəedici vəzifələri ilə əlaqədar məsələlər təsadüfi hallarda müzakirə edilirdi;

– Bakı Slavyan Universiteti və digər universitet müəllimlərinin çoxu müxtəlif tədris fənlərinin universallığına istiqamətlənmişdir;

– tələbələrin əksəriyyəti ümumtəhsil, ümumelmi və pedaqoji-psixoloji fənlərin onların gələcək fəaliyyəti üçün əhəmiyyətini o qədər də başa düşmürdülər. Əslində isə hər hansı biliklərin mənimsənilməsində idrakı fəallığın və maraqların səviyyəsi fənnin peşə fəaliyyəti üçün əhəmiyyətini dərk etməkdən asılıdır.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasında çətinlikləri aradan qaldırmaq məqsədi ilə eksperiment prosesində biz ixtisasından asılı olmayaraq hər bir müəllimə gələcəkdə sinif müəlliminin fəaliyyətinin uğurlu olması üçün vacib bilik, bacarıq və vərdişlərə yiyələnsinlər və şəxsi keyfiyyətlərini inkişaf etdirə bilməci üçün şərait yaratdıq.

Biz belə hesab edirik ki, pedaqoji peşə hazırlığı sisteminin parametrlərindən biri də pedaqoqika və psixologiya fənlərinin tədrisi zamanı qazanılmış biliklərdir. Bu, ibtidai sinif müəllimlərinin peşə hazırlığının əsas göstəricisidir. Hazırlıq zamanı bu göstəricisilər gələcək ibtidai sinif müəllimi üçün məcburi hesab edilməlidir.

Bakı Slavyan Universitetinin pedaqoqika-psixologiya və ibtidai təhsil kafedralarında müəllimlərin təlim-tərbiyə müəssisələrində tərbiyə işinə hazırlanması üzrə məqsədyönlü, sistematik və kompleks iş həyata keçirilir.

Tərbiyə işinə gələcək ibtidai sinif müəllimlərinin hazırlanması nəzəri kursun öyrənilməsindən başlayır. Bu onlara peşə fəaliyyətinin əsas xüsusiyyətləri ilə tanış olmağa, öz pedaqoji mövqeyini müəyyənləşdirməyə imkan verir. Nəzəri hazırlıq zamanı bir çox nəsillərin pedaqoji təcrübəsi ilə tələbələri tanış etmək, şəxsiyyətin inkişafında pedaqoji problemlərin həlli üçün bu təcrübənin məqsədəuyğunluğu və faydalı olmasını çatdırmaq nəzərdə tutulur.

İbtidai sinif müəlliminin peşə fəaliyyətinin əsas məqsədi şəxsiyyətin inkişafı və formalaşdırılması olduğu üçün, inkişaf prosesinin pedaqoji, psixoloji, fizioloji, fəlsəfi əsaslarını bilmədən hər hansı bir təhsil müəssisəsində təlim-tərbiyə prosesini mükəmməl qurmaq mümkün olmaz.

Pedaqoji-psixoloji hazırlığın nəzəri kursu, xüsusi kursu vaxtı ilə "Pedaqogikaya giriş" fənninin tədrisindən başlayırdı. Bu tələbələrin peşə hazırlığına giriş fənni kimi ali təhsilin ilk mərhələsində gələcək ibtidai sinif müəllimlərini pedaqoji peşənin səciyyəvi xüsusiyyətləri və ona hazırlıq sistemi, fəaliyyət göstərəcəkləri təhsil müəssisələri ilə tanış etməyə, gələcək müəllimlərin peşəyə uyğunlaşmağa kömək etməklə onların peşəkar, şəxsiyyət kimi inkişaf etdirməyə, özünü və tərbiyəsini stimullaşdırmağa xidmət edirdi.

"Pedaqoqikaya giriş" fənninin mövzuları üzrə məşğələlər pedaqoqika-psixologiya və ibtidai təhsil kafedralarının professor-müəllim heyəti tərəfindən həyata keçirilirdi.

Mənimsənilmiş nəzəri bilikləri möhkəmlətmək üçün tələbələr müxtəlif məktəblərə getmiş və orada təlim-tərbiyə prosesinin təşkili

təcrübəsi ilə tanış olmuş, məktəbin rəhbər heyəti, sinif rəhbərləri, fənn müəllimləri, məktəbin tədris planı və proqramları ilə tanış olmuşlar.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasının həyata keçirilməsi planına "Ümumi psixologiya" kursu ətrafdakı insanların istəklərini, bacarıqlarını və eləcə də şəxsiyyətin xüsusiyyətlərini araşdırmağa imkan verirdi. Tələbələrə öz imkan, ləyaqət və qüsurlarını öyrənmək, özünü şəxsiyyət kimi psixoloji cəhətdən düzgün xarakterizə etmək bacarığı qazanmaq vacibdir.

Gələcək ibtidai sinif müəlliminin uşağa psixoloji kömək göstərməsi, onun psixi inkişafını korrektə etməsi, şagird və onun valideynlərinin psixoloji vəziyyətini nəzərə alaraq məsuliyyətli qərar qəbul etməsi, şagirdin simpatiya və antipatiyası, inam və zövqünə düzgün təsir göstərməsi üçün "Yaş psixologiyası"nı bilmək vacib şərtdir. Beləliklə, müəllimin bütün gələcək fəaliyyəti ümumi, sosial və yaş psixologiyası fənlərindən aldığı biliklərə əsaslanır.

"Ümumi pedaqogika" fənninin öyrənilməsi prosesində məktəbli şəxsiyyətinin təlim, təhsil, tərbiyəsinə əsaslanan inkişafının reallaşdırılması aşağıdakı hazırlıq mərhələlərində həyata keçirilir:

- propedevtik hazırlıq ("İnkişaf və tərbiyə", "Şəxsiyyətin inkaşafında yaş xüsusiyyətləri");

- əsaslı pedaqoji problemlərin öyrənilməsi əsasında müəllimin ümumpedaqoji, invariativ və baza hazırlığı ("Ümumi pedaqoqika", "Təhsil və pedaqoji fikir tarixi", "Pedaqoji etika" və s.);

- variativ, xüsusi pedaqoji hazırlıq (pedaqoqika üzrə seçmə fənlər, kurs işi, pedaqoji təcrübə, fərdi iş və s.).

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasına yönəlmiş pedaqoji bilik və bacarıqların əsas səviyyəsinin müəyyənləşdirilməsində ilkin xidmət kimi aşağıdakıları vacib hesab etdik:

- məktəbli şəxsiyyətinin tərbiyə prosesinin subyekti kimi qəbul edilməsi;

- tərbiyə fəlsəfəsinin dərindən başa düşülməsi məqsədinin (dar və geniş mənada) qarşıya qoyulması. Bu isə, öz növbəsində, tərbiyəvi inkişaf proseslərinin mahiyyətinin, ümumbəşəri mədəniyyətin

müəyyən tarixi və milli komponentlərinin insanın şəxsiyyət kimi formalaşmasına təsiri kimi başa düşülməsinə kömək edir;

- pedaqoji-psixoloji nəzəriyyənin pedaqoji təcrübə ilə əlaqəsinin öyrənilməsi, nəzəri və metodik məsələlərin əlaqələndirilməsi və onların təcrübə prosesində dərindən öyrənilməsi, nəzəriyyə və təcrübənin uzlaşdırılması;

- pedaqoji prosesin tamlığının təmin edilməsi, onun fizioloji, psixoloji, pedaqoji qanunauyğunluqlara müvafiq şəkildə həyata keçirilməsi.

Proqramın hər bir bölməsi tələbələrdə gələcək ibtidai sinif müəllimi kimi müəyyən pedaqoji bilik və bacarıqların inkişaf etdirilməsini nəzərdə tutur.

"Pedaqoji ustalığın əsasları" kursu öz məzmunu və tərtibi prinsipləri ilə səciyyələnir. Bu kursun məzmununa müxtəlif elmlərdən (pedaqoqika, psixologiya, ritorika, rejissorluq nəzəriyyəsi, dramaturgiya, tibb və s.) məlumatlar daxil edilmişdir. Bu, tələbələrdə peşəsinə aid bilik və bacarıqların, pedaqoji təsir texnikasının, şagirdlərlə qarşılıqlı əlaqənin formalaşmasına şərait yaradır.

Pedaqoji ustalığı şəxsiyyətin peşə fəaliyyətinin yüksək səviyyədə təşkilini təmin edə bilən kefiyyətlərinin məcmusu kimi dəyərləndirən müəlliflər (M.İ.Qubanova, V.H.Əliyev) əsasən gələcək müəllimlərin şəxsi və pedaqoji qabiliyyət, bacarıq və keyfiyyətlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirirlər.

Xüsusi kurs qarşılıqlı əlaqədə olan iki hissədən ibarətdir:

1. Pedaqoji texnika.
2. Tərbiyə və müəllimin tərbiyə işinin metodikası.

Məşğələlər mühazirə, söhbət, diskussiya, məşq, imitasiya oyunları, fərdi məşğələlərin təhlili və s. formalarda təşkil olunurdu. Pedaqoji texnika bölməsi üzrə məşğələlərdə tələbələrin sayı 10-15 nəfərdən, tərbiyə işinin metodikası üzrə məşğələlərdə isə tələbələrin sayı 20-25 nəfərdən artıq olmadıqda məşğələlər daha səmərəli keçirdi.

Xüsusi kursu aparan müəllimin məqsədi gələcək ibtidai sinif müəllimlərinin nəzəri biliklərini pedaqoji texnologiyaları ilə əlaqələndirməsinə, pedaqoji ustalığın elementlərinə yiyələnməsinə kö-

mək etmək idi. Bu zaman müəllimlər aşağıdakı vəzifələri yerinə yetirirdilər:

- tələbələrdə özünüdərk, refleksiya, özünütəkmilləşdirnməyə həvəs oyatmaq;
- tələbələri emosional və iradi özünütənzimləmə tərzi və üsulları ilə tanış etmək;
- tələbələri təsir və qarşılıqlı təsir texnikası və tərzləri ilə tanış etmək.

Nəticədə tələbələr müəllim şəxsiyyətinin vacib peşə keyfiyyətlərinin əsas xüsusiyyətlərini, özünütənzimləmənin üsul, tərz və texnikasını, təlim, təhsil, qarşılıqlı təsir, ibtidai sinif müəllimi və kiçik yaşlı məktəblilərin qarşılıqlı münasibətlərinin pedaqoji-psixoloji xüsusiyyətlərini, müəllim və ibtidai sinif şagirdlərinin tərbiyəedici münasibətlərinin reallaşdırılması texnologiyasını, müəllim və ibtidai sinif şagirdlərinin valideynləri ilə əməkdaşlığın səciyyəvi xüsusiyyətlərini və üsullarını öyrənirdilər.

Tələbələr xüsusi kursların tədrisindən sonra müəyyən bacarıqlara yiyələnmiş olurdular:

- özünü tənzimləmə, relaksasiya, autotreninq üzrə müxtəlif üsullar tətbiq etmək;
- şagirdlərə verbal və qeyri-verbal təsir texnikasına yiyələnmək;
- şəxsiyyətin formalaşması və şagird kollektivinin öyrənilməsi metodikasına yiyələnmək;
- dərsdənkənar vaxtlarda şagirdlərlə müxtəlif tədbirlərin birlikdə keçirilməsi metodikasına yiyələnmək;
- kiçik yaşlı məktəblilər və onların valideynləri ilə əməkdaşlığı həyata keçirmək.

"Təhsil və pedaqoji fikir tarixi" kursunun tədrisi zamanı tələbələr müxtəlif tarixi dövrlərdə təlim-tərbiyənin nəzəriyyə və praktikasının inkişafını öyrənirdilər. Bu fənn yalnız pedaqoji deyil, bir çox sosial-mədəni hadisələrin tarixi inkişafını əhatə edirdi. Başlıcası onu başa düşmək lazım idi ki, müasir təhsil sistemi çox uzun və mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Hər bir dövrdə təhsilin xarakteri və məzmunu məhsuldar qüvvələr və istehsal münasibətlərinin,

iqtisadiyyatın inkişafı, elm, texnika və mədəniyyətin səviyyəsi və tələbatları ilə müəyyənləşdirilmişdir.

Bu fənnin tədrisi zamanı müəllim müəyyən vəzifələrin həllinə çalışmalıdır:

- tələbələrdə ümumi mədəniyyət, dünyagörüşü, eləcə də pedaqogikanın əsaslarının formalaşdırılması;
- tələbələrin müxtəlif tarixi dövrlərdə təhsil və pedaqoji fikrin inkişaf ənənələri və qanunauyğunluqlarına dair biliklərin mənimsəməsi.

Bu fənnin öyrənilməsi prosesində tələbələrdə fəlsəfi, etnoqrafik, kulturoloji, etik, estetik və digər biliklərin sintezi reallaşdırılmış və onların izahedici və proqnozlaşdırma vəzifələri üzə çıxarılmışdır.

Bu fənn vasitəsi ilə təhsilin əvvəlki mərhələlərində pedaqogika və psixologiya üzrə tələbələrin əldə etdikləri bilik və bacarıqlar ümumiləşdirilmiş, pedaqoji-psixoloji fənlərin öyrənilməsinə yekun vurulmuşdur. Bu fənnin məqsədi həm də tələbələrdə pedaqoji etika üzrə ümumi elmi bilikləri genişləndirmək, pedaqoji estetikanın və etikanın yaranma və inkişaf tarixini nəzərə çatdırmaq, pedaqogika elminin mahiyyəti, məzmunu və əsas anlayışlar sistemini öyrənmək, gələcək müəllimlərdə yüksək əxlaqi mədəniyyətin və əxlaqi davranışın formalaşdırılmasına komək etmək, tələbələrin ibtidai sinif müəlliminin şəxsiyyətinə verilən mənəvi tələblərin, təhsil və pedaqoji fikir tarixinin, həmçinin pedaqoji etika və pedaqoji mədəniyyətin qarşılıqlı əlaqəsini dərindən başa düşməsinə kömək etməkdən ibarət olmuşdur.

Bu kursun öyrənilməsi nəticəsində tələbələr müxtəlif kateqoriyalardan olan insanlarla - uşaq və böyüklərlə pedaqoji ünsiyyət qurmaq, tərbiyə etdikləri uşaqlar və onların valideynləri ilə münasibət yaratmaq, uşaqların və böyüklərin əxlaqi tərbiyə səviyyəsini müəyyənləşdirmək, müsbət təcrübənin qazanılması prosesinə pedaqoji cəhətdən düzgün rəhbərlik etmək, pedaqoji nəzarətdən uzaq düşən uşaqlar və onların valideynləri ilə əlaqə yaratmaq və bu kimi digər biliklərə nail oldular.

Təlim fəaliyyətinə əlavə olaraq bizim tərəfimizdən pedaqoji praktikum da işlənib hazırlandı. Bu praktikumun məqsədi ilkin pedaqoji biliklərin – pedaqoji prosesin təşkili, pedaqoji fəaliyyətin müəllim tərəfindən layihələndirilməsi və nəticələrin proqnozlaşdırılması, pedaqoji fəaliyyət və müəllimin peşə əhəmiyyətli keyfiyyətləri haqqında biliklərin formalaşdırılmasıdır. Qarşıya qoyulmuş bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr öz həllini tapmalı idi:

- ibtidai sinif müəlliminin pedaqoji fəaliyyətinin əsas istiqamətləri olan öyrədici, tərbiyəedici, inkişafetdirici, təşkilatçılıq funksiyaları haqqında biliklərin əldə edilməsi üçün şərait yaratmaq;
- təlim-tərbiyə prosesində şagirdlərin fəaliyyətini fəallaşdırmağın üsulları və formaları ilə tələbələri tanış etmək və s.

Praktikum prosesində tələbələr bu mövzuları öyrənirdilər: «Müəllim və şagirdlərin kollektiv yaradıcılıq fəaliyyətinin təşkili», «Pedaqoji ünsiyyət üslubu», «Fərdi iş təlim-tərbiyə prosesində şagird fəaliyyətinin təşkili forması kimi».

Bu praktikumun tədrisi prosesində tələbələrdə ibtidai sinif müəlliminin fəaliyyəti haqqında peşə əhəmiyyətli biliklər formalaşdırılmış, müəllimin peşə keyfiyyətləri və praktik bacarıqları haqqında təsəvvürləri genişləndirimişdir.

“Sinif müəllimi – dərsdənkənar vaxtlarda şagirdlərin birgə fəaliyyətinin təşkilatçısı kimi” praktikumunun vəzifələri:

- tələbələrdə əsas pedaqoji bacarıqları – kommunikativ, təşkilatçılıq, yaradıcı və perseptiv bacarıqları formalaşdırmaq;
- tərbiyə işinin planlışdarılması və təşkili bacarığına yiyələnmək;
- pedaqoji ünsiyyət zamanı rol bölgüsünü düzgün müəyyənləşdirmək.

III kursda tədris olunan “Tərbiyə işinin təşkili metodikası” kursu tələbələrin pedaqoji təcrübə zamanı sinif rəhbəri vəzifələrini yerinə yetirməyə və təhsil müəssisələrində tərbiyə işinin təşkili üzrə peşə fəaliyyətinə hazırlanması forması idi.

Bu kursun məzmununu tərbiyə işinin elmi konsepsiyaları ilə tələbələri məlumatlandırmaq və planlaşdırmaya sistemli və variativ idarəetmənin vacib vəzifəsi kimi baxmaq təşkil edir.

Kurs üzrə keçirilən seminarlar bizə “emalatxana”nı xatırladır. Burada tələbələr nəzəri biliklərin qazanılması və praktik fəaliyyətdə fəal iştirak etmiş olurlar. Onlara aşağıda göstərilən mövzuların öyrənilməsi təklif olunur:

- sinif kollektivi ilə tərbiyə işinin sistemi, sinif kollektivinin tərbiyə işi konsepsiyası;
- sinif müəlliminin peşə vəzifələri;
- tərbiyə işinin planlaşdırılması, planlaşdırmanın formaları;
- şagird və sinif kollektivi obrazının modelləşdirilməsi;
- tərbiyəvi tədbir, onun məqsədi, vəzifələri, məzmunu və təhlili;
- sinifdənxaric işin formaları;
- bayramsayağı, kollektiv ünsiyyət formaları;
- kollektivin və şəxsiyyətin diaqnozlaşdırma metodikası;
- sürpriz, metodiki tapıntılar kabineti;
- müəllimin (sinif rəhbərinin) görkəmi;

Belə “emalatxana”da işləmək tələbələrə tərbiyə prosesini daim inkişafda olan bir sistem olduğunu dərk etməyə, eyni zamanda sistematiklik prinsipi əsasında tərbiyə prosesinin planlaşdırılması texnologiyasını işləyib hazırlamağa kömək etdi.

Planlaşdırma işində variativ-modul üsulundan istifadə onu modelləşdirmə, layihələşdirmə və pedaqoji hadisələri proqnozlaşdırma kimi üsul və vasitələrlə zənginləşdirir, müəllimə siniflə özünün xüsusi tərbiyəvi iş planını yaratmağa, müəyyən sosial-pedaqoji şəraitdə tərbiyəvi fəaliyyətin daha səmərəli yollarını müəyyənləşdirməyə kömək edirdi.

Hazırlanmış bu planlaşdırma alqoritmi sinif rəhbərinin özünəməxsus zəncirvari ardıcıl həyata keçirdiyi hərəkətlərin məcmusudur. Bu ardıcıllığın əsas həlqələri bunlardır:

- pedaqoji prosesin vəziyyəti və nəticələrinin pedaqoji təhlili, başqa sözlə, sinifdə tərbiyə işinin planlaşdırılmasında hərəkətlərin ardıcıllığı və müddətinin müəyyən edilməsi;
- sinif müəllimi tərəfindən sinfin görünüşü, onun fəaliyyəti və tərbiyəvi prosesin modelləşdirilməsi;
- kollektiv planlaşdırma;

- pedaqoji ideya və fikirlərin müəyyənləşdirilməsi, düzəliş aparılması, dəqiqləşdirilməsi, tərbiyə işi planının tərtib edilməsi.

Tələbələrin diqqəti "emalatxana"ların rəhbərləri tərəfindən sinif rəhbərinin 3 mərhələdə aparılan fəaliyyətinin təhlilinə cəlb edilir: hazırlıq mərhələsi, əsas mərhələ və yekun mərhələ. Beləliklə, sinif rəhbərinin peşə vəzifələrinin öyrənilməsi prosesində tələbələr hər bir mərhələdə onun işinin təşkili texnologiyasını öyrənmiş olurlar.

Fəaliyyət zamanı tələbələr belə bir nəticəyə gəldilər ki, hazırlıq mərhələsində sinif rəhbəri təhliledici fəaliyyətin həyata keçirilməsinə hazırlaşır, pedaqoji təhlilin məqsəd və predmetini müəyyənləşdirir, proqram və təhliledici fəaliyyətin meyar, forma və üsullarını işləyib hazırlayır, bu işdə tərbiyə prosesinin bütün subyektlərinin iştirakını nəzərə alır.

Sinif rəhbəri fəaliyyətinin əsas mərhələsində öz qüvvəsini əsasən tərbiyə işi haqqında məlumatların toplanılması və sistemləşdirilməsinə, pedaqoji fəaliyyətin nəticələrinin təhlili və qiymətləndirilməsinə, sinfin və şagirdlərin tərbiyəsində müsbət və mənfi cəhətlərin üzə çıxarılmasına, tərbiyə prosesində problem və ziddiyyətlərin müəyyənləşdirilməsinə, sinfin tərbiyə sisteminin inkişafını proqnozlaşdırmağa, sinif kollektivinin təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi üzrə təklif və nəticələrinin formalaşdırılmasına, başqasözlə, sinif kollektivinin məqsədinin müəyyənləşdirilməsinə yönəldir.

Yekun mərhələsində sinif rəhbəri öz təhliledici fəaliyyətini qiymətləndirir, təhlil nəticəsində əldə edilmiş məlumatlardakı faktiki və üslubu səhvləri aradan qaldırır və vacib düzəlişlər edir.

Bütövlükdə, bu kursun nəticələrinə görə tələbələr müəyyən biliklərə və bacarıqlara yiyələndilər:

-"sinif kollektivi" mövzusunun öyrənilməsi zamanı tərbiyə sisteminin nümunəvi konsepsiyasının hazırlanması bacarığı;

- "sinif kollektivi" mövzusunun tədrisindən sonra tərbiyə işinin planını özlərinin müəyyənləşdirdikləri tərbiyə sistemi konsepsiyasına əsaslanaraq hazırlamaq bacarığı;

- eyni kurs tələbələrin pedaqoji-psixoloji xasiyyətnaməsini hazırlamaq bacarığı;

- təhsil aldığı qrupun pedaqoji-psixoloji xasiyyətnaməsini hazırlamaq;

- sinifdənxaric tədbirlərin təşkili və keçirilməsi proqramını hazırlamaq;

- təklif olunmuş tərbiyəvi tədbiri təhlil etmək;

- sinif kollektivinin tərbiyəvi prosesini təhlil etmək;

- sinif kollektivinin tərbiyəvi iş sistemini planlaşdırmaq;

- şagird kollektivi və uşaq şəxsiyyətini öyrənmək;

- məqsəd və vəzifələrindən, məzmunundan asılı olmayaraq uşaqların yaş və fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını nəzərə almaqla müəyyən tərbiyəvi tədbirlərin və sinifdənxaric işin formasını müəyyənləşdirmək;

- iş yoldaşları ilə əməkdaşlıq münasibətlərini yaratmaq və s.

Gələcək ibtidai sinif müəllimlərinin hazırlanması prosesinin gedişində "Tərbiyə işinin təşkili metodikası" kursunun səmərəliliyini biz III kurs tələbələrində aşkar etdik.

Bu eksperimental iş iki mərhələdə aparıldı: kursun tədrisinə qədər və kursun tədrisindən sonra

Alınmış nəticələr 2.1 və 2.2 saylı cədvəllərdə öz əksini tapmışdır.

**III kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında "Tərbiyə işinin təşkili metodikası" kursunun səmərəlilik dərəcəsinin göstəriciləri (bal hesabı ilə).**

*Cədvəl 2.1*

| № | Göstəricilər | Kursun tədrisinə qədər | Kursun tədrisindən sonra |
|---|---|---|---|
| 1. | Şagird şəxsiyyətinin pedaqoji-psixoloji xasiyyətnaməsini hazırlamaq bacarığı | 1,7 | 4,0 |
| 2. | Sinif kollektivinin tərbiyə işi planının hazırlanması | 1,9 | 4,3 |

| | | | |
|---|---|---|---|
| 3. | Keçirilmiş tədbiri təhlil etmək | 1,9 | 4,5 |
| 4. | Qrupun pedaqoji-psixoloji xasiyyət-namәsini hazırlamaq bacarığı | 2,0 | 4,2 |
| 5. | Sinifdənxaric tədbirin təşkili və keçirilməsi proqramını hazırlamaq | 2,1 | 4,3 |

Cədvəldən göründüyü kimi, gələcək müəllimlərin hazırlıq prosesinin göstəriciləri "Tərbiyə işinin təşkili metodikası" kursunun tədrisindən və seminarların keçirilməsindən sonra yüksəlmişdir: şagird şəxsiyyətinin pedaqoji-psixoloji xasiyyətnaməsini hazırlamaq bacarığı 1,7-dən 4 bala, sinif kollektivinin tərbiyə işi planının hazırlanması 1,9 baldan 4,3 bala, keçirilmiş tədbirin təhlil edilməsi 1,9-dan 4,5-ə, qrupun pedaqoji-psixoloji xasiyyətnaməsini tərtib etmək bacarığı 2-dən 4,2 bala, sinifdənxaric tədbirin təşkili və keçirilməsi proqramını hazırlamaq 2,1-dən 4,3 bala qədər artmışdır.

**III kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında "Tərbiyə işinin təşkili metodikası" kursunun səmərəlilik dərəcəsinin səviyyəsi.**

***Cədvəl 2.2***

| № | Komponentlər | Səviyyələr | Eksperimentə qədər | | Eksperiment dən sonra | |
|---|---|---|---|---|---|---|
| | | | Sayı | % | Sayı | % |
| 1. | Sosial | Yüksək<br>Orta<br>Aşağı | 84<br>56<br>30 | 49,4<br>33<br>17,6 | 102<br>46<br>22 | 60<br>27<br>13 |
| 2. | Peşəkar | Yüksək<br>Orta<br>Aşağı | 57<br>77<br>36 | 33,5<br>45,3<br>21,2 | 122<br>36<br>12 | 71,8<br>21,2<br>7 |
| 3. | Şəxsiyyət | Yüksək<br>Orta<br>Aşağı | 86<br>54<br>30 | 50,6<br>31,8<br>17,6 | 96<br>51<br>23 | 56,5<br>30<br>13,5 |

Cədvəldən göründüyü kimi, eksperimentin başlamasına qədər sosial komponentlərin formalaşdırılması səviyyəsi 49,4%, eksperimentin keçirilməsindən sonra isə bu rəqəm 60%-ə qədər yüksəlmişdir. Sosial komponentlərin formalaşdırılmasının aşağı səviyyəsi 17,6%-dən 13%-ə, orta səviyyəsi isə 33%-dən 27%-ə enmişdi.

Peşəkarlıq keyfiyyətlərinin formalaşdırılması səviyyəsinin qiymətləndirilməsi isə bu cür dəyişmişdir: eksperimentə qədər yüksək səviyyə 33,5%, eksperiment başa çatdıqdan sonra isə 71,8%; aşağı səviyyə 21,2%, eksperimentdən sonra 7%; orta səviyyə 45,3%-dən 21,2%-ə endi. Yüksək şəxsiyyət keyfiyyətlərinə malik olan eksperiment iştirakçılarının sayı 50,6%-dən 56,5%-ə qədər artdı. Şəxsiyyət keyfiyyətlərinin formalaşmasının orta səviyyəsi 31,8%-dən 30%-ə qədər azaldı, aşağı səviyyə isə 17,6%-dən 13,5%-ə düşdü.

Beləliklə, sosial komponentlərin formalaşdırılması səviyyəsi 49,4 %-dən 54,8 %, şəxsiyyət komponentlərinin formalaşdırılması səviyyəsi 50,6%-dən 56,5%-ə, peşəkar komponentlərin formalaşdırılması səviyyəsi isə 33,5%-dən 71,8%-ə qədər yüksəlmişdi.

Tələbələrə həmişə aşılanırdı ki, müəllim hər bir şagirdi bərabərhüquqlu varlıq kimi qəbul etməlidir, başqa sözlə, onu bir şəxsiyyət kimi dəyərləndirməli, onun qabiliyyətləri və müvəffəqiyyətlərindən asılı olmayaraq insani ləyaqətini nəzərə almalı və ona şəxsiyyət kimi hörmət etməlidir. Humanist meylli ibtidai sinif müəllimi şagirdə müsbət münasibət bəsləməli, onun yaradıcılığını, şəxsiyyətinin ictimai istiqamətini stimullaşdıran üsullar seçməlidir.

Biz belə hesab edirik ki, şagirdə tərbiyəvi təsirlər yalnız maraqlı və cəlbedici şəxsiyyət tərəfindən edildikdə, səmərəli olur. Pedaqoji əmək ustalarının fəaliyyəti göstərir və sübut edir ki, ibtidai sinif müəllimi nə qədər aydın təfəkkürlüdürsə, o qədər də özündə peşəkarlığı və mədəniyyəti daxili ahəngdarlıqla birləşdirir, ətrafdakı gerçəklikləri özünəməxsus qəbul edir, qiymətləndirir, dəyişir və buna görə də o, öz şagirdlərinin tərbiyəsində maraqlıdır, eləcə də, hər şagirdin bir şəxsiyyət kimi inkişafına güclü təsir imkanlarına malik olur.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasına təkan verən digər istiqamət kimi tələbələrin praktik hazırlığını da hesab etmək olar. Ali təhsil müəssisəsində təhsil sisteminin təşkilinin vacib prinsiplərindən biri də təhsilin peşə fəaliyyəti ilə, eləcə də bəzən idrakın mənbəyi, idrak vasitəsi və ya nəzəriyyəyə əlavə kimi müxtəlif formalarda təzahür edən təcrübə ilə əlaqəsidir.

Təcrübəçi tələbələr tərəfindən pedaqoji fəaliyyətin əsas vəzifələrinin dərk edilməsi, müəllim şəxsiyyətinin pedaqoji səlahiyyətlərin bərpası və inkişaf etdirilməsi, müəllimin peşə keyfiyyətlərinin formalaşdırılmasına biz pedaqoji təcrübənin əsas məqsədi kimi baxırıq.

"Tərbiyə işinin təşkili metodikası" kursunun əsas ideyası gələcək ibtidai sinif müəllimlərinin fərdi yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və fərdi pedaqoji üslubunu yaratmaqdır.

Təcrübənin kompleks xarakter daşıması onun bir çox fənlərlə: fəlsəfə, psixologiya, pedaqogika, fiziologiya, fənlərin tədrisi metodikası və xüsusi fənlərlə əlaqəli olması ilə izah olunur.

Tələbələrin pedaqoji təcrübəsinin təşkilinin əsas prinsipləri: varislik, sistematiklik, fasiləsizlik, tələbələrin nəzəri və praktiki hazırlığının qarşılıqlı əlaqəsi, təlim və tədqiqat fəaliyyətinin inteqrasiyası; tələbələrin fəaliyyətinin kollektiv təhlilinin, onların özünənəzarət, özünüqiymətləndirmə və özünütəhlilinin pedaqoji nəzarətlə əlaqələndirilməsi; təcrübəçilərin fəaliyyətində forma və məzmunun seçilməsində variativlik .

Pedaqoji təcrübə proqramının məntiqi quruluşu aşağıdakı tələblərlə uzlaşdırılmışdır:

- təcrübə tələbəyə nəzəri təlim prosesində qazandığı bilikləri tətbiq etmək imkanı vermişdir;
- peşə fəaliyyətində praktik məsələlərin həlli üçün şərait yaradılmışdır;
- tələbəyə peşə fəaliyyətinin əsaslarına yiyələnmək və eləcə də, tərbiyə işinin təşkilini öyrənmək imkanı verilmişdir;
- tələbələrdə müxtəlif növ peşə fəaliyyətinin strukturu və məzmunu, xüsusi proqrama uyğun həyata keçirilmə üsulları haqqında təsəvvürlər yaradılmışdır;

- pedaqoji təcrübə elmi-tədqiqat fəaliyyəti elementlərini özündə birləşdirmişdir və s.

Pedaqoji təcrübə zamanı tələbələr öz fəaliyyətində bir çox vəzifələri yerinə yetirirdilər:

1. Analitik vəzifə (məktəbin, ibtidai sinif müəllimlərinin təcrübəsinin öyrənilməsi və təhlili).
2. Diaqnostik vəzifə (şagirdlərin fiziki, əqli, mənəvi, əxlaqi inkişaf səviyyəsinin öyrənilməsi).
3. Konstruktiv vəzifə (pedaqoji fəaliyyətin layihə və planının hazırlanması).
4. Tərbiyəedici vəzifə (uşağın fərdi imkanlarını üzə çıxarmaq üçün şəraitin yaradılması).
5. Təşkilatı vəzifə (təlim-tərbiyə fəaliyyətinin müxtəlif formalarının təşkili və keçirilməsi).
6. Kommunikativ vəzifə (şagirdlər, müəllimlər və valideynlərlə əməkdaşlıq münasibətlərinin yaradılması).
7. Refleksiv vəzifə (şagird fəaliyyətinin müxtəlif növlərinin təhlili, təcrübə dövründə öz fəaliyyəti, davranışı, uğur və çətinliklərinin, şəxsi keyfiyyətlərinin təhlili).
8. Tədqiqatçılıq vəzifəsi (təcrübi-eksperimental işin təşkili).

Pedaqoji təcrübənin gedişində tələbələrin fəaliyyətinin əsas istiqamətləri:

- ibtidai sinif müəlliminin təlim-tərbiyə işi;
- sinif rəhbərinin tərbiyəvi işi;
- gələcək müəllimlərin peşə özünütəhsilinin inkişafına istiqamətlənmiş metodiki iş;
- tələbələrin özünütəkmilləşdirməsi üzrə iş və s.

Pedaqoji təcrübənin təşkili və keçirilməsində iki mərhələ vardır:

- propedevtik mərhələ – bu mərhələ nəzəri biliklərin aktuallaşdırılması xarakteri daşıyır, ali təhsil müəssisəsində II və III kurslarda praktikumlar formasında keçirilir;
- fəallaşdırılmış mərhələ – III kursda təşkil olunmuş yay pedaqoji təcrübəsi və IV kursda təlim-tərbiyə təcrübəsi şəklində təşkil edilir.

1. Pedaqoji təcrübənin propedevtik mərhələsinin xüsusiyyəti – pedaqoji-psixoloji fənlərin pedaqoji peşə fəaliyyəti üçün əhəmiyyətli olan nəzəri hissəsi ilə tələbələri tanış etməkdir. Bu mərhələdə müxtəlif mövzularda praktikumlar təşkil edilir və tələbələr pedaqoji təcrübədə olduqları dövrdə sinif rəhbəri vəzifəsini yerinə yetirməyə istiqamətlənirlər.

Tələbələrin qəbulu üçün təlim-tərbiyə müəssisələrində müəyyən şərait yaradılır. İlk həftədə müəllimlər açıq dərslər keçirir, tələbələr bu dərslərdə iştirak edir, təcrübəçilərə dərsin icmalını hazırlamaqda kömək edir, iş planları ilə tanış edirlər.

Pedaqoji təcrübə tələbənin, onun üçün çox yeni olan bir mövqeyini aşkarlayır, tələbə həyatında heç zaman rastlaştmadığı yeni münasibətlərin subyektinə çevrilir.

Tələbələr müstəqil olaraq təcrübəyə başlayarkən, bir-birinin dərslərini dinləyir və müşahidə etdiklərini təhlil edirlər. Məsələn, BSU nəzdində E.Cavadov adına Məktəb-Lisey Kompleksində tələbələrin təşkil etdikləri “Öyrədərək öyrənirik” adlı tədbirdə sinif müəllimi R.M.Şərifova ilə keçirilən dərsləri müzakirə etmiş, müsbət və mənfi cəhətlərini üzə çıxarmışlar. Tələbələrdən B.Səidə, P.Səlimə, Ş.Gülnarə tərəfindən müxtəlif növ dərslər – yeni bilik verən dərs, tədqiqat-dərs və məqbul-dərs keçirilmişdir. Pedaqoji fakültənin tələbələri H.Kəmalə və V.Nigarın keçirdiyi Azərbaycan dili dərslərində oyun elementlərindən istifadə edilməsi məktəblilərdə müəyyən maraq oyatmış və yeni biliklərin mənimsənilməsinə şərait yaratmışdır. Tələbələr öz işlərində müxtəlif formalardan uğurla istifadə edir, tapşırıqların hazırlanmasında şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alırdılar. Təcrübəçilər şagirdlərin linqvistik dünyagörüşünün genişlənməsinə böyük diqqət yetirirdilər. Bu nöqteyi-nəzərdən onlar “Azərbaycan dilinin bilicisi”, “Şən qrammatika”, “Mənim ana dilim” və s. mövzuda viktorinalar hazırlayırdılar.

Təcrübə dövründə sinif rəhbərlərinin köməkçisi kimi tələbələrin şagirdlərlərin inamını qazanması onların birgə fəaliyyətini asanlaşdırırdı. Təcrübəçi tələbələr eyni zamanda gündəlikləri yoxlayır, məktəb üzrə növbətçilik edir, sinifdənxaric və məktəbdənkənar təd-

birlər keçirir, dram və musiqili teatra gedişi təşkil edir, gördüklərini müzakirə edir, ad günlərinin və bayramların keçirilməsi kimi işləri təşkil edirdilər. Hər bir tələbə uşaqlarla tərbiyə işinin təşkilində öz yaradıcılığını da nümayiş etdirməyi bacarırdı.

BSU Pedaqoji fakültəsinin ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə tələbələri İ.Vəfa və H.Vüsalə "Erudistlər klubu", "Musiqili rinq" kimi tədbirlər təşkil edərək ən hazırcavab şagirdləri müəyyənləşdirməyə nail oldular.

Tələbə Q.Raufun IV sinif şagirdləri ilə təşkil etdiyi "Cəngavərlik turniri" çox maraqlı keçdi. V.Nigar isə təhkim olunduğu sinifdə şagirdlərin köməyi ilə uşaq evləri üçün oyuncaqlar, məişət əşyaları toplamağı təşkil etdi.

Son nəticədə, hər bir təcrübəçi tələbənin şagirdlərlə ümumi dil tapması və bütövlükdə pedaqoji təcrübəni yüksək qiymətləndirilməsi çox təqdirəlayiqdir. Tələbələr keçdikləri təcrübə haqqında belə fikirlər söyləmişlər:

- "Mən öz gücümü və imkanlarımı sınadım və təəssüflənmədim" (M.Rəfiqə);

- "Mən belə bir pedaqoji prinsipi öz işimdə müşahidə etdim: müəllim olaraq yalnız sən təlim və tərbiyə vermirsən, eyni zamanda şagirdlər də səni təlimləndirir və tərbiyələndirirlər» (F.Sahilə);

- "Bu təcrübə məndə müəllim fəaliyyəti haqqında təsəvvür yaratdı, özümə inam və güc yaratdı, mən uşaqlarla ünsiyyətdən həzz aldım" (E.İradə);

- "Təcrübə mənə daha müstəqil və intizamlı olmaqda kömək etdi" (K.Ləman);

- "Məktəbdə işləmək qorxusunu dəf etdim. Məktəbə nəzəri biliklərlə gəldim, onları təcrübədə tətbiq etməyi öyrəndim" (S.Heydər).

Pedaqoji təcrübə tələbə-psixoloqlar üçün də çox maraqlı oldu. BSU-nun nəzdində E.Cavadov adına məktəb-lisey kompleksinin psixoloq-müəlliminin təcrübəçi tələbələr üçün yaratdığı əlverişli şəraitin nəticəsində onlar bu peşənin vacibliyini bir daha hiss etdilər. Təcrübəçilər məktəblilər və onların valideynləri üçün məsləhət saatları təşkil etdilər. K.Zərifə və U.Ülviyyənin təşkil etdikləri və

keçirdikləri məşğələlər şagirdlərin yaddaşında uzun müddət qalacaq. Bu məşğələnin müzakirəsi zamanı şagirdlər özlərinə məlum olmayan xüsusiyyətlərini də öyrəndilər, sinif daha da mehribanlaşdı və şagirdlər bir-birini daha yaxşı başa düşməyə başladılar. Tələbələrdə özlərinə inam hissi yarandı və peşə seçimində düzgün mövqe tutduqlarına əmin oldular.

Yay pedaqoji təcrübəsinin əsas xüsusiyyəti - tələbələrin müxtəlif növ təhsil-tərbiyə müəssisələrinin fəaliyyəti ilə tanış etməkdir (şəhər və şəhərdənkənar istirahət düşərgələri, yaşayış yerlərində klublar, idman klubları və idman meydançaları).

Təcrübəçilər "Olimpiya oyunlarının tarixi" adlı tərbiyəvi tədbir təşkil edir, "Bakıda idmanın tarixi" adlı viktorina və müxtəlif müsabiqələr keçirirdilər. Bütün bunlar isə gələcək ibtidai sinif müəllimlərində layihələndirici və təşkilatı bacarıqların formalaşdırılmasına kömək edirdi.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsini III və IV kurs tələbələrinin fəaliyyətində üzə çıxardıq. Alınmış nəticələr 2.3, 2.4, 2.5, 2.6, 2.7-ci cədvəllərdə öz əksini tapmışdır:

**III kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsinin göstəriciləri (bal hesabı ilə).**

***Cədvəl 2.3***

| Göstəricilər | Eksperimentə qədər | Eksperimentdən sonra |
|---|---|---|
| Peşəyə məhəbbət | 3,0 | 4,8 |
| Tərbiyə nəzəriyyəsi, tərbiyə işinin metodikası, tərbiyə prosesinin təşkilinə müasir yanaşmalar haqqında biliklərə malik olmaq | 2,9 | 4,5 |
| Ünsiyyət zamanı qarşı tərəfə müsbət münasibət | 2,5 | 4,5 |
| Yumor hissi | 2,4 | 4,9 |
| Təşəbbüskarlıq | 2,3 | 4,7 |
| İfadəli və inandırıcı nitq | 2,2 | 4,5 |

| | | |
|---|---|---|
| Xeyirxahlıq | 2,1 | 4,6 |
| Yenilik axtarışına cəhd | 2,0 | 4,3 |
| Nitq mədəniyyəti və texnikası, ümumi nitq savadı | 2,0 | 3,9 |
| Həmkarlarının iş təcrübəsini öyrənmək bacarığı | 1,3 | 4,0 |

Eksperimentlər təhsil müəssisələrində təcrübə başlayana qədər və sona çatdıqdan sonra keçirilmişdir.

Alınmış məlumatları (cədvəl 2.3) təhlil edərkən biz belə bir nəticəyə gəldik ki, təcrübə başa çatdıqdan sonra tələbələrin tərbiyə işinə hazırlanmasında şəxsiyyət göstəriciləri inkişafa doğru dəyişmişdir. Belə ki, ünsiyyət zamanı qarşı tərəfə müsbət münasibətin göstəricisi 2,5 baldan 4,5 baladək, təşəbbüskarlıq - 2,3 baldan 4,7 bala, xeyirxahlıq - 2,1 baldan 4,6 baladək, nitqin ifadəli və inandırıcı olması - 2,2 baldan 4,5 baladək, yumor hissi - 2,4 baldan 4,9 baladək, peşəyə məhəbbət - 3,0 baldan 4,8 baladək yüksəlmişdir.

**III kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsinin səviyyəsi.**

***Cədvəl 2.4***

| № | Komponentlər | Səviyyələr | Eksperimentə qədər | | Eksperimentdən Sonra | |
|---|---|---|---|---|---|---|
| | | | Sayı | % | Sayı | % |
| 1. | Sosial | Yüksək<br>Orta<br>Aşağı | 84<br>49<br>37 | 49,4<br>28,8<br>21,8 | 97<br>44<br>29 | 57<br>26<br>17 |
| 2. | Peşəkarlıq | Yüksək<br>Orta<br>Aşağı | 57<br>74<br>39 | 33,5<br>43,5<br>23 | 109<br>41<br>20 | 64,1<br>24,1<br>11,8 |
| 3. | Şəxsiyyət | Yüksək<br>Orta<br>Aşağı | 80<br>55<br>35 | 47<br>32,4<br>20,6 | 88<br>52<br>30 | 51,8<br>30,6<br>17,6 |

Cədvəldən göründüyü kimi, eksperimentin əvvəlində 49,4% təşkil edən sosial komponentlər sonda 57%-ə qədər artmışdır. Sosial komponentlərin aşağı səviyyəsi getdikcə azalmış və 21,8%-dən 17%-ə düşmüş, orta səviyyə isə 28,8%-dən 26%-ə enmişdir.

Peşəkarlıq komponentlərinin formalaşma səviyyəsi əsaslı surətdə dəyişmişdir. Eksperimentin başlanmasına qədər peşəkarlığın yüksək səviyyəsi 33,5%, sonunda isə 64,1% olmuş; peşəkarlığın aşağı səviyyəsi daha da azalmış və 23%-dən 11,8%-ə, orta səviyyə isə 43,5%-dən 24,1%-ə qədər azalmışdır.

Şəxsi keyfiyyətləri yüksək olan eksperiment iştirakçılarının sayı 47%-dən 51,8%-ə qədər artmış, orta səviyyə - 32,4%-dən 30,6%-dək enmişdir, aşağı səviyyəli iştirakçıların sayı isə 20,6%-dən 17,6%-ə düşmüşdür.

Bizim fikrimizcə, gələcək müəllimin tərbiyə işinə hazırlanması üçün onun təlim və pedaqoji təcrübələrdə iştirak etməsi çox böyük əhəmiyyətə malikdir. Belə ki, bu təcrübələr tələbələrin ümumi dünyagörüşünün yüksəlməsinə imkan verir, layihələndirmə, təşkilatçılıq və kommunikativ bacarıqlarını inkişaf etdirir. Bakı Slavyan Universitetinin pedaqoji fakültəsinin tələbələri elmi-tədqiqat işlərini və təcrübələrini universitetin nəznindəki məktəb-lisey kompleksində, Bakı şəhərinin tam orta məktəblərində, o cümlədən, 190 saylı məktəbdə və orada BSU ilə birgə yaradılmış “Ali və orta təhsilin koordinasiyası kafedrası”nda, Azərbaycan tarixi muzeyində, Şirvanşahlar sarayında və başqa tarixi muzeylərində keçirdilər. Bu isə onların peşəkarlıq səviyyəsinin yüksəlməsinə kömək etməklə yanaşı, eyni zamanda gələcək ibtidai sinif müəlliminin mənəvi zənginliyinə təkan verir, onun idrak fəaliyyətinin fəallaşması və inkişafına səbəb olurdu. Təcrübələrin əsas xüsusiyyəti onların müəyyən rejim, özünəxidmət və asudə vaxtın düzgün təşkili ilə səciyyələnən səyyar şəraitində keçirilməsindən ibarət idi.

Beləliklə, təcrübə nəzəri biliklərin möhkəmləndirilməsi, praktik bacarıq və vərdişlərin formalaşdırılması ilə yanaşı, tərbiyəedici funksiyaya da qadirdir. Təcrübə nəticəsində tələbələr dünyagörüşlərini ge-

nişləndirmiş, şəxsi fəaliyyətlərini təhlil etmək və planlaşdırmaq bacarığına yiyələnmiş və bütövlükdə, həyat təcrübəsi qazanmışlar.

Bakı Slavyan Universitetində pedqoji təcrübənin başlanmasına və yekununa həsr olunmuş konfransların keçirilməsində yaxşı ənənə yaranmışdır. Pedaqoji təcrübənin başlanmasına həsr olunmuş konfransda universitetin rəhbərliyi və müəllimlər qarşıda duran vəzifələrin əhəmiyyəti və vacibliyi ilə tələbələri tanış edir, omlara dəyərli məsləhətlər verirlər. Pedaqoji təcrübənin yekunlarına həsr olunmuş konfransda isə tələbələr təcrübə zamanı əldə etdikləri nailiyyətlərdən danışır, təcrübə zamanı hazırladıqları divar qəzetlərini, bülletenləri, fotostendləri və videomaterialları nümayiş etdirirlər. Konfransda I kurs tələbələri, ibtidai sinif müəllimləri, məktəb şagirdləri də iştirak edir – bütün bunlar universitetdə bayram əhval-ruhiyyəsi yaradır.

Yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, universitetdə tələbələrin praktik hazırlığı gələcək müəllimin müxtəlif növ təlim-tərbiyə müəssisələrində tərbiyə işinin təşkilinə hazırlanması prosesinin vacib komponentlərindəndir.

Gələcək ibtidai sinif müəlliminin elmi-tədqiqat fəaliyyətinin təşkili üçün tələbələrin elmi-tədqiqat işləri və elmi-metodiki idarə olunması sistemi üzrə universitet kafedralarının fəaliyyət proqramını işləyib hazırladıq. Proqram gələcək ibtidai sinif müəllimlərinin hazırlığının daha məqsədyönlü və səmərəli yollarını müəyyənləşdirirdi: aşağı kurs tələbələri peşəyönümünün müxtəlif formalarının köməyi ilə elmi-tədqiqat fəaliyyətinə ("İxtisasa giriş" kursu üzrə mühazirələr, fakültənin aparıcı mütəxəsisləri, məktəb müəllimləri ilə görüşlərin eləcə də söhbət və ekskursiyaların təşkili) cəlb edilirdilər. Yuxarı kurs tələbələrinin elmi-tədqiqat işi onların müxtəlif təhsil müəssisələrindəki praktik fəaliyyəti, pedaqogika, psixologiya üzrə tədqiqat işlərinin yerinə yetirilməsi ilə sıx əlaqədardır. Tələbələr tədqiqat işlərinin nəticələrini pedaqoji təcrübənin yekununa həsr olunmuş konfranslarda, seminar, praktik və laborator məşğələlərdə, həmçinin müxtəlif mövzulara ("Təhsil prosesində tərbiyə", "Dərsdə

qrup və fərdi işin təşkili", "Təlim prosesində oyun") həsr olunmuş elmi-praktik konfranslarda müzakirə edirdilər.

Yalnız tərbiyə sisteminin müasir tələblərinə cavab verən kurs və buraxılış işlərini, seminar məşğələləri, mühazirə kurslarının əlaqələndirilməsi şəraitində böyük uğurlar qazanmaq olar.

Fikrimizcə, tələbələrin tədqiqat işlərində iştirakı gələcək ibtidai sinif müəlliminin şəxsiyyətinin formalaşmasına müsbət təsir göstərir, başqa sözlə, pedaqogika-psixologiya üzrə nəzəri bilikləri mənimsəmək, pedaqoji-psixoloji və metodik ədəbiyyatla işləmək, pedaqoji eksperimentlər keçirmək, pedaqoji tədqiqatları təhlil etmək, pedaqoji mövzuda məruzə hazırlamaq bacarıqlarına yiyələnməkdə ən vacib şərtlərdəndir. Lakin qeyd etməliyik ki, gələcək ibtidai sinif müəllimlərinin elmi-tədqiqatçılıq fəaliyyətində tərbiyə işləri problemlərinə müraciəti qənaətbəxş deyildir: hazırlanmış proqramda pedaqogika üzrə kurs işi və referatların yazılması nəzərdə tutulmadığından tələbə özünü ibtidai sinif müəllimi kimi formalaşdırmaq imkanına malik ola bilmir.

Tələbələrə gələcəkdə tərbiyəçi kimi formalaşmağa auditoriyadankənar tərbiyə işi də kömək edirdi. Auditoriyadankənar tərbiyə işlərinə tələbələrin də iştirak etdikləri tematik gecələr və teatrlaşdırılmış tamaşalar, incəsənət müsabiqələri, tələbə teatr bayramları, muzey, qalereya və sərgilərə ekskursiyaların təşkili və keçirilməsi aid edilir. Gələcək müəllimlərin tərbiyə işinə hazırlanmasında universitetin nəzdində idman tədbirlərinin təşkili və keçirilməsi, yarış keçiriləcək yerlərin tərtibatı, paradlar, yarışların açılışı və bağlanması, idman gecələrinin keçirilməsi də böyük rol oynayır.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının xüsusiyyətlərindən danışarkən təlim-tərbiyə müəssisəsinin maddi-texniki və kadr təminatına da diqqət yetirməli olduq. Bakı Slavyan Universitetində 50-dən çox elmlər doktoru, professor, 200-dən çox elmlər namizədi, dosent, 200-dən artıq yüksəkixtisaslı mütəxəssis çalışır.

Ali təhsil müəssisələrində tələbə şəxsiyyətinin özünü reallaşdırnası üçün akt və konsert zalları, yaradıcılıq və teatr evləri, idman

zalları da olur. Tələbə klublarında bədii özfəaliyyəti daha da inkişaf etdirməyə ehtiyac var. Bu təhsil ocağında tanınmış siyasi, dövlət və ictimai xadimlərlə, yazıçılarla, incəsənət ustaları ilə görüşlər keçirilməsi ənənəyə çevrilmişdir.

Nəticələrin təhlili göstərir ki, keçirdiyimiz eksperimentlər tələbələrin tərbiyəvi fəaliyyətə hazırlanmasına əsaslı surətdə təsir etmişdir, başqa sözlə, göstəricilər və meyarların müsbət tərəfə dəyişməsi müşahidə edilirdi.

**IV kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsinin göstəriciləri (bal hesabı ilə).**

***Cədvəl 2.5***

| Göstəricilər | Eksperimentə qədər | Eksperimentdən sonra |
|---|---|---|
| Peşəyə məhəbbət | 3,1 | 4,8 |
| Peşə mədəniyyətini yüksəltmək bacarığı | 2,9 | 4,5 |
| Müəllim-şagird, şagird-sinif münasibətlərini qurmaq bacarığı | 2,5 | 4,5 |
| Tərbiyə işinin planını qurmaq və həyata keçirmək bacarığı | 2,4 | 4,9 |
| Səbrlilik | 2,6 | 4,7 |
| İfadəli və inandırıcı nitq | 2,8 | 4,3 |
| Xeyirxahlıq | 2,3 | 4,2 |
| Məktəbliyə pedaqoji-psixoloji zəmanəti vermək bacarığı | 2,3 | 4,3 |
| Nitq mədəniyyəti və texnikası, ümumi nitq savadı | 2,0 | 3,9 |
| Tərbiyə nəzəriyyəsi, tərbiyə işinin metodikası, tərbiyə prosesinin təşkilinə müasir yanaşmalar haqqında biliklərə malik olmaq | 1,5 | 4,5 |
| Sinifin tərbiyə sistemini qurmaq bacarığı | 1,3 | 4,0 |

Alınmış məlumatları (cədvəl 2.5) təhlil edərkən belə bir nəticəyə gəldik ki, təcrübə başa çatdıqdan sonra tələbələrin tərbiyə işinə hazırlanmasında şəxsiyyət göstəriciləri inkişafa doğru dəyişmişdir. Belə ki, müəllim-şagird, şagird-sinif münasibətlərini qurmaq bacarığının göstəricisi 2,5 baldan 4,5 baladək, peşə mədəniyyətini yüksəltmək bacarığı – 2,9 baldan 4,5 bala, xeyirxahlıq – 2,3 baldan 4,2 baladək, nitqin ifadəli və inandırıcı olması – 2,8 baldan 4,3 baladək, səbrlilik dərəcəsinin göstəricisi – 2,6 baldan 4,7 baladək, peşəyə məhəbbət – 3,1 baldan 4,8 baladək yüksəlmişdi.

**IV kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsinin səviyyəsi.**

*Cədvəl 2.6*

| № | Komponentlər | Səviyyələr | Eksperimentə qədər | | Eksperimentdən sonra | |
|---|---|---|---|---|---|---|
| | | | Sayı | % | Sayı | % |
| 1. | Sosial | Yüksək | 79 | 46,5 | 120 | 70,6 |
| | | Orta | 57 | 33,5 | 32 | 18,8 |
| | | Aşağı | 34 | 20 | 18 | 10,6 |
| 2. | Peşəkarlıq | Yüksək | 57 | 33,5 | 150 | 88,2 |
| | | Orta | 73 | 43 | 16 | 9,4 |
| | | Aşağı | 40 | 23,5 | 4 | 2,4 |
| 3. | Şəxsiyyət | Yüksək | 82 | 48,2 | 118 | 69,4 |
| | | Orta | 54 | 31,8 | 35 | 20,6 |
| | | Aşağı | 34 | 20 | 17 | 10 |

Cədvəldən göründüyü kimi, eksperimentin başlanmasına qədər yüksək səviyyəsi 46,5% təşkil edən sosial komponentlər eksperimentin sonunda 70,6%-ə qədər artmışdır. Sosial komponentin aşağı səviyyəsi getdikcə azalmış və 20%-dən 10,6%-ə düşmüş, orta səviyyə isə 33,5%-dən 18,8%-ə enmişdir.

Peşəkarlıq komponentlərinin formalaşma səviyyəsi əsaslı surətdə dəyişmişdir. Eksperimentin başlanmasına qədər peşəkarlığ səviyyəsi yüksək olan iştirakçıların sayı artaraq 33,5%-dən 88,2%-ə

çatmış, peşəkarlığın aşağı səviyyəsi daha da azalaraq 23,5%-dən 2,4%-ə çatmış, orta səviyyə isə 43%-dən 9,4%-ə qədər azalmışdır.

Şəxsiyyət keyfiyyətləri yüksək olan eksperiment iştirakçılarının sayı 48,2%-dən 69,4%-ə qədər artmış, aşağı səviyyəli iştirakçıların sayı 20%-dən 10%-ə enmiş, orta səviyyə isə 31,8%-dən 20,6%-ə qədər azalmışdır.

**III və IV kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsi səviyyəsinin müqayisəli cədvəli.**

*Cədvəl 2.7*

| № | Komponentlər | Səviyyələr | III kurs | | IV kurs | |
|---|---|---|---|---|---|---|
| | | | Eksperimentə qədər (%) | Eksperimentdən sonra (%) | Eksperimentə qədər (%) | Eksperimentdən sonra (%) |
| 1. | Sosial | Yüksək<br>Orta<br>Aşağı | 49,4<br>28,8<br>21,8 | 57<br>26<br>17 | 46,5<br>33,5<br>20 | 70,6<br>18,8<br>10,6 |
| 2. | Peşəkarlıq | Yüksək<br>Orta<br>Aşağı | 33,5<br>43,5<br>23 | 64,1<br>24,1<br>11,8 | 33,5<br>43<br>23,5 | 88,2<br>9,4<br>2,4 |
| 3. | Şəxsiyyət | Yüksək<br>Orta<br>Aşağı | 47<br>32,4<br>20,6 | 51,8<br>30,6<br>17,6 | 48,2<br>31,8<br>20 | 69,4<br>20,6<br>10 |

III, IV kurs tələbələrinin tərbiyə işinə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik səviyyəsinin müqayisəsi (cədvəl 2.7) nəticəsində aşağıdakıları qeyd edə bilərik: hər iki kursun tələbələrində sosial keyfiyyətlərin formalaşmasının yüksək səviyyəsi daha da yüksəlmiş, yəni III kursda 7,6 %, IV kursda isə 24,1% artmışdır; III kursda peşəkarlıq keyfiyyətləri eksperimentin əvvəlinə nisbətən sonunda

30,6%, IV kursda isə peşəkarlığın yüksək səviyyəsi eksperimentin sonunda 54,7% artmışdır, III kursda şəxsi keyfiyyətlər eksperimentin əvvəlinə nisbətən 4,8%, IV kursda isə 21,2% yüksəlmişdir.

Eksperimentin sonunda bütün kurs tələbələrinin sosial, peşəkarlıq və şəxsi keyfiyyətlərinin formalaşmasının orta səviyyəsi azalmışdır. III kursda sosial keyfiyyətlərin orta səviyyəsi eksperimentin sonunda başlanğıcına nisbətən 2,8%, IV kursda isə 14,7% azalmışdır. Peşəkarlığın formalaşmasının orta səviyyəsi III kursda 19,4%, IV kursda isə bu səviyyə eksperimentin əvvəlinə nisbətən 33,6% aşağı düşmüşdür. III kursda şəxsi keyfiyyətlərin formalaşmasının orta səviyyəsi eksperimentin əvvəli ilə müqayisədə 1,8% azalmışdı. IV kursda isə şəxsi keyfiyyətlərin formalaşmasının orta səviyyəsi eksperimentə qədər 31,8%, eksperimentdən sonra isə 20,6% olmuşdur, yəni tələbələrdə şəxsi keyfiyyətlərin formalaşmasının orta səviyyəsi 11,2% azalmışdır.

Eksperimentin sonunda sosial keyfiyyətlərin aşağı səviyyəsi III kursda 4,8%, IV kursda 9,4%, peşə keyfiyyətləri III kursda 11,2%, IV kursda 21,1%, şəxsi keyfiyyətlər III kursda 3%, IV kursda 10%-ə qədər azalmışdır.

Müqayisəli cədvəlin təhlili bizə belə bir nəticəyə gəlməyə imkan verdi: tələbələrinin tərbiyə işinə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsinin yüksək səviyyəsi eksperimentin gedişində artır, buna müvafiq olaraq, orta və aşağı səviyyələr isə azalır və bu faiz III kursa nisbətən IV kursda daha da yüksəlir. Bu da onu göstərir ki, gələcək müəllimlərin tərbiyə işinin düzgün təşkilinə xidmət edən bilik və bacarıqların qazanılması proqramının reallaşdırılması nəticəsində tələbələr sosial, peşə və şəxsi keyfiyyətlərə kursdan-kursa keçdikcə daha çox yiyələnirlər.

Beləliklə, gələcək müəllimin ali təhsili aldığı mərhələdə tərbiyə işinə hazırlanması modelinin reallaşdırılması aşağıdakı tədbirlərin təşkili ilə həyata keçirilir:

– təlim - tərbiyə prosesinin təşkili, pedaqoji-psixoloji, metodiki və xüsusi bilik və bacarıqların verilməsi (mühazirə, seminar, pedaqoji təcrübə və s.) ilə;

– elmi-tədqiqat işlərinin, təlim və pedaqoji təcrübələrin təşkili (kurs işlərinin yerinə yetirilməsi və müdafiəsi, elmi-praktik konfranslarda iştirak etmək və s.) ilə;

– tələbələrin təlimdənkənar fəaliyyətinin təşkili (maraq klubları, yaradıcılıq dərnəkləri və s.) ilə;

Nəhayət, biz belə hesab edirik ki, tələbələrin universitetdə müxtəlif təlim-tərbiyə fəaliyyətinə cəlb edilməsi onlarda gələcək ibtidai sinif müəllimi kimi tərbiyə işinə hazırlanmasında sosial, peşə və şəxsi keyfiyyətlərin yaranmasına şərait yaratmışdır. III və IV kurs tələbləri ilə apardığımız eksperimentlərdən əldə etdiyimiz nəticələri təhlil edərək belə bir nəticəyə gəldik ki, gələcək ibtidai sinif müəllimləri üçün yaratdığımız şərait onlara bilik qazanmağa, onlarda tərbiyə işinin təşkilində pedaqoji bacarıq və vərdişlərin formalaşdırılmasına kömək edir.

Fikrimizcə, bütün bunların nəticəsi isə tələbələrdə ibtidai sinif müəlliminin fəaliyyətinə, bütövlükdə tərbiyə işinə müsbət münasibətin yaranmasıdır. Bunu tələbənin tərbiyə işi üçün nəzəri biliklərinin dinamikası, elmi məlumatların tələbələr tərəfindən praktiki fəaliyyətində tətbiq etmələri təsdiqləyir.

## *2.3. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasında ixtisasartırma sisteminin imkanlarından istifadə*

Ali təhsildən sonrakı təhsil peşə təhsili ilə əlaqəli olub ixtisasa aid biliklərin daha da möhkəm olmasına, həyatın tələbləri ilə peşə hazırlığının imkanları arasındakı ziddiyyətlərin aradan qaldırılmasına kömək edir. Ona görə də ali təhsildən sonrakı mərhələ təsadüfi və dövrü xarakter daşımamalı, müntəzəm və ardıcıl olaraq həyata keçirilməlidir.

Müasir ibtidai sinif müəllimi təhsil sahəsində əvvəllər baş verənlərdən, bu günkü dəyişikliklərdən hər zaman xəbərdar olmalıdır. İbtidai sinif müəllimlərinin ixtisaslarını artırması təhsil və tərbiyə

proqramlarının yeni məlumatlarla zənginləşməsinə, təhsil-tərbiyə prosesində yeni metodların yaranmasına, cəmiyyətin obyektiv tələbatlarına uyğun olaraq təhsil müəssisələrinin məzunlarına verilən tələblərdəki dəyişikliklərə, müəllimlər ordusundakı nəsil dəyişikliyinə və s. səbəb olur.

Müasir dövrdə cəmiyyətin sürətli inkişafı, ictimai şüura məlum olan informasiyaların durmadan artması, informasiya və kommunikasiya texnologiyalarının geniş yayılması, təhsilin məzmununun bu ictimai hadisələrə müvafiq olaraq təkmilləşdirilməsi nəticəsində ali təhsildən sonrakı təhsil xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. Bu, həmçinin təhsil tərbiyə sistemində aparılan islahatlar, demokratizm prosesində yeni təhsil-tərbiyə texnologiyalarının yaranması, məktəbin müasir informasiya və kommunikasiya texnologiyalarını əldə etməsi, ətraf mühitin şəxsiyyətin sosiallaşmasına təsir edən gerçəkliklərinin əsaslı surətdə dəyişməsi ilə əlaqədardır.

Müəllimin hazırlığı və ixtisasartırmasında ali təhsildən sonrakı mərhələnin məqsədi ibtidai sinif müəllimlərinin yaradıcılıq potensialı və tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsidir. Şagird şəxsiyyətinə müəllimin təsiri ciddi və güclü olur və bu təsir bütün təlim prosesi ərzində davam edir, ayrı-ayrı şagirdlərdə isə, hətta həyatı boyu hiss olunur, öz qüvvəsini və əhəmiyyətini itirmir.

İbtidai sinif müəlliminin öz peşə fəaliyyətinin xüsusiyyətlərini bilməsi, müəllim şəxsiyyətinin özünütəkmilləşdirməsi və peşəkarlığının inkişafını stimullaşdıran amillərdən biridir. Müəllimin özünütəkmilləşdirməsinin əhəmiyyətli mənbələrindən biri də ixtisasartırma kurslarında təhsildir. Rəyini soruşduğumuz 110 məktəb müəlliminin 70%-i bizim bu fikrimizi təsdiq etdi.

Müəllim ixtisasartırma sistemində yalnız təhsilə dair yeni məlumatları əldə etməklə kifayətlənmir, onları təhlil və əvvəlki biliklərlə müqayisə edir, bəzən onlara şübhə ilə yanaşır və bəzən də inkar edir. O, fikrən əldə etdiyi yeni bilikləri öz şəxsi təcrübəsinə tətbiq edir və beləliklə, gələcək peşə fəaliyyətinin yeni istiqamətini müəyyənləşdirmiş olur.

Müəllimlərin idrak və praktik fəaliyyətində vahidliyə və ixtisasartırmada keyfiyyətə nail olmaq üçün biz müxtəlif fəal təlim formalarından istifadə etdik. Müəllimlər üçün fəal təlim yalnız məlumatların həcminin artırılması deyil, həm də onların dərk olunması üçün didaktik və psixoloji şəraitin yaradılması və bu şəraitə intellektual, şəxsi, sosial cəhətdən fəal insanların cəlb olunmasını nəzərdə tutur.

İxtisasartırma sistemində fəal təlim didaktik prosesin alqoritmləşdirilmiş və reqlamentləşdirilmiş təşkilat formalarından və metodlarından tərbiyə işinə maraq yaradan, idrakı motivlərə təkan verən problemli, axtarış və inkişafetdirici formalara keçməyə imkan verir.

Müəllimlərin təlim prosesində qarşıya qoyulmuş məqsədə çatması üçün biz aşağıdakı forma və metodlardan istifadə etməli olduq:

– müxtəlif mühazirələrin təşkili (problem xarakterli mühazirə, binar mühazirələr, konfranslar və s.);

– müxtəlif seminar məşğələləri (seminar-diskussiya, seminar-tədqiqat və s.);

– işgüzar oyunlar, rollu oyunlar, pedaqoji-psixoloji məşqlər;

– fərdi məşğələlər (buraxılış işlərinin yazılması, videofilmlərin yaradılması və s.);

– təhsil-tərbiyə müəssisələrinin iş təcrübəsinin öyrənilməsi və təhlili;

– təhlildən əldə edilmiş nəticələrin kollektiv müzakirəsi və s.;

– mövzu üzrə diskussiyalar, diskussiya-seminarlar;

– fəal-qrup formasında məsləhətlərin təşkili;

– tematik ekskursiyalar;

– konkret situasiyaların təhlili və müzakirəsi və s.

Biz ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının həyata keçirilməsi üzrə iki - nəzəri və praktik bölmədən ibarət olan proqram işləyib hazırlamışıq. Aşağıda "İxtisasartırma sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması" proqramını təqdim edirik.

“İxtisasartırma sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmsı” proqramı.

Təlim-tərbiyə prosesinin humanistləşdirilməsi müasir cəmiyyətin aparıcı tendensiyalarından biridir. O, yeni, daim dəyişən şəraitdə yaşamağa cəhd göstərən, çevik, dinamik və rəqabət qabiliyyətli insanın tərbiyəsinin vacibliyini şərtləndirir. Təlim-tərbiyə müəssisələrinə gənclərin təşəkkülü və inkişafına kömək edə bilən müəllim lazımdır. Müasir ibtidai sinif müəllimi innovasiya üslublu təfəkkürə malik olmalı, peşə fəaliyyətində yardıcılığa, özünütəkmilləşdirməyə və ozünüinkişafa meylli və pedaqoji-psixoloji biliklərə malik olmalı, müxtəlif yaş qruplarına və sosial təbəqələrə mənsub insanlarla münasibət yaratmağı bacarmalıdır.

İbtidai sinif müəlliminin tərbiyə işinin təşkilinə və həyata keçirilməsinə hazırlığı həm peşə, həm də şəxsi keyfiyyətlərinin formalaşdırılmasının vacibliyini nəzərdə tutur.

Proqram ibtidai sinif müəlliminin təlim və praktik fəaliyyətin əvvəlki mərhələlərində pedaqogika və psixologiyadan mənimsədiyi bilik, bacarıq və vərdişləri nəzərə alır.

Proqram ixtisasartırma sistemindəki dinləyicilər, ibtidai sinif müəllimləri, asudə vaxtın təşkilatçıları, təhsil müəssisələrinin müdiriyyəti üçün nəzərdə tutulmuşdur. Belə ki, o, ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasına kömək edən kompleks nəzəri və praktiki materiallara malikdir.

***Proqramın məqsəd və vəzifələri:***

- müasir tərbiyə posesinin aktual poblemlərini öyrənmək;
- müasir ibtidai sinif müəlliminin peşə fəaliyyətinin rolu, yeri, strukturu və məzmununu müəyyənləşdirmək;
- təlimin innovasiya texnologiyaları əsasında ibtidai sinif müəlliminin peşəkarlığını yüksəltmək;

Proqramı yerinə yetirdikdən sonra ibtidai sinif müəllimi uşaq kollektivinin təlim-təhsil prosesinə pedaqoji baxımdan savadlı rəhbərlik etməli, müxtəlif kateqoriyaya mənsub olan uşaq və böyüklərlə düzgün pedaqoji ünsiyyət yaratmağı bacarmalı, uşaqlar və onların

valideynləri ilə işgüzar münasibət qurmağı və fərdi üslubun xüsusiyyətlərini seçməlidir.

"İxtisasartırma sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmsı" proqramının məzmunu

**Mövzu 1. Müasir məktəbin ibtidai sinif müəllimi.**

Pedaqoji ustalıq. İbtidai sinif müəlliminin şəxsiyyəti tərbiyə prosesinin amili kimi. Müəllimin özünütəkmilləşdirməsi və özünüinkişafı.

**Mövzu 2. Müasir tərbiyə prosesinin xüsusiyyətləri. Tərbiyə texnologiyaları.**

Şəxsiyyətin inkişafı və formalaşdırılması. Şəxsiyyətin tərbiyəsi və sosializasiyası. Şəxsiyyətin tərbiyəsinə təsir göstərən meqo-, mezo- və mikroamillər. Tərbiyə prosesinin məqsədyönlülüyü çoxamilliyi, dinamikliyi və variativliyi. Tərbiyə prosesinin humanistləşdirilməsi və demokratikləşdirilməsi. Tərbiyə prosesinin təşkilinə müxtəlif yanaşmalar: şəxsiyyətyönümlü, kompleks yanaşma. Tərbiyə texnologiyaları: kollektiv yaradıcı fəaliyyət; şəxsiyyətin mənəvi tərbiyəsi; fərdi-pedaqoji yardım; pedaqoji-psixoloji yardım; şəxsiyyətin özünütəkmilləşdirilməsi və s.

**Mövzu 3. İbtidai sinif müəlliminin iş sistemi.**

3.1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin məzmunu. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin xüsusiyyətləri.

Təlim prosesində tərbiyə. Sinifdənxarıc və məktəbdənkənar tərbiyə işi. Tərbiyənin vasıtələri və üsulları. Azərbaycan məktəblərində sinif rəhbəri institutunun yaranması və inkişafı tarixi. Sinif rəhbərinin funksiyaları (tərbiyəvi, təşkiltçılıq, maarifçilik, korreksiya-diaqnostika, əlaqələndirici). Sinif rəhbərinin hüquq və vəzifələri. Sinif rəhbərinin professioqramı.

3.2. Sinfin tərbiyə sistemi pedaqoji hadisə və anlayış kimi. Sinfin tərbiyə sisteminin modelləşdirilməsi. Sinfin sistemyaratma fəaliyyət növünün seçilməsi.

Tərbiyədə sistemli yanaşma. "Sinfin tərbiyə sistemi" anlayışı. Tərbiyə sisteminin elementləri və komponentləri. Sinfin tərbiyə sisteminin inkişaf mərhələləri: layihələşdirmə, təşəkkül, stabil funksi-

ya, sistemin kökündən dəyişdirilməsinin yekunlaşdırılması. Qiymətləndirmə meyarları. Sinif tərbiyə sisteminin modelləşdirilməsi. Müəllif tərbiyə sistemləri. Tərbiyəvi fəaliyyətin növləri. Fəaliyyətin sistemyaradıcı növlərinin seçilməsi.

**Mövzu 4. Sinfin tərbiyə sisteminin inkişafının idarə edilməsi.**

4.1. İbtidai sinif müəlliminin və sinif kollektivinin tərbiyəvi fəaliyyətinin təhlili. Şagirdlərin tərbiyəlilik səviyyəsinin öyrənilməsi metodikası.

Tərbiyə işinin təşkilində pedaqoji təhlilin rolu. Təhlilin növləri (operativ, tematik, yekun). Təhlilin məzmunu. İbtidai sinif müəlliminin işinin qiymətləndirilmə meyarları. Pedaqoji təhlilin metodikası. Şəxsiyyətin (sinfin) pedaqoji-psixoloji səciyyəsi. Şagird şəxsiyyətinin diaqnostika metodikaları.

4.2. İbtidai sinif müəlliminin fəaliyyətinin məzmunu.

Kiçik yaşlı məktəblilərin tərbiyə proqramı son məqsədə nail olma üzrə ibtidai sinif müəlliminin fəaliyyətinin məzmunu kimi. Kiçik yaşlı məktəblilərin tərbiyəvi proqramına verilən sosial-pedaqoji tələblər. Proqramın ümumi modeli. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyət proqramı.

4.3. İbtidai sinif müəlliminin işinin planlaşdırılması. İbtidai sinif müəlliminin planının strukturu. İbtidai sinif müəlliminin iş planına verilən tələblər. İbtidai sinif müəlliminin iş planının məzmunu. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin planlaşdırılmasının formaları.

4.4. Pedaqoji ünsiyyət.

Peşə pedaqoji ünsiyyəti. Pedaqoji ünsiyyətin üslubları. Pedaqoji təsirin stukturu. Pedaqoji ünsiyyət və şagirdlərin şəxsiyyətlərarası dəyərləri. Müəllimin pedaqoji taktı. İbtidai sinif müəllimi və şagirdlərin kommunikativ qabiliyyətlərinin inkişafı. İbtidai sinif müəlliminin diqqətcilliyi, təxəyyülü və yaradıcılığı.

**Mövzu 5. İbtidai sinif müəlliminin ustalığının əsasları.**

5.1. Şagirdlərlə fərdi iş. Şagirdlərə fərdi pedaqoji-psixoloji yardımın texnologiyası.

Tərbiyədə şəxsiyyətyönümlü yanaşma. Uşaqlarla fərdi işin təşkilinin prinsipləri. Şagirdlə fərdi işin təşkilinin psixoloji əsasları. Oğlanların və qızların tərbiyəsinin xüsusiyyətləri. İstedadlı uşaqlarla işin xüsusiyyətləri. Şagirdlərlə fərdi işin forma və metodları. İbtidai sinif şagirdləri ilə fərdi işin mərhələləri. İbtidai sinif müəlliminin fərdi söhbəti ayrı-ayrı şagirdlərlə işin aparıcı metodu kimi. "Şagirdin şagirdə fərdi pedaqoi-psixoloji yardımı" anlayışı.

5.2. Şagird qrupu ilə iş. Kollektiv yaradıcı fəaliyyətin texnologiyası. Tərbiyə işinin formaları.

Qrupun inkişafının müasir nəzəriyyələri. Şagird şəxsiyyətinin inkişafında qrupun rolu. İbtidai sinif müəlliminin sinif kollektivinin inkişafı üzrə fəaliyyəti. Şəxsiyyət və kollektiv. Kollektiv yaradıcı fəaliyyət (mərhələləri, növləri, formaları). Şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla sinif kollektivi ilə işin formaları.

5.3. İbtidai sinif müəllimlərinin valideynlərlə qarşılıqlı əlaqəsi.

Ailə tərbiyə institutu kimi. Məktəbli şəxsiyyətinin inkişafı və formalaşdırılmasında ailənin rolu və imkanları. Ailə tərbiyəsinin humanistləşdirilməsi. Ailə tərbiyəsinin prisipləri. Ailə tərbiyəsinin funksiyaları. İbtidai sinif müəlliminin valideynlərlə işinin məqsəd və vəzifələri. İbtidai sinif müəlliminin və ailənin kiçik yaşlı məktəblilərin tərbiyəsi üzrə birgə fəaliyyətinin əsas istiqamətləri. Valideynlərlə işin planlaşdırılması. Valideynlərlə işin formaları.

5.4. İbtidai sinif müəlliminin məktəb rəhbərliyi, müəllimlər, sosial, psixoloji xidmətlərin və məktəbdənkənar müəssisələrin nümayəndələri ilə birgə fəaliyyəti. Müasir şəraitdə tərbiyəedici tərəflərin qarşılıqlı əlaqəsi problemi. İbtidai sinif müəlliminin məktəb rəhbərliyi, müəllimlər, sosial, psixoloji xidmətlərin və məktəbdənkənar müəssisələrin nümayəndələri ilə birgə fəaliyyətinin əsas istiqamətləri. Müasir dövrdə uşaq və gənclər hərəkatı. Məktəbin və ictimai təşkilatların birgə fəaliyyətinin formaları.

***Seminar-praktikum.***

Mövzu 3.1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin məzmunu. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin xüsusiyyətləri.

***Məşğələnin planı:***

1. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin məzmunu.
2. Müasir dövrdə ibtidai sinif müəllimi: problemlər, perspektivlər.
3. İbtidai sinif müəlliminin funksiyaları. Hüquqları.Vəzifələri.
4. İbtidai sinif müəlliminin şəxsiyyəti.

***Praktik məşğələlər.***

Mövzu 3.2. Sinfin tərbiyə sistemi pedaqoji hadisə və anlayış kimi. Sinfin tərbiyə sisteminin modelləşdirilməsi. Sinfin sistemyaratma fəaliyyət növünün seçilməsi.

***Məşğələnin planı:***

1. Sinfin tərbiyə sistemi, onun əsas komponentləri və mərhələləri.
2. Sinfin tərbiyə sisteminin modelləşdirilməsi.
3. Sinfin tərbiyə sisteminin modelləşdirilməsi üzrə ibtidai sinif müəlliminin iş təcrübəsi.

Mövzu 4.1. İbtidai sinif müəllimi və sinif kollektivinin tərbiyəvi fəaliyyətinin təhlili. Şagirdlərin tərbiyəlilik səviyyəsinin öyrənilməsi metodikası.

***Məşğələnin planı:***

1. Tərbiyə işinin təhlilinə sistemli yanaşma. Təlilin məzmunu. Təhlilin növləri.
2. Məktəblilərin tərbiyəlilik səviyyəsinin öyrənilməsi metodikaları.

Mövzu 4.3. İbtidai sinif müəlliminin tərbiyəvi işinin planlaşdırılması.

***Məşğələnin planı:***

1. İbtidai sinif müəlliminin tərbiyəvi iş planına verilən tələblər.
2. İbtidai sinif müəlliminin tərbiyəvi iş planının məzmunu. İbtidai sinif müəlliminin tərbiyəvi iş planının strukturu.
3. İbtidai sinif müəlliminin tərbiyəvi işinin planlaşdırılmasının formaları.

Mövzu 5.1. Şagirdlərlə fərdi iş. Şagirdlərə fərdi pedaqoji-psixoloji yardımın texnologiyası.

***Məşğələnin planı:***

1. Tərbiyədə şəxsi yanaşma. Uşaqlarla fərdi işin təşkili prinsipləri.
2. Oğlanların və qızların tərbiyəsinin xüsusiyyətləri.
3. İstedadlı uşaqlarla işin xüsusiyyətləri.
4. Şagirdlərlə fərdi işin forma və metodları.

Mövzu 5.2. Şagird qrupu ilə iş. Kollektiv yaradıcı fəaliyyətin texnologiyası.

***Tərbiyə işinin formaları.***

***Məşğələnin planı:***

1. Qrupun inkişafının müasir nəzəriyyələri. Şagird şəxsiyyətinin inkişafında qrupun rolu.
2. İbtidai sinif müəlliminin sinif kollektivinin inkişafı üzrə fəaliyyəti.
3. Kollektiv yaradıcı fəaliyyət (mərhələləri, növləri, formaları).
4. Sinif kollektivi ilə işin formaları.

Mövzu 5.3. İbtidai sinif müəllimlərinin valideynlərlə qarşılıqlı əlaqəsi.

***Məşğələnin planı:***

1. Ailə tərbiyə institutu kimi. Ailə tərbiyəsinin humanistləşdirilməsi. Ailə tərbiyəsinin növləri. Ailə tərbiyəsinin prinsipləri. Ailə tərbiyəsinin funksiyaları.
2. İbtidai sinif müəlliminin və ailənin kiçik yaşlı məktəblilərin tərbiyəsi üzrə birgə fəaliyyətinin əsas istiqamətləri.
3. Valideynlərlə işin planlaşdırılması. Valideynlərlə işin formaları.

Mövzu 5.4. İbtidai sinif müəlliminin məktəb rəhbərliyi, müəllimlər, sosial, psixoloji xidmətlərin və məktəbdənkənar müəssisələrin nümayəndələri ilə birgə fəaliyyəti.

***Məşğələnin planı:***

1. İbtidai sinif müəlliminin məktəb rəhbərliyi, müəllimlər, sosial, psixoloji xidmətlərin və məktəbdənkənar müəssisələrin nümayəndələri ilə birgə fəaliyyətinin əsas istiqamətləri.

2. İbtidai məktəbin və ictimai təşkilatların birgə fəaliyyətinin formaları.

Bu proqram eksperimental qrupun üzvlərinin tərbiyə nəzəriyyəsi və praktikasına cəlb edilməsi ilə reallaşdırıldı. Belə ki, bir il ərzində eksperiment iştirakçıları tərbiyə nəzəriyyəsini öyrənmiş, praktik məşğələlərdə mənimsədiklərini tətbiq etmişdilər. Praktik məşğələləri isə tədqiqatın müəllifi aparırdı. Aparılan dərslərin miqdarı dinləyicilərin hazırlıq səviyyəsindən və onların maraq dairəsindən asılı idi. Təklif etdiyimiz proqramın məzmunu isə təhsil müəssisəsinin və pedaqoji kollektivin xüsusiyyətləri, müəllimlərin istək və tələblərinə uyğun olaraq dəyişə də bilərdi.

**"İxtisasartırma sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması" proqramı üzrə nümunəvi tematik plan (əlavə təhsil fakültəsiinin nümunəsində) (48 saat)**

*Cədvəl 2.8*

| № | Məşğələlərin mövzusu | Məşğələlərin növü, saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Müh. | Sem. | Praktik məşğələlər |
| 1. | İşgüzar oyunlar: "Müasir məktəbdə ibtidai sinif müəllimi", "Müəllim nüfuzunun amilləri" | - | - | 4 |
| 2. | Müasir tərbiyə prosesinin xüsusiyyətləri. Tərbiyə texnologiyası | 2 | | |
| 3. | İbtidai sinif müəlliminin iş sistemi | 2 | | |

| | | | | |
|---|---|---|---|---|
| 3.1 | Müəllimin tərbiyə işinin məzmunu. Sinif rəhbərinin tərbiyəvi fəaliyyətinin xüsusiyyətləri. Məqsəd, vəzifə, hüquq, məsuliyyət | 2 | 2 | |
| 3.2 | Sinif tərbiyə sistemi pedaqoji anlayış və hadisə kimi. Sinfin tərbiyə sisteminin modelləşdirilməsi. Sinfin fəaliyyətində sistemləşmə. | 2 | | |
| 4. | Sinif tərbiyə sisteminin inkişafının idarə olunması | 2 | | |
| 4.1 | Sinif kollektivi və müəllimin tərbiyəvi işinin təhlili. Şagirdlərin tərbiyəlilik səviyyəsinin öyrənilməsinin metodikası. | 2 | | 2 |
| 4.2 | Sinif rəhbərinin tərbiyəvi fəaliyyətinin məzmunu | 2 | 2 | |
| 4.3 | Sinif kollektivi və sinif rəhbərinin işinin planlaşdırılması. | 2 | | |
| 4.4 | “Pedaqoji ünsiyyət” - sosial-pedaqoji treninq | | 2 | |
| 5. | İbtidai sinif müəlliminin ustalığının əsasları | 2 | | |
| 5.1 | Şagirdlərlə fərdi iş. Şagirdlərin fərdi psixoloji-pedaqoji dəstək texnologiyası | 2 | 2 | |
| 5.2 | Şagird qrupu ilə iş. Kollektiv yaradıcılıq fəaliyyətinin texnologiyası. Tərbiyə işinin formalaşdırılması | 2 | 2 | |
| 5.3 | “Məktəb müəllimlərinin valideynlərlə qarşılıqlı əlaqəsi” təşkilati oyunu | | | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 6. | İbtidai sinif müəlliminin məktəb müəllimləri və inzibati, sosial və psixoloji xidmət işçiləri, məktəbdənkənar müəssisələrin və təşkilatların nümayəndələri ilə birgə fəaliyyəti | 2 | | |
| 7. | "İbtidai sinif müəlliminin ustalığı" sosial-pedaqoji treninqi | | 2 | |
| 8. | Təhsil müəssisələrində tərbiyə işlərinin təşkili problemləri üzrə "ibtidai sinif müəlliminin fərdi fəaliyyət üslubu" mövzusunda təşkil olunmuş dəyirmi masa. Fərdi yaradıcılıq tapşırığı (buraxılış işlərinin müvzuları) | | 2 | 2 |
| | Cəmi | 24 | 14 | 10 |

Proqramın birinci hissəsi nəzəri hissədir (24 s.). Nəzəri məşğələlərinin əsas vəzifəsi psixoloji fənlər üzrə biliklərin dərinləşdirilməsidir. Bu zaman müasir tərbiyə prosesinin xüsusiyyətləri, müasir tərbiyə texnologiyaları, ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin xüsusiyyətləri, sinfin tərbiyə sistemi anlayışı və şagirdlərlə fərdi işin təşkilinin öyrənilməsi nəzərdə tutulur. Məşğələlər əsasən mühazirə, seminar-praktikum, söhbət, dişkussiya, məruzə və məlumatlar formasında keçirilir. Qeyd etmək lazımdır ki, məşğələlərin dinləyicilərə təklif olunan təşkilat formaları ənənəvi formalardır. Buna görə də bizim üçün müəllimlərin üzvü olduqları pedaqoji kollektivdə və işlədikləri siniflərdə baş verən pedaqoji məsələlərin müzakirə və həllində, situasiyaların təhlilində iştirakı vacib idi.

İkinci hissə – praktiki hissədir (24 s.). Bu hissəyə məşğələlərin praktiki, işgüzar, təşkilatı oyunlar və treninqlər aid edilir.

Praktiki məşğələlərin əsas vəzifəsi ibtidai sinif müəlliminin bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsindən, tərbiyə

nəzəriyyəsinə aid bilikləri, kollektiv yaradıcılıq fəaliyyəti metodikasının təcrübədə yoxlanılmasından; fərdi iş metodikasının reallaşdırılmasından; özünün, həmkarlarının fəaliyyəti və təhsil-tərbiyə prosesinin təhlil edilməsindən; sinfin tərbiyə sisteminin modelləşdirilməsindən; tərbiyə proqramının hazırlanmasından; şagird kollektivi və şəxsiyyətin öyrənilməsi diaqnostikasının qurulması və istifadə edilməsindən, həmçinin bu kimi qabiliyyətlərin formalaşdırılmasına kömək etməkdən ibarətdir.

Tədqiqatlarımız göstərdi ki, ixtisasartırma kursunda praktik məşğələlərin keçirilməsində yaranan çətinliklərin səbəbi müəllimlərin çoxunun iş planının hazırlanmasının əhəmiyyəti və vacibliyini başa düşməməsidir. Buna görə də müəllimlərin bir çoxunun fəaliyyəti kortəbii xarakter daşıyır.

Bir çox müəllimlər bütövlükdə təlim-tərbiyə prosesini, özünün və həmkarlarının fəaliyyətini təhlil etmək bacarığına malik olmurlar. Bu isə tərbiyəvi təsirlərin nəticələrinə, onları əvvəlcədən görmək və pedaqoji situasiyanın həlli üçün daha məqsədəuyğun pedaqoji üsullar tapmaq bacarığına təsir göstərir.

Fikrimizcə, ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanması üsullarından biri də işgüzar oyunlardır. İşgüzar oyunların keçirilməsinin əsas xüsusiyyəti təlim prosesini müəllimlərin real praktik fəaliyyətinə daha da yaxınlaşdırmaqdan, işgüzar oyunun təlimin üsulu kimi qəbul edilməsindən ibarətdir. Bu, təlimin fərdi və kollektiv üsullarını özündə birləşdirir ki, burada xüsusi vasitələrlə iştirakçıları oyuna cəlb etmək mümkündür.

Tədqiqatımız göstərdi ki, mühazirələr zamanı məlumatların yalnız 20% mənimsənilirsə, işgüzar oyunlarda bu 90% təşkil edir. Fikrimizcə, təhsil prosesində işgüzar oyunlardan geniş istifadə bir çox fənlərin öyrənilməsinə ayrılmış vaxtı 30-50% azaltmağa və tədris materiallarının daha yaxşı qavranılmasına imkan verir.

İştirakçıların fikrincə, işgüzar oyun zamanı təlim prosesi daha yaradıcı və maraqlı olur. Məhz buna görə də işgüzar oyunlarda dinləyicilərin fəallığı artmış, davamlı xarakter daşımışdır. Məsələn, dinləyicilərlə keçirdiyimiz «İbtidai məktəb müəllimlərinin valideyn-

lərlə qarşılıqlı əlaqəsi» adlı işgüzar oyunun mövzusu tərbiyə prosesində müəllim və valideyn əməkdaşlığının lazımi səviyyədə qurulması tələbatından irəli gəlmişdir.

İşgüzar oyunun məqsədi müəllim və valideynlərin əməkdaşlığının təşkili metodikasını öyrənmək; müxtəlif yaşlı, müxtəlif səviyyəli, məktəb problemləri və tərbiyəyə fərqli münasibətli insanlarla problemlərin müzakirəsini təşkil etməyi öyrənmək; əməkdaşlıq proqramını hazırlamaqdır.

İşgüzar oyunların təşkili və keçirilməsi zamanı əsas vəzifə məllimlər və şagirdlər arasındakı təlimdənkənar fəaliyyətdə əməkdaşlığı metodiki cəhətdən düzgün təşkil etmək bacarığının formalaşdırılması və təkmilləşdirilməsindən ibarətdir.

İşgüzar oyunun strukturu bir neçə mərhələdən ibarətdir. Oyunun məzmununu şagirdlərin tərbiyəsi prosesində ailə və məktəbin əməkdaşlığı probleminin müzakirəsi təşkil edir. Qrupda istifadə olunan əsas iş metodu diskussiya, müzakirə və refleksiyadır.

Oyunun iştirakçıları oyun rəhbərləri, ekspertlər və texniki oyunçulardır. Texniki oyunçular və ekspertlər rolunda məktəbin rəhbərləri çıxış edirdilər, belə ki, onlar artıq oyunun iştirakçıları olmuşlar.

Oyunun gedişi.

I mərhələ. Hazırlıq.

– Oyun rəhbərinin giriş sözü. Məqsəd, vəzifə, oyun strukturunun müəyyənləşdirilməsi.

– İştirakçıların kiçik qruplara bölünməsi (7 nəfərdən çox olmamaqla).

Texniki oyunçular və ekspertlərin tamaşası.

II mərhələ. Qruplarda iş.

– Elan edilmiş mövzunun müzakirəsi. Müzakirə zamanı müəllimlər – Tərbiyəçi-müəllim kimdir? Hər bir müəllim tərbiyəçi ola bilərmi? Tərbiyəçi-müəllimin şəxsi keyfiyyətləri. Tərbiyə işinin təşkilində müəllimə vacib olan bilik və bacarıqlar. Müəllimin peşə ustalığının yüksəldilməsi üsulları kimi məsələləri müzakirə edirdilər.

– Tərbiyə işinin təşkilində müəllimin peşə ustalığının yüksəlməsinə mane olan problemlərin iştirakçılar tərəfindən həlli.

– Problemlərin əhəmiyyətinə görə düzülməsi.

– “Problemlər ağacı”nın qurulması, başqa sözlə, əsas və digər problemlərin seçilməsi. Hər bir problemin məqsədinin müəyyənləşdirilməsi.

III mərhələ

– Nəzərdə tutulmuş layihə əsasında hər bir qrupa mövzunun həlli üçün proqram təqdim edilmişdir.

– Layihənin müdafiə olunması. Hər bir qrup öz layihəsini təqdim etmişdir.

IV mərhələ

– Ekspertin çıxışı.

– Problemin həllinə dair proqramın hazırlanmasında mikroqrup nümayəndə-lərinin işi.

– Alınmış nəticələrin ümumiləşdirilməsi və oyunçuların oyundan çıxarılması.

V mərhələ

– Oyunun təşkilatçıları, rəhbərləri və ekspertlər tərəfindən oyunun gedişi və nəticələrinin müzakirəsi.

Dinləyicilər tərəfindən müzakirənin gedişində məktəb və ailənin qarşılıqlı əlaqəsinə mane olan problemlər dairəsi üzə çıxarıldı. Məsələn:

– sosial-iqtisadi problemlər – cəmiyyətin təbəqələşməsi; bir çox ailələrin həyat səviyyəsinin aşağı düşməsi; alkoqolizm və narkomaniya problemi; valideynlərin məşğulluğu, uşağın oyuncaqlar və təlim ləvazimatları ilə təminatının aşağı olması, təhsil müəssisələrinin maliyyələşdirilməsinin aşağı səviyyədə olması, dəyər orientasiyasının dəyişməsi, təhsil müəssisələri arasında rəqabətin yaranması, kütləvi informasiya vasitələrinin təsiri və s.

– pedaqoji-psixoloji problemlər – valideynlərin uşağın tərbiyəsini məktəbə həvalə etməsi, valideynlərin pedaqoji savadsızlığı, müəllimin valideynlərlə ünsiyyət qurmaqdan çəkinməsi, müəllimin peşə səviyyəsinin lazımınca yüksək olmaması, valideynlərlə aparılan işin yeknəsəq olması, valideynlərin məktəblə həvəssiz əlaqə saxlaması və s.

– şəxsi-emosional problemlər – uşaq aqressivliyinin artması, uşaqlara məhəbbətin çatışmazlığı, bir-biri ilə ünsiyyət qura bilməməsi, təhsil prosesi iştirakçılarının ümumi mədəniyyət səviyyəsinin aşağı düşməsi, mühitin mənfi təsiri və s.

Problem baxımından məqsədlər (ümumi və xüsusi) də müəyyənləşdirildi:

Ümumi məqsədlər – təhsil müəssisələrinin statusunun yüksəldilməsinə təkan vermək, sağlam həyat tərzinin təbliğatını təşkil etmək, KİV-nin mənfi münasibətini neytrallaşdırmaq, xalq mədəniyyət ənənələrinin qorunmasına kömək etmək və s.

Xüsusi məqsədlər – valideynlərlə maarifləndirmə işini təkmilləşdirmək, valideynlərlə aparılan işin rəngarəngliyini təmin etmək və səmərəsini yüksəltmək, müəllim və valideynlərdə özünütəhsilə təlabatı inkişaf etdirmək, ünsiyyət mədəniyyətinə və özünüdərkə təkan vermək, müəllimin peşə ustalığının yüksəldilməsinə şərait yaratmaq və s.

Bu məqsədlərə nail olmaq üçün ilk növbədə müəllimlər, sonra isə valideynlər, uşaqlar və təhsil müəssisələri səviyyəsində proqramlar hazırlandı. Məsələn: (Şək. 2.2)

**Müəllimin peşə ustalığının və ünsiyyət mədəniyyətinin yüksəldilməsinə şəraitin yaradılması üçün müəllim, valideyn, uşaq və məktəb səviyyəsində görülən işlər.**

***Şəkil 2.2.***

| Məqsəd | Görülən iş | Məsul şəxs | Müddət |
|---|---|---|---|
| Müəllimin peşə ustalığının yüksəldilməsi üçün şərait yaratmaq | 1. Müəllimlərin məktəb, rayon və şəhər metodbirləşmələri<br>2. Dəyirmi masa, yaradıcılıq görüşləri<br>3. Öyrənmək üçün fərdi mövzular | Müəllim, metodbirləşmələrin rəhbərləri | Tədris ili müddətində |

| | | | |
|---|---|---|---|
| Ünsiyyət mədəniyyətinin yüksəldilməsinə kömək etmək | 1. İşgüzar oyun “Pedaqoji ünsiyyətin xüsusiyyətləri”.<br>2. Valideynlər üçün treninq: “Eşitmək və qulaq asmağı bacarıqmı?” | Metodbirləşmələrin rəhbərləri, məktəbin psixoloji xidməti | oktyabr, dekabr |

Bu işgüzar oyun çox səmərəli olub müəllimlərin peşəkarlığının təkmilləşməsinə zəmin yaratdı, yaradılmış mühit isə onlara sərbəstlik verdi. Oyun müəllimlərə yaradıcılıq üçün sərbəstlik verdi, təşkilatçılıq, layihələşdirmə, kommunikativ və bu kimi bacarıqların üzə çıxmasına imkan yaratdı. Belə bir oyunun əsas xüsusiyyəti onun süni olaraq yaradılması idi. Onun mövzusu yaranmış problemlərlə müəyyənləşdirilmişdir. Bu üsulun uğurlu olması vaxtın müddətsiz olmasından, müsbət emosional hisslərdən, oyun iştirakçılarının müzakirə olunan mövzunun əhəmiyyəti və vacibliyini başa düşməsindən asılıdır.

İxtisasartırma fakültəsinin dinləyicilərinin təşkil etdikləri işgüzar oyunlar mövzuların müxtəlifliyi ilə nəzəri cəlb edirdi. Məsələn, “Tərbiyə prosesinin humanistləşdirilməsi”, “Pedaqoji ünsiyyət mədəniyyəti”, “İbtidai sinif müəlliminin ustalığı”, “Müasir ibtidai sinif müəllimi”, “Müasir tərbiyə formaları”və s.

İşgüzar oyunun daha bir nümunəsi.

Mövzu: “Müasir ibtidai sinif müəllimi”,

Məqsəd: Təhsil-tərbiyə müəssisəsində ibtidai sinif müəlliminin yeri və rolunun müəyyənləşdirilməsi.

Oyunun gedişi:

Oyun dörd mərhələdə keçirilirdi (sxem 2.2).

**"Müasir ibtidai sinif müəllimi" oyununun mərhələləri.**

***Sxem 2.2***




1 2 3 4

Problemin təyin olunması və oyunun vəzifələrinin müəyyənləşdirilməsi.

Şəraitin təhlili (ölkədə sosial-iqtisadi vəziyyətin səciyyəsi, təhsil müəssisəsində ibtidai sinif müəlliminin yeri, rolu və iş şəraiti).

Mikroqruplarda iş – ibtidai sinif müəlliminin fəaliyyətinin təsviri (fəaliyyətin məqsəd və vəzifələri; ibtidai sinif müəlliminin fəaliyyətinin cəmiyyət üçün vacibliyi və bu peşəyə tələbat).

Fikir mübadiləsi, ümumi diskussiya.

Nəticələrin ümumiləşdirilməsi – müasir ixtisaslı ibtidai sinif müəllimi modelinin müəyyənləşdirilməsi (ibtidai sinif müəllimınə verilən peşə tələbləri, daha əhəmiyyətli peşə və şəxsi keyfiyyətlərin seçilməsi; peşə fəaliyyətinin forma və vəzifələrinin müəyyənləşdirilməsi).

Fikrimizcə, işgüzar oyun eyni zamanda həm metod, həm də texnologiya olmaqla, müəllimlərdə tərbiyə prosesinə şəxsi münasibət və bu iş üçün fərdi plan qurmaqla bacarıq və vərdişlərin yaranmasına köməklik göstərir.

Bu, aşağıdakı yollarla həyata keçirilir:

– problemin mahiyyətinin onun həlli yollarının oyun iştirakçıları tərəfindən başa düşülməsi;

– təfəkkürün dəyişməsinə zəmin yaradan yeni əqli fəaliyyət formasının yaranması;

– ibtidai sinif müəlliminin tərbiyə prosesində özünütəyini və bu prosesdə onun rolu, tərbiyə işinə hazırlığının xüsusi strategiyası;

– hər bir iştirakçının şəxsi və peşə səviyyəsini təmin edən şəxsiyyətlərarası münasibət və işgüzar əlaqələrin təşkili.

İşgüzar oyun zamanı qrupla iş ibtidai sinif müəllimlərində bir sıra bacarıqların formalaşmasını reallaşdırır:

– dəqiq müəyyənləşdirilmiş mövqe tutmaq, müxtəlif şəraitlərdə məhz bu mövqedən danışmaq və hərəkət etmək bacarığı;

– ibtidai sinif müəlliminin bacarıq və vərdişlərinin müsbət təhlili üçün bilərəkdən mövqeyi dəyişmək bacarığı;

– ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasının strategiyasını yaratmaq, onu həyata keçirmək, məqsədə nail olmaq üçün fərdi üsulları və onların səmərəliliyini təhlil etmək bacarığı;

– fikir və hərəkət, fikir və şəxsiyyət arasındakı fərqi üzə çıxarmaq, fikri hərəkətə çevirə bilmək bacarığı;

Dinləyicilərlə keçirilən treninq məşğələlərinin əsas məqsədi ibtidai sinif müəllimlərində öz emosional və fiziki vəziyyətini təhlil və idarə etmək, kollektivlə və şagirdlərlə qarşılıqlı əlaqə qurmaq və bu kimi bacarıqları formalaşdırmaqdan ibarətdir. Treninqlərdən istifadə etmək məqsədlərindən biri də ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətində pedaqoji peşə ustalığının formalaşdırılması prosesində fərdi-şəxsiyyət keyfiyyətlərinin yaradılması və təkmilləşdirilməsidir.

Treninqin gedişində həll edilən vəzifələr aşağıdakılardır:

– ibtidai sinif müəlliminin öz emosional və fiziki durumunu təhlil və idarə etmək üçün fərdi bacarıqların diaqnostikası;

– özünütənzimləmənin inkişafı; öz vəziyyətinə fərdi nəzarətin mükəmməlləşdirilməsi;

– tərbiyəedici fəaliyyətdə fərdi bacarıq və vərdişlərin təkmilləşdirilməsi.

Treninq-məşğələlərin keçirilməsində biz aşağıdakı prinsiplərə əsaslanmışıq:

1. Şəxsi fəallıq prinsipi – bu prinsipə görə treninqdə iş zamanı müəllimin özünüinkişafında maraqlı olması nəzərdə tutulur.

2. Şəxsiyyətlərarası ünsiyyət prinsipi – bu prinsip qrup məşğələlərində müəllimlərin qarşılıqlı hörmət və anlaşmaya əsaslanan qarşılıqlı əlaqəsini nəzərdə tutur.

3. Özünü diaqnozlaşdırma prinsipi – bu prinsipdə isə qrupun işinin gedişində müəllimin refleksiv mövqeyi, onun şəxsi əhəmiyyətli problemləri aydınlaşdırması və həlli nəzərdə tutulur.

Məhz bu prinsiplər hər bir dinləyicinin öz şəxsi mövqeyini aydın görməyə imkan verir.

"İbtidai sinif müəlliminin ustalığı" mövzusundakı treninqdə biz qrupla iş zamanı –problemli diskussiya, başqasına təsir etmək bacarıqlarını formalaşdırmağa istiqamətlənmiş tapşırıqlar və digər üsulları təcrübədən keçirdik.

Treninq məşğələləri zamanı müəllimdə öz emosional və fiziki vəziyyətini təhlil və idarə etmək bacarığının formalaşdırması tərbiyəçi-müəllimə peşə çətinliklərini aradan qaldırmaqda özünü reallaşdırmağa, tərbiyə prosesinin təşkilində müəllimə mane olan fərdi xüsusiyyətlərin düzəlişinə; pedaqoji və psixoloji maneələrin dəf edilməsinə; tərbiyəçi müəllimin fərdi bacarıqlarının təkmilləşdirilməsinə imkan yaranır.

Müşahidələrimiz göstərdi ki, ibtidai sinif müəllimi treninqlər zamanı qrupda özünü qəbul edilən və fəal surətdə digərlərini qəbul edən kimi hiss edir, o, qrupun etibarını qazanır və öz fərdi xüsusiyyətlərini biruzə verməkdən çəkinmir. Qrupda daim qarşılıqlı əlaqələr yaranır və bu da müəllimə öz emosional vəziyyətini təhlil və idarə etmək bacarığını əks etdirən hərəkətlərinin səmərəliliyi haqqında həmkarlarının, ünsiyyətdə və əlaqədə olduğu insanların onun fərdi keyfiyyətləri və hissləri haqqında fikrini öyrənməyə imkan verir. Qrupla iş şəraitində müəllim müxtəlif sosial və peşə rollarını öz üzərinə götürür, ibtidai sinif müəllimi kimi öz fərdiliyini dərk edir və inkişaf etdirir, öz həmkarları, valideynlər və şagirdlərlə fərdi qarşılıqlı əlaqələr axtarır.

Biz fərdi və qrupla məsləhətlərin təşkilinə daha böyük əhəmiyyət verdik. Bu məsləhətlərin gedişində təlimin vəzifələri, ibtidai sinif müəlliminin öyrəndikləri bilikləri təcrübəyə tətbiq etmək üçün

müstəqil işin planlaşdırılması və idarə olunması reallaşdırılır. Fikrimizcə, məhz fərdi və qrupla məşğələlər hər bir müəllimin tərbiyə işi problemlərinə münasibətini, bu məsələ ilə bağlı onların nə dərəcədə məlumatlı olmasını üzə çıxarır.

Fərdi məsləhətlərin mövzuları çox rəngarəng olur. ("Sinfin və məktəbin tərbiyə sistemi", "Şagirdlərlə işin xüsusi formaları", "İşlərin sinif müəllimi tərəfindən planlaşdırılması" və s.) Belə məsləhətlər əsasən söhbət və dialoq formasında keçirilir. Burada müəllim dinləyiciləri qanunauyğunluq və baxışlar sistemi haqqında məlumatlandırır. Belə söhbətlər canlı, emosional səciyyəli və çox zaman müəllimin məlumata şəxsi münasibəti ilə əlaqəli olub, tərbiyəvi xarakter daşıyırdı. Bu cür əlaqələrdə müəllim şəxsiyyəti tərbiyəçi-müəllimin tərbiyəvi fəaliyyətinə düzgün münasibətin formalaşmasına əsaslı surətdə təsir göstərir.

Biz tez-tez diskussiyalardan da istifadə edirdik. Diskussiya mübahisəli məsələnin müzakirəsi, əməkdaşlar arasında fikir mübadiləsidir.

Diskussiyanın vəzifəsi müzakirə olunan məsələyə dair fərqli fikirləri cəmləmək, həqiqəti üzə çıxarmaqdır. Diskussiyanın sonunda, bir qayda olaraq, deyilən fikirlər ümumiləşdirilir, səhvlər və yanlış fikirlər göstərilir, yeni ideyalar qeyd olunur.

Tərəfimizdən təşkil olunan bəzi diskussiyasıların mövzuları:

1. Müasir yeniyetmə. O necədir?
2. Müasir tərbiyəçi. O necədir?
3. Mənim müasirlərim
4. Məktəbə tərbiyəçi lazımdırmı?
5. Müasir gənclərin dəyərləri.
6. Ailədə rəğbətləndirmə və cəzalandırma.
7. Xeyir və Şər.
8. Mənəviyyat – bu nə deməkdir?
9. Dostluq yaşlıların və uşaqların təsəvvüründə
10. İnsan nə üçün çalışır?

Diskussiyanın məntiqi və texnologiyası 3 mərhələdə aparılır:

– birinci mərhələ – diskussiyanın məqsədi və problemini müəyyənləşdirilməsi (məsələn, yeniyetmənin tərbiyəsində uşaq və gənclər ictimai təşkilatlarının yerini və rolunu müəyyənləşdirmək.) Diskussiyanın keçirilmə müddəti və qaydaları təyin olunur, iştirakçıların motivasiya sferası yaradılır;

– ikinci mərhələ – məlumatların mübadiləsi və toplanması (fəaliyyətdə olan uşaq və gənclərin təşkilatı və hərakatları, müasir tərbiyə prosesində onların yeri və rolu haqqında);

– üçüncü mərhələ – toplanan məlumatın təhlili (diskussiyanı yekunlaşdırılması, alınan nəticələrin diskussiyanın məqsədi ilə müqayisəsi, son nəticələrin qısa və dürüst ifadə edilməsi).

Diskussiyanın keçirilməsində biz yalnız fikirlər, biliklər və təcrübə mübadiləsinin vacibliyini nəzərdə tutmamışdıq. Opponentləri dinləməyi bacarmaq, öz fikrini müdafiə etmək daha vacib sayılırdı. Bu zaman müəllimlərdən inandırıcı arqumentlərin, əsaslandırılmış mühakimələrin axtarışı tələb olunurdu, bu isə öz növbəsində, müəllimi fəal zehni fəaliyyətə, bilikləri artırmağa, ünsiyyət qurmağa, bacarıqlarını biruzə verməyə həvəsləndirirdi.

Bizim istifadə etdiyimiz "Əqli hücum" təlim metodunun başlıca xüsusiyyəti hər hansı bir problemin müzakirəsi üçün qrupun iki yarımqrupa bölünməsindən ibarətdir: ideya generatorları və tənqidçilər. İdeya "generatorları" problemin həlli üçün bütün fikirlərini söyləyir, sonra tənqidçilər bu fikirləri təhlil edir, qiymətləndirir, bütün fikirləri cəmləyir və bu problemin həllinə kömək edə bilən fikirləri seçirlər.

Dinləyicilərlə təlim prosesində istifadə etdiyimiz məşğələ növlərindən biri də seminar məşğələləridir. Seminar təhsilin formalarından biri kimi, elmi təfəkkür mədəniyyətinin inkşafına şərait yaradır. Seminar məşğələlərinin məqsədi dinləyicilərin öyrəndikləri sahəyə aid əldə etdikləri nəzəri bilikləri təhlil etmək, bacarıq və vərdişlərə yiyələnmək imkanını təmin etməkdir.

Seminar məşğələlərində həll etdiyimiz vəzifələr isə bunlardır:

- peşə təfəkkürünü inkişaf etdirmək;

- idrak motivasiyasını formalaşdırmaq;

- peşəyə aid bilikləri təlim prosesində istifadə etmək, yəni öyrənilən elmi yaxşı bilmək, elmin formula, anlayış, təriflərini öyrən-mək vərdişlərinə nail olmaq, mürəkkəb intellektual məsələlərin qoyuluşu və həlli bacarıqlarına, vərdişlərinə yiyələnmək; öz fikirlərini təsdiq və təkzib etməyi öyrənmək; pedaqoji ünsiyyətə nail olmaq və s.

Biz üç növ seminar keçirdik:

1. Nəzəri kursun mövzusu ilə əlaqədə olan və alınan nəzəri biliklərin dərindən öyrənilməsi məqsədi daşıyan seminar (məsələn, "İbtidai sinif müəllimi", "Müasir tərbiyə prosesinin xüsusiyyətləri", "Tərbiyə texnologiyaları" və s.)

2. Təlimin metodologiyasına münasibətdə nəzəri kursun daha vacib və səciyyəvi mövzulara və ya mövzularından birinə nəşr olunmuş seminar ("Sinif müəllimin tərbiyə işinin məzmunu", "Sinif müəlliminin işinin planlaşdırılması").

3. Elmin xüsusi probleminin həllinə həsr olunmuş tədqiqat tipli seminar ("Şagird qrupu ilə iş", "Tərbiyə işinin müasir formaları" və s.)

Seminar məşğələləri müxtəlif formalarda keçirilirdi: məlum plan üzrə geniş söhbət, eləcə də çox da böyük olmayan məruzə və onun dinləyicilər tərəfindən müzakirəsi. Bu məşğələ formaları bir-birini tamamlayırdılar. Söhbət zamanı məlumat qısa məruzə şəklində verilirdi. Məruzənin söylənməsi dinləyicilərin fikir mübadiləsilə müşayət olunur və bu canlı söhbətin yaranmasına gətirib çıxarır.

Biz seminar məşğələnin kollektiv təşkili formasından da istifadə etdik. Bu cür seminar "dəyirmi masa" prinsipi ilə aparılırdı. Fikrimizcə, bu forma müəllimlərin peşə ünsiyyətinin xüsusiyyətlərini daha dəqiq əks etdirir. Seminar məşğələsi – dinləyicilərlə hər zaman bilavasitə əlaqə, etibarlı münasibətlərin yaranması, pedaqoji ünsiyyətin məhsuldar formasıdır. Seminarlarda yaradıcı fəaliyyət mühitii yaradılır, dinləyicilər çıxış etməyə, diskussiyaya, mövzunu sadəcə danışmağa, referatları dinləməyə cəlb edilir (referatların mövzusu – "ibtidai sinif müəlliminin fərdi fəaliyyət üslubu", "Uşaq kollektivində tərbiyə işinin təşkili" və s.).

Seminarın təşkilində müəllim dinləyicilərin şəxsi keyfiyyətlərini də nəzərə alır. (auditoriya qarşısında özünü aparmaq bacarığı, emosionallıq və s.). Buna görə müəllim diskussiyanı idarə edir və rolları bölüşdürür. Özünə inamı olmayan şagirdlərə tanış olan mövzu üzrə çıxış etmək təklif edilir və bu, onlara müvəffəqiyyəti psixoloji cəhətdən hiss etmək imkanı verir. Seminar məşğələlərinin təşkili və keçirilməsi həmişə birgə fəaliyyət və birgə yaradıcılıq prinsipinə əsaslanmış olur. Dinləyicilərə seminar məşğələlərinin mövzuları əvvəlcədən bildirilir ki, bu da iştirakçıya seminara hazırlaşmağa imkan verir. Daha sonra isə mövzuya aid müxtəlif fikirlərin əsaslandırılması və açılmasına şərait yaradılır. Müzakirəyə aktual və problemli məsələlər təqdim olunur (məsələn, uşaq kollektivində özünüidarə, müasir tərbiyənin məqsəd və vəzifələri və s.). Məşğələlərin belə formada keçirilməsi dinləyicilərin elmi təfəkkürünü inkişaf etdirməyə, səhv mövqeyləri təkzib etməyə, öz fikrini fəallıqla müdafiə etməyə şərait yaradır.

Seminar məşğələlərinin müvəffəqiyyətlə keçirilməsi aşağıdakı şərtlərlə müəyyənləşdirilir:

– məqsədyönlüklə – problemin təyini, nəzəriyyə və təcrübənin əlaqələndirilməsi, öz təcrübi fəaliyyətində əldə edilmiş materiallardan istifadə;

– planlaşdırma ilə - seminarın müzakirə məsələlərinin müəyyənləşdirilməsi;

– seminarın təşkili ilə – diskussiya yaratmaq və davam etdirmək bacarığı,

bütün cavab və çıxışların konstruktiv təhlili;

– seminar aparıcısının davranışı ilə – bu isə heç də həmişə ali təhsil müəssisəsinin müəllimi olmaya da bilər;

– seminarın keçirilmə üsulu ilə – canlı diskussiya zamanı kəskin sualların meydana çıxması və ya qeyri-emosional, pərakəndə seminar;

– münasibətlərlə – əməkdaşlıq, hörmət, laqeydlik və s.

– qrupu idarə etməklə – dinləyicilərlə əlaqə, inamlı davranış, fəal tələbələrlə iş və s.

– müəllimin iradları ilə – peşə iradları və ya tamamilə iradsız.

Müəllimlərin ümumi mədəniyyət səviyyəsinin formalaşdırılmasına "Təhsil və mədəniyyət" adlı fakultativ kurs əhəmiyyətli təsir göstərir.

Fakultativ kursun məqsədi – müəllimlərin özünüinkişaf və özünütəkmilləşdirilməsi üçün şəraitin yaradılmasıdır.

Fakultativ kursun vəzifələri:

– dinləyiciləri ölkənin tarixi və mədəni irsi ilə tanış etmək;

– şəxsiyyətin ümumi və mədəni inkişafı üçün mədəniyyət müəssisələrinin tərbiyəvi imkanlarını göstərmək;

– tərbiyəvi təsirlərin təşkili üsullarını müəyyənləşdirmək.

Fakultativ kurslarında öyrənilənlər müəllimlərin yeni bilik qazanmalarına, müzakirə olunan məsələ ilə bağlı öz mövqeyini ifadə etməyə və əsaslandırmağa, mədəniyyətə və cəmiyyətə münasibət vasitəsi kimi dialoqa hazır olmağa şərait yaradır.

**"Təhsil və mədəniyyət" mövzusunda fakultativ kursun tədris-tematik planı**

*Şəkil 2.3*

| № | Mövzunun adı | Keçirilmə forması və yeri |
|---|---|---|
| 1. | Musiqi aləmində | Filormaniyada konsert proqramına tamaşaya gəlmək |
| 2. | Muğamın sehrində | Tanınmış muğam ustalarının ifalarını dinləmək |
| 3. | Təsviri incəsənət | Təsviri sənət əsərləri sərgilərinə və təsviri incəsənət muzeylərinə tamaşa |
| 4. | Azərbaycan ustalarının xalq yaradıcılığı | Xalq yaradıcılığı nümunələrinə tamaşa etmək |
| 5. | Teatr və müasirlik | "Kukla" teatrında tamaşaları seyr etmək |
| 6. | Mənim doğma vətənim | Şəhər və ölkə muzeylərinə səyahət |
| 7. | Görüş | Maraqlı insanlarla görüş (milli qəhrəman, ekoloqlar, hüquqşünaslar, aktyorlar və s.) |
| 8. | Bizim kino | Filmlərə baxış |

Fakultativ kursun təşkili formaları – dəyirmi masa arxasında maraqlı insanlarla görüşlər, teatrlara, muzeylərə, kitabxanalara səyahət etmək, alınmış məlumatların təhlili.

Proqramımızın həyata keçirilməsinin vacib şərtlərindən biri fərdi yaradıcılıq tapşırığını yerinə yetirməkdir (buraxılış işi).

Fərdi çalışma üçün seçilmiş mövzuların təhlili göstərir ki, ixtisasartırma fakültəsi dinləyicilərinin 89%-i idarəetmə psixologiyası, idarəetmə fəaliyyətinin təşkili, yaş psixologiyası, təlim texnologiyaları ilə bağlı mövzulara müraciət etmişlər. Dinləyicilərin yalnız 11%-i tərbiyə məsələlərilə maraqlanmışlar (uşaq kollektivində özünüidarə; müasir uşaq kollektivinin xüsusiyyətləri; ailə tərbiyəsi və s.). Ona görə də tədqiqatımızın eksperimental qrupu üzvlərinə fərdi çalışma üçün sırf tərbiyə problemləri üzrə müstəqil mövzu seçmək imkanı verildi.

Dinləyicilərə təklif olunan buraxılış işlərinin nümunəvi mövzuları:

– Kiçik məktəb yaş dövründə ünsiyyət əsas fəaliyyət növü kimi.
– Oyun və tərbiyə.
– Uşağı necə sevməli?
– Müasir tərbiyə prosesinin xüsusiyyətləri.
– Ailə və məktəbin əməkdaşlığı.
– Müasir tərbiyə konsepsiyaları.
– Sinif kollektivinin tərbiyəsi.
– Sinifdə tərbiyə işinin təşkili.
– Kollektiv yaradıcılıq fəaliyyətinin təşkili metodikası.
– Kollektivdə şəxsiyyət tərbiyəsi.
– Azərbaycan vətəndaşlarının vətənpərvərlik tərbiyəsi.
– İbtidai sinif müəlliminin fəaliyyətinin psixoloji cəhətləri.
– Kiçikyaşlı məktəblilərin mənəvi formalaşdırılması.
– Müasir məktəbdə tərbiyə işi.
– Müstəqillik, özfəaliyyət və özünüidarə.
– Şagirdə pedaqoji-psixoloji kömək.
– Sinfin tərbiyə sisteminin idarə olunması.

